Xalqın qəzeti!

# Xalq qəzeti

№ 241 (30935) 13 noyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan–Çin strateji tərəfdaşlığı sürətlə genişlənir

## Prezident İlham Əliyev Çinin "China Datang Corporation Ltd." şirkətinin nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Çinin "China Datang Corporation Ltd." şirkətinin Direktorlar Şurasının sədri Lü Cünün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı "China Datang Corporation Ltd." şirkətinin böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əhəmiyyətinə toxunaraq, bunun əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Ölkəmizdə çox sayda Çin şirkətinin fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev Azərbaycanla Çin arasında vizasız gediş-gəliş rejiminin tətbiqindən sonra Çindən ölkəmizə gələn turistlərin sayının artdığını qeyd etdi.

Dövlətimizin başçısı bu il Çinə dövlət və işgüzar səfərlərini xatırladı, həmin səfərlərdən sonra strateji tərəfdaşlıq əlaqələrimizin daha da genişləndiyini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən Lü Cün Bakının inkişafının onlarda xoş təəssürat hissi yaratdığını dedi. Qonaq ölkəmizdə özlərinə qarşı dost münasibəti qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə "China Datang Corporation Ltd." şirkəti arasında enerji keçidi, yaşıl enerji və yaşıl sənaye parkı layihələri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 30 il keçir




Səhifə ⇨ 5

## Qarabağ Zəfəri şərəfinə parad



Səhifə ⇨ 10

## Enerji əməkdaşlığından innovativ strateji tərəfdaşlığa doğru




Səhifə ⇨ 11

## Nikol Paşinyan illər əvvəl hansı "ölümü seçmişdi"?



Səhifə ⇨ 12

## Vaşinqtonun Orta Dəhliz və TRIPP strategiyası

*"C5+1" sammiti ABŞ-ın Mərkəzi Asiya maraqlarını əks etdirir*

**ABŞ, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan hökumətləri birgə bəyanat yayıb. Birləşmiş Ştatların Dövlət Departamenti xəbər verir ki, bəyanat "C5+1" formatının 10-cu ildönümü münasibətilə paylaşılıb. Bəyanatda Trampın Beynəlxalq Sülh və Rifah Marşrutunun (TRIPP) regional tranzit əlaqələrinin inkişafında rolundan söz açılıb.**

***(ardı 12-ci səhifədə)***



## Türkiyənin kədəri Azərbaycanın kədəridir



**Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Dövlətimizin başçısı Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə, həlak olmuş hərbçilərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib.

Türkiyə Respublikasının Prezidenti telefon zənginə və ifadə edilmiş başsağlığına görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkürünü bildirib.

Telefon danışığı zamanı Azərbaycanın və Türkiyənin aidiyyəti dövlət qurumlarının qəza ilə əlaqədar təmasda olduqları qeyd edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

Gəncədən qalxan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması nəticəsində hərbçilərin həlak olması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 noyabr 2025-ci il**

## Prezident İlham Əliyev Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 Noyabr Dövlət Bayrağı Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında paylaşım edib.

## Prezident İlham Əliyev: Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 Noyabr Dövlət Bayrağı Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında yeni paylaşım edib. Paylaşımda deyilir:**

*"Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Eşq olsun, Azərbaycan bayrağına!"*

## Prezident İlham Əliyevin 12 Noyabr Konstitusiya Günü ilə bağlı paylaşımı




**Prezident İlham Əliyev 12 Noyabr Konstitusiya Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda deyilir:**

*"12 Noyabr Azərbaycan Respublikasının Konstitusiya Günü".*

# Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.**

Görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Siz ölkəmizin müxtəlif bölgələrinə rəhbər vəzifələrə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir, əminəm ki, bu etimadı doğruldacaqsınız. Siz öz işinizlə, əməyinizlə qarşıda duran vəzifələrin icrası üçün səylərinizi əsirgəməyəcəksiniz.

Əlbəttə ki, böyük məsuliyyət böyük işlər tələb edir. İlk növbədə, mənim bütün tapşırıqlarımı yerinə yetirməlisiniz. Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın. Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar.

Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar, əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir.

Bizim bölgələrimizdə əsas infrastruktur layihələri, demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib. Demək olar ki, əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Təbii ki, köhnəlmiş infrastrukturun təzələnməsi, təmiri məsələləri var. Ancaq bu problem artıq ciddi problem kimi mövcud deyil. Bizim bütün bölgələrimizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elektrik infrastrukturunun yaradılması güclü potensial yaratmışdır.

Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Deyə bilmərəm, hələ ki, biz istənilən 100 faiz nəticəyə çatmışıq, ancaq bir çox bölgələrdə kənd yollarının təqribən 70-80 faizi təmirlidir və keyfiyyətlidir.

Bütün şəhərlərdə içməli su layihələri icra edilir. Kəndlərdə də içməli su ilə bağlı lazımi tədbirlər görülür, suvarma layihələri icra edilir, yeni su anbarlarının, su kanallarının tikintisi və suvarma ilə bağlı vəziyyət, ümumiyyətlə, müsbətə doğru dəyişir. Bütün digər infrastruktur layihələri, o cümlədən sosial infrastruktur layihələri, məktəb tikintisi, xəstəxanalar, idman obyektləri. Yəni, bu gün Azərbaycanın bölgələrində bütün bu məsələlər öz həllini tapır. Hər bir şəhərdə müasir xəstəxana fəaliyyət göstərir və bütün bunlar, əlbəttə ki, həm böyük vəsait, həm də gündəlik diqqət tələb edir. Yenə də deyirəm, biz bu məsələləri dövlət xətti ilə, dövlət büdcəsi hesabına regionların sosial-iqtisadi inkişafı proqramlarının icrası nəticəsində həll etmişik.

Qaldı ki, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapsın, burada da əsas prinsip sosial ədalət prinsipidir. Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək.

Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkin-biçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir.

Ancaq mən onu da bilirəm ki, yerlərdəki bəzi məmurlar məcbur olub o qanunsuz hərəkətləri icra ediblər. Onların, əlbəttə ki, üzərinə düşən məsuliyyət tamamilə başqa yanaşmanı tələb edirdi. Ancaq, eyni zamanda, o da həqiqətdir ki, bəzi hallarda bax, bu qanunsuz əməllərin təməlində harınlamış, acgöz, gözü doymayan mərkəzdə oturan məmurların göstərişləri olub. Amma yenə də deyirəm, sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək.

Bölgələrdə, əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir. Azərbaycanda bütövlükdə məşğulluqla bağlı son illər ərzində çox böyük islahatlar aparılıb, işsizliyin səviyyəsi aşağı düşüb. Ancaq o da həqiqətdir ki, bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyilləri mövcuddur. Bunun müxtəlif səbəbləri var. Miqrasiyanın, kəndlərdən şəhərlərə axının mövcud olması təkcə bizim ölkə üçün xas deyil, inkişaf etmiş ölkələrdə də bu var. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda, bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir.

Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Təbii ki, onlara dəstək vermək lazımdır. Çünki yerli istehsalın inkişafı həm məşğulluq məsələlərini təmin edir, eyni zamanda, yerli istehsalı da gücləndirir. Kənd təsərrüfatı və turizmlə bağlı son müddət ərzində dövlət xətti ilə bir çox önəmli addımlar atılmışdır. Bunu daha da genişləndirmək lazımdır. Xüsusilə turizm üçün cəlbedici olan bölgələrdə bu, iqtisadiyyatın, bölgə iqtisadiyyatının kənd təsərrüfatı ilə birlikdə əsas amilini təşkil etməlidir.

Bölgələrdəki ekoloji tarazlıq mütləq qorunmalıdır, ətraf mühitə böyük diqqət göstərilməlidir. Bizim bölgələrimizdə prinsip etibarilə ekologiya ilə bağlı ciddi problemlər yoxdur. Əsas problemlər Bakı şəhərində idi ki, biz bunu uğurla həll edirik. Bakının yeni mənzərəsi bunun əyani sübutudur. Vaxtilə burada ekoloji fəlakət hökm sürürdü. Həm Bakı, həm Sumqayıt ekoloji cəhətdən ən çirklənmiş şəhərlər hesab olunurdu. Bu gün isə bu, belə deyil. Bu gün Bakı, Sumqayıt parklar şəhərləridir. Biz köhnəlmiş müəssisələri köçürdük, neftlə çirklənmiş yerləri abadlaşdırdıq, rekultivasiya etdik, parklar saldıq. Qara şəhəri Ağ şəhərə çevirdik.

Bölgələrdə isə əlbəttə ki, ekoloji tarazlığın təmin edilməsi üçün, necə deyərlər, başqa üsullar var. Ona görə burada qanunsuz fəaliyyət daha çox ekoloji ziyan vurur, nəinki neft-qaz sənayesi. Ona görə qanunsuz fəaliyyəti məhdudlaşdırmaq, aradan qaldırmaq üçün mənim tərəfimdən müvafiq göstərişlər verildi, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ki, burada çayların məcralarının dəyişdirilməsi, tikinti üçün lazım olan qanunsuz malların işlənməsi, istehsalı - bütün bunlar tənzimlənməlidir və qanunsuz fəaliyyətə qətiyyən yol verilməməlidir.

Bir sözlə, Azərbaycanın bölgələri bu gün ən yüksək standartlara cavab verməlidir. Yenə də deyirəm, son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşı əyani şəkildə görür. Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma. Yəni, bütün bu işləri biz son illər ərzində görmüşük ki, insanlar daha yaxşı yaşasınlar. İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada - kəndlərdə insanlarla təmasda olmaq. Yəni, mənim tələblərim bundan ibarətdir. Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir.

Amma əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız. Sizin üzərinizə böyük vəzifə düşür, bəziləriniz artıq rəhbər vəzifələrdə çalışmısınız, təcrübəniz də var. Bəziləriniz yeni təyin olunursunuz. Ona görə əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız. Sizə uğurlar arzulayıram. Sağ olun.

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov:** Möhtərəm cənab Prezident, ilk öncə, bizə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan Respublikasının son illərdə bütün regionlarının, eyni zamanda, Naxçıvan Muxtar Respublikasının inkişafında xüsusi mərhələ var. Bu, Sizin xüsusi diqqət və qayğınızın nəticəsidir. Sizi əmin etmək istəyirik və söz veririk ki, bundan sonrakı fəaliyyətimizdə Sizin etimadı doğrultmaq məqsədilə verdiyiniz bütün tapşırıq və göstərişlərinizi vaxtında layiqincə yerinə yetirib bu tapşırıqların icrasını tam təmin edəcəyik.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlov:** Möhtərəm cənab Prezident, yenidən etimad göstərərək bizi vəzifəyə təyin etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Tam suveren Azərbaycanımızın banisi olaraq Zati-alinizin bütün tapşırıqlarını təyin olunduğumuz vəzifələrimizdə vicdanla, tam məsuliyyətimizlə və ləyaqətlə qeyd-şərtsiz icra edəcəyik. Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov:** Möhtərəm cənab Prezident, göstərdiyiniz böyük etimadı doğruldacağıq, müasir Azərbaycan Respublikasının banisi ulu öndərimiz Heydər Əliyevin ideyalarını yaşadacağıq, Sizə və Azərbaycan Respublikasına şərəflə xidmət edəcəyik.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev:** Möhtərəm cənab Prezident, əmin etmək istəyirəm ki, göstərdiyiniz böyük etimadı səylə, gücümüz, biliyimiz çərçivəsində tam şəkildə icra edəcəyik və işimizi ləyaqətlə, şərəflə davam etdirəcəyik. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov:** Möhtərəm cənab Prezident, bizə belə yüksək etimad göstərdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm və söz verirəm ki, bu etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Qax Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev:** Cənab Prezident, bizə göstərdiyiniz yüksək etimada görə bir daha təşəkkür edirik. Qarşımıza qoyduğunuz bütün vəzifələri bilik və bacarıqlarımızla yerinə yetirəcəyimizə söz veririk.

**Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elşən Həsənli:** Möhtərəm cənab Prezident, bizə göstərdiyiniz böyük etimada görə Sizə minnətdarlığımı bildirirəm. Verdiyiniz bu tapşırıqları və göstərdiyiniz böyük etimadı doğruldacağıma bütün varlığımla söz verirəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizə uğurlar.

*AZƏRTAC*

# “Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə” mövzusunda təşkil olunan beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunmuş “Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə” mövzusunda beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

Düz 30 il əvvəl bu gün – 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrinin davamı olaraq, ümumxalq səsverməsi – referendum yolu ilə suveren Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmişdir. Müstəqilliyinin yeni qazanıldığı, ərazilərinin hərbi təcavüzə məruz qaldığı, daxili gərginliyin hökm sürdüyü bir şəraitdə bu ali hüquqi sənədin qəbulu ölkə tarixi üçün çox mühüm ictimai-siyasi hadisə olmaqla, Azərbaycanın dövlət quruculuğunda yeni bir səhifənin başlanğıcını qoymuşdur.

Layihəsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birbaşa rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış, ümumbəşəri dəyərlərə, dünyanın qabaqcıl demokratik dövlətlərinin konstitusion təcrübəsinə əsaslanan Konstitusiya müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin bərqərar olmasının və demokratik ənənələrin təşəkkülünün qarantı rolunu oynamışdır.

Əsas Qanunda Azərbaycan xalqı dövlət hakimiyyətinin yeganə mənbəyi olaraq bəyan edilmiş, hakimiyyətlərin bölgüsü prinsipinə uyğun qaydada, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında qarşılıqlı balans və səlahiyyət çərçivəsi müəyyən edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmini, siyasi plüralizmin dəstəklənməsi, yerli özünüidarəetmənin fundamental əsaslarının formalaşdırılması da Konstitusiyada yer tutan əsas məsələlərdəndir.

Qəbulundan keçən dövr ərzində Konstitusiya ölkə daxilində aparılan çoxşaxəli islahatlar və qloballaşan dünyaya inteqrasiya üçün özül qismində çıxış etmiş, cəmiyyətdə qanunun aliliyinin təmini, azad sahibkarlığın və bazar iqtisadiyyatının inkişafı, xalqın tarixi, milli-mədəni irsinin qorunması istiqamətində əvəzsiz rola malik olduğunu və sağlam təməllər üzərində qurulduğunu sübut etmişdir.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, regionun qabaqcıl dövləti kimi layiqli yer tutması və cəmiyyətdə baş verən ictimai-siyasi proseslər Konstitusiyanın da dövrün çağırışlarına uyğunlaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə müxtəlif illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının təminatı mexanizmlərinin gücləndirilməsi, vətəndaş cəmiyyətinin əsaslarının dərinləşdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi yönündə bir çox əhəmiyyətli məsələləri ehtiva etmişdir.

Bu il biz həm də işğala məruz qalmış torpaqlarımızın azad edilməsi uğrunda apardığımız 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beşinci ildönümünü böyük qürur hissi ilə qeyd edirik. Ölkənin ərazi bütövlüyünün və dövlətin suverenliyinin bərpası Azərbaycanın inkişafında yeni bir tarixi mərhələnin əsasını qoymuş, həmçinin iqtisadi, sosial və mədəni sahələrlə yanaşı, hüquqi sahədə də islahatlar aparılmasını zəruri etmişdir. Bu baxımdan, əminəm ki, konfransda konstitusiya quruculuğu sahəsində tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif aktual mövzularda aparılacaq müzakirələr, əldə olunacaq nəticələr Konstitusiyanın aliliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi istiqamətində öz töhfəsini vermiş olacaqdır.

Bir daha Sizi Bakıda ürəkdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## E.O.İbrahimovun Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elxan Oqtay oğlu İbrahimov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## E.N.Paşayevin Qax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elvin Nazim oğlu Paşayev Qax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## O.Ç.Mürsəlovun Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Orxan Çingiz oğlu Mürsəlov Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsininin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## V.V.Novruzovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Vahid oğlu Novruzov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## N.N.Ağayevin Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Natiq Nuşravan oğlu Ağayev Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## E.N.Həsənlinin Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elşən Nazim oğlu Həsənli Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## N.N.Ağayevin Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Natiq Nuşravan oğlu Ağayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## V.V.Novruzovun Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Vahid oğlu Novruzov Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## E.O.İbrahimovun Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elxan Oqtay oğlu İbrahimov Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## E.N.Paşayevin Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elvin Nazim oğlu Paşayev Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## O.Ç.Mürsəlovun Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Orxan Çingiz oğlu Mürsəlov Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Bayrağı Günü münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə hesablarında 9 Noyabr Dövlət Bayrağı Günü münasibətilə paylaşım edib. Paylaşımda deyilir:**

*"Qoy, sonsuz qürur mənbəyimiz olan üçrəngli bayrağımız sülhün, sabitliyin, təhlükəsizliyin, tolerantlığın hökm sürdüyü doğma Vətənimizin səmasında əbədi dalğalansın!".*




## Birinci vitse-prezident Mehriban Əliyevanın Konstitusiya Günü münasibətilə paylaşımı

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 Noyabr Konstitusiya Günü münasibətilə sosial şəbəkə hesablarında foto paylaşıb.**




## F.V.Nəcəflinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsininin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 noyabr 2025-ci il**

## Azərbaycan–Banqladeş əməkdaşlığı müzakirəsi



**Noyabrın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Banqladeş Xalq Respublikasının ölkəmizdəki qeyri-rezident səfiri Amanul Haqqla görüşüb.**

Tərəflər ölkələrimiz arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişaf etdiyini, beynəlxalq təşkilatlar, xüsusilə də BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, D-8 çərçivəsində qarşılıqlı dəstəyin məmnunluq doğurduğunu vurğulayıblar. Xüsusilə iqtisadi, ticarət, energetika, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın inkişafı üçün geniş potensialın mövcud olduğu bildirilib.

Liderlər səviyyəsində təmasların, Banqladeşin keçid hökumətinin rəhbəri, baş müşavir Məhəmməd Yunusun COP29-da iştirakı məmnunluqla xatırlanıb. Növbəti ildə ölkəmizdə keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Zirvə görüşləri, eləcə də BMT-nin Ümumdünya Şəhərsalma Forumu çərçivəsində geniş əməkdaşlıq perspektivlərinin olduğu vurğulanıb.

***XQ***

# "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində"



**Noyabrın 12-də "Gülüstan" sarayında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəstəyi və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunan "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda beynəlxalq konfrans keçirilib.**





Konfransdan öncə iştirakçılar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər. Daha sonra iştirakçılar Zəfər parkında olub, buradakı abidə önünə gül dəstələri qoyublar.

Konfransın açılışında Konstitusiyanın 30 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Daha sonra Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.

Fərhad Abdullayev açılış nitqi ilə çıxış edərək konfrans iştirakçılarının adından dövlətimizin başçısı İlham Əliyevə dərin məzmunlu müraciətinə görə minnətdarlığını bildirib. Sədr xarici ölkələrdən Bakıya gələn qonaqları, eləcə də dövlət orqanlarının, ictimai təşkilatların rəsmilərini salamlayaraq tədbir iştirakçılarını 12 noyabr – Azərbaycan Respublikasının Konstitusiyası Günü, xüsusilə dövlətimizin Əsas Qanununun 30 illik yubileyi münasibətilə təbrik edib.

Fərhad Abdullayev bildirib ki, Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müstəqil dövlətçiliyimizin əsas sütunu olan Konstitusiyamızın ali dəyərini bir daha vurğulayır. Diqqətə çatdırılıb ki, dövlətin qanunvericilik sisteminin bünövrəsini təşkil edən, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə ictimai-siyasi sabitliyin, milli birliyin təminatçısı kimi çıxış edir.

Konstitusiya Məhkəməsinin sədri qeyd edib ki, Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan Ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında ən mühüm xidmətlərindən biri ölkənin Əsas Qanununun qəbulu ilə bağlıdır. Məhz Ulu öndərin rəhbərliyi ilə 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının layihəsi hazırlanaraq noyabrın 12-də keçirilən ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olunub. Bu tarixi hadisə ilə respublikamızın demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun mühüm mərhələsi başlayıb.

Vurğulanıb ki, geridə qalan üç onillik ərzində Azərbaycan Konstitusiyası dövlət hakimiyyəti sistemini müəyyənləşdirən, siyasi strategiyaları və normativ əsasları tənzimləyən, həmçinin vətəndaşların hüquq və azadlıqlarını təsbit edən əsas hüquqi sənədə çevrilib. Konstitusiyada təsbit edilmiş prinsiplər keçmişlə gələcəyin harmonik ifadəsidir.

Məlumat verilib ki, 1995-ci il Konstitusiyası müstəqilliyimizin hüquqi əsasını qoyubsa, 2020-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı Qələbə nəticəsində Konstitusiyamızın ali qüvvəsi bütün ərazimizdə bərqərar edilib. Bu tarixi Zəfərlə Konstitusiyanın 11-ci maddəsində təsbit olunmuş "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir" prinsipi reallığa çevrilib, beynəlxalq hüquq normaları və təməl prinsiplərin aliliyi təmin edilib.

Sədr qeyd edib ki, bu il "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilib. Bu medal dövlətimizin konstitusiya dəyərlərinə sadiqliyinin və müstəqil Azərbaycanın inkişaf yolunda qazandığı nailiyyətlərin rəmzi ifadəsidir.



Azərbaycanın dövlət müstəqilliyinin bərpasının, demokratik dövlət kimi formalaşmasının və inkişafının görkəmli ictimai-siyasi və dövlət xadimi, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və tarixi xidmətləri ilə bağlı olduğunu deyən Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib: "Məhz Ulu öndərin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında bəyan edilən niyyətlərdən biri də qanunun aliliyini təmin edən hüquqi və dünyəvi dövlətin qurulmasıdır. Qanunun aliliyi təkcə cəmiyyətin ədalətli və dayanıqlı inkişafının təməl daşı deyil, həm də insan hüquq və azadlıqlarının ən mühüm təminatçısıdır. Bu baxımdan, Konstitusiyamızda insan hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi kimi təsbit olunması insan hüquqlarına verilən ən yüksək dəyərin təzahürüdür".

Asiya Ombudsman Assosiasiyasının sədri, Pakistan Federal ombudsmanı Ejaz Ahmad Qureşi Pakistanın Azərbaycanın müstəqilliyini 1991-ci ildə tanıyan ilk dövlətlərdən biri olduğunu xatırladıb: "1992-ci ildə isə iki ölkə arasında diplomatik münasibətlər qurulub. Bu gün Azərbaycan və Pakistan arasındakı əlaqələr qardaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bu münasibətlərin inkişafında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın göstərdiyi humanitar dəstək, diqqət və qayğı xüsusi qeyd olunmalıdır".

Avropa Hüquq İnstitutunun sədri Teresa Rodriguez de las Heras Ballell gələcək üçün hüquqi bazanın hazırlanması zamanı hibrid cəmiyyətlərin gələcəyinin də nəzərə alınmasının vacibliyini vurğulayıb. Onun sözlərinə görə, insan-süni intellekt-hibrid cəmiyyətləri hazırlanmalıdır: "Biz öz hüquqi bazamızı bu çağırışlara necə hazır edə bilərik? Burada cəmiyyətlərin və iqtisadiyyatların hibridləşməsi prosesindən söhbət gedir. Konstitusiya təbəqəsində həm dövlət qulluqçuları, həm də özəl sektor tərəfindən süni intellektin daha geniş istifadəsinə yol açmalıyıq. Süni intellektlə bağlı qanuna yenidən baxmalı, hansı model hüquqları yaratmalı olduğumuz barədə fikirləşməliyik. Süni intellekt yeni risklər yaradır. Ona görə də bu sahəyə öhdəliklərlə bağlı olan qaydaların da tətbiqi vacibdir".

Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov isə çıxışında Konstitusiyanın hüquqi dövlətdə və müasir cəmiyyətdəki mühüm rolunu vurğulayıb: "Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası olduqca çətin və məsuliyyətli bir dövrdə qəbul edilib. Həmin illərdə dövlətimiz öz müstəqilliyi və suverenliyi uğrunda mübarizə aparırdı. Bütün bunlara baxmayaraq, Konstitusiyamız milli dəyərləri, prinsipləri və dövlətçiliyin əsas standartlarını özündə ehtiva edir. Bu ali sənəd, həmçinin ümumbəşəri dəyərlərə sadiqliyi ifadə edir və dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyini əks etdirir. Faktiki olaraq, Qarabağ torpaqları işğal altında olarkən, Konstitusiyanın bəzi müddəalarının tam şəkildə həyata keçirilməsi müəyyən məhdudiyyətlərlə üzləşmişdi. Lakin Prezident İlham Əliyevin rəhbərliyi və Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində bu müddəalar tam bərpa olunub. Azərbaycan Bayrağı işğaldan azad edilmiş torpaqlarımızda ucaldılıb, dövlət sərhədlərimiz bərpa olunub. Bu, Konstitusiyanın müddəalarının real şəkildə həyata keçirilməsi və ona yeni nəfəs verilməsi deməkdir",- deyə G.Kərimov diqqətə çatdırıb.

Tədbir Türkiyənin ədliyyə nazirinin müşaviri Muharrem Kılıçın moderatorluğu ilə "Konstitusion dəyərlər və insan hüquqları: Qlobal trendlər və çağırışlar" mövzusunda panel iclası ilə davam edib.

İclasda Gürcüstan Konstitusiya Məhkəməsinin sədri Revaz Nadaraia, Ankara Universitetinin professoru Cavid Abdullazadə, Türkiyənin Konstitusiya Məhkəməsinin hakimi Yıldız Seferinoğlu, Özbəkistanın Ali Məclisinin insan hüquqları üzrə müvəkkili (ombudsman) Feruza Eşmatova, Qazaxıstanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Artur Lastayev çıxış ediblər.

Daha sonra tədbir müzakirələrlə davam edib.

Prezident Administrasiyasının Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladovun moderatorluğu ilə keçən "Konstitusion prinsiplər: Qanunun aliliyinə aparan yol" mövzusunda ikinci panel iclasda Qırğızıstan Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev, Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) sədri, Moldovanın uşaq hüquqları üzrə xalq vəkili Vasile Koroy, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov, Bəhreyn Krallığının müstəqil ombudsmanı Ghada Hameed Habib, Gürcüstan xalq müdafiəçisi (ombudsman) Levan İoseliani məruzə ilə çıxış ediblər.

İslam Əməkdaşlıq Təşkilatı Ombudsman Assosiasiyasının Baş katibi, Pakistan Vergi Ombudsmanının hüquq müşaviri Almas Ali Jovindahın moderatorluğu ilə keçən "Qlobal hüquqi transformasiyalar dövründə konstitusionalizm və dövlət suverenliyi" mövzusunda üçüncü panel iclasda Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Fərhad Tutayuk, Türkiyə Prezident Administrasiyasının Hüquq Siyasəti Şurasının üzvü Vedat Ali Tektaş, Qırğızıstanın ombudsmanı Jamilia Jamanbaeva, Taylandın Konstitusiya Məhkəməsinin hakimi Noppadon Teppitak, Milli Məclis Aparatının rəhbəri, HEQT Mərkəzinin Müşahidə Şurasının üzvü Fərid Hacıyev məruzələrlə çıxış ediblər.

Çıxışçılar, o cümlədən qonaqlar tədbir iştirakçılarına Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu yubileyi münasibətilə təbriklərini çatdırıblar.

***XQ***

# Milli Məclis komitələrinin birgə iclası

**Noyabrın 12-də Milli Məclisin Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Mədəniyyət komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.**

Milli Məclis sədrinin müavini Rafael Hüseynov 2026-cı ilin dövlət büdcəsinin və büdcə zərfinə daxil olan sənədlərin ölkə Prezidenti İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edildiyini bildirib. O, büdcənin ölkənin sosial-iqtisadi inkişafı, təhlükəsizliyinin təmin edilməsi, müdafiə qüdrətinin artırılması, əhalinin sosial rifahının yaxşılaşdırılması, digər mühüm məsələləri əhatə etdiyini və bütün bu istiqamətlərdə dövlətimizin başçısının uğurlu siyasəti nəticəsində davamlı inkişafın müşahidə olunduğunu deyib.

Sonra maliyyə nazirinin müavini Himalay Məmişov "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə məlumatı təqdim edib. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində qlobal iqtisadiyyatda qeyri-müəyyənliyin artmasına baxmayaraq, ölkəmizdə davamlı iqtisadi artım qorunub, fiskal-monetar nəticələr üzrə pozitiv dinamika təmin edilib, əhalinin rifah halının yaxşılaşdırılması, o cümlədən həssas qrupdan olan insanlarımıza dövlət dəstəyinin gücləndirilməsi istiqamətində çoxsaylı islahat tədbirləri reallaşdırılıb.

Nazir müavini dövlət büdcəsi xərclərinin maliyyə təminatı ilə bağlı göstəricilər barədə məlumat verib. O bildirib ki, növbəti il üçün dövlət büdcəsi xərclərinin 92,6 faizi və ya 38,6 milyard manatı büdcənin gəlirləri, 7,4 faizi və ya 3,1 milyard manatı isə onun kəsirinin maliyyələşdirilməsi üçün cəlb ediləcək vəsaitlər hesabına təmin olunacaq. Dövlət büdcəsinin gəlirləri cari illə müqayisədə 253,0 milyon manat və ya 0,7 faiz, ötən ilin icra göstəricisi ilə müqayisədə isə 1,4 milyard manat və ya 3,9 faiz çox olacaq. Gəlirlərin 22,2 milyard manatı və ya 57,5 faizi qeyri-neft sektoru üzrə daxilolmalar hesabına reallaşacaq. Növbəti il neft-qaz sektorundan məcmu gəlirlər 16,4 milyard manat proqnozlaşdırılır. 2026-cı il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard olmaqla, ümumi daxili məhsulun 2,3 faizinə bərabərdir.

Sonra iclasda Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov Palatanın rəyini təqdim edib. O bildirib ki, rəy 2026-cı il üçün dövlət büdcəsinə dair qanun layihəsinin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlirləri və xərcləri, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, həmçinin bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə ölkənin ali audit orqanının mövqeyini ifadə edir.

Daha sonra iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli çıxış edərək büdcə layihəsinin formalaşdığı iqtisadi şərait barədə məlumat verib. O vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını təmin edib, rəqabət qabiliyyətini artırıb və qeyri-neft sektorunun payını genişləndirib.



İclasda parlamentin komitə sədrləri çıxış edərək 2026-cı ilin dövlət büdcəsinin əsas göstəricilərini müsbət qiymətləndiriblər, bir sıra məsələlərlə bağlı fikirlərini bölüşüblər, qeyd və təkliflərini irəli sürüblər.

Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu çıxışında mədəniyyət sahəsi üzrə büdcə göstəricilərini və artımları müsbət qiymətləndirib. O, mədəni-tarixi abidələrin qorunması və bərpası istiqamətində görülən işlərin vacibliyini, həmçinin milli kinematoqrafiyaya dövlət dəstəyinin əhəmiyyətini vurğulayıb.

İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa bildirib ki, 2026-cı ilin dövlət büdcəsində mədəniyyət, informasiya, ictimai birliklər, dini qurumlar və siyasi partiyalarla bağlı nəzərdə tutulan vəsaitlərdə önəmli artımlar nəzərdə tutulub. O, bu vəsaitlərin məqsədyönlü şəkildə, şəffaf formada istifadəsi ilə bağlı fikirlərini bölüşüb.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov bildirib ki, gənclər və idman sahəsi üzrə növbəti ildə 50 milyon manat vəsait nəzərdə tutulub. O qeyd edib ki, növbəti ilin büdcə zərfində ilk dəfə olaraq Gənclər və İdman Nazirliyi tabeliyində Milli İdman Tibb və Reabilitasiya İnstitutu publik hüquqi şəxs kimi maliyyə dəstəyi alacaq.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***XQ***

# FHN-də "Konstitusiya və Suverenlik İli" məclisi



**Noyabrın 12-də Fövqəladə Hallar Nazirliyində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda mərasim keçirilib.**

Məclisdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov Prezident İlham Əliyevin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması ilə bağlı Sərəncamının hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından əhəmiyyətindən danışıb, ərazi bütövlüyümüzün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin bərpasını tarixdə qazanılan ən parlaq Zəfər kimi səciyyələndirib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə olunmuş parlaq Zəfəri, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunmasını, nəticədə Dövlət Bayrağının ölkəmizin bütün ərazisində dalğalanmasını Azərbaycan tarixinin təkrarsız hadisəsi hesab etdiyini bildirən nazir Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin həyata keçirilməsi, müasir infrastrukturun yaradılması və keçmiş məcburi köçkünlərin ata-baba torpaqlarına qayıtmasından danışıb.

Hər bir hüquqi dövlətdə dövlətin siyasi, hüquqi və ictimai həyatının təməl sütununun Konstitusiya olduğunu qeyd edən Konstitusiya Məhkəməsinin Aparatının İnsan hüquqları və analitik şöbəsinin müdiri Anar Cəfərov çıxışında demokratik dəyərlərə və prinsiplərə uyğun hazırlanan və qəbul edilən Konstitusiyamızın tarixi əhəmiyyətindən bəhs edərək bildirib ki, Vətən müharibəsində düşmən üzərində qazanılan böyük Qələbə sayəsində ərazi bütövlüyümüz və suverenliyiniz tam bərpa edilərək Konstitusiyanın hüquqi qüvvəsi bütün torpaqlarımızda bərqərar olub.

Sonra "Konstitusiya və Suverenlik İli"nə həsr olunan videoçarx nümayiş edilib.

***XQ***

# Naxçıvan MR Ali Məclisinin iclası





**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclasında Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının baş naziri vəzifəsindən azad edilməsi məsələsinə baxılıb.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 12 noyabr tarixli sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilib. Bu təyinata görə, o, Muxtar Respublikanın baş naziri vəzifəsindən azad edilməlidir.

Bu məsələ ilə bağlı qərar layihəsi səsə qoyularaq qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin olunması münasibətilə Ceyhun Cəlilova təbriklərini çatdırıb, fəaliyyətində uğurlar arzulayıb.

***XQ***

# Nəsimi RİH-in başçısı kollektivə təqdim olunub

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elxan Oqtay oğlu İbrahimov bu gün Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**

Təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

E.İbrahimov ona göstərilən etimada görə minnətdarlıq edib.

***XQ***

Konstitusiya və Suverenlik İli – 2025

**Bu il Azərbaycanın dövlətçilik tarixində olduqca mühüm əhəmiyyətə malik iki əsas hadisənin - İkinci Qarabağ müharibəsində tarixi Zəfərin 5-ci və müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü tamam olur. Azərbaycan Respublikasının Konstitusiyası ilə bəyan edilmiş niyyətlərdən biri kimi ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.**

**"Bu Konstitusiya layihəsinin ən əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının tam müstəqilliyini təmin edir, ölkəmizin ərazi bütövlüyünü təmin edir, Azərbaycan xalqının hüquqlarının toxunulmazlığını təmin edir, vətəndaşlarımızın hər birinin hüquqlarının qorunmasını təmin edir və Azərbaycan xalqının, respublikamızın bölünməzliyini, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyini təmin edir".**

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının Ümummilli Lideri***

**"Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 30 il keçir

Dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən imzalanan bu sərəncam müasir dövlətçilik tariximizdə əldə edilən parlaq Zəfərin hüquqi-siyasi təsdiqidir.Bu sənədin imzalanması dövlətçilik ənənələrinin gücləndirilməsi, hüquqi dövlət quruculuğunun daha da təkmilləşdirilməsi, həmçinin konstitusiya dəyərlərinin qorunması, inkişaf etdirilməsi və təbliği istiqamətində atılan vacib addımlardandır. Eyni zamanda, cari ilin "Konstitusiya və Suverenlik İli" elan olunması tarixi yaddaşla gələcəyə baxışın vəhdətini əks etdirməklə, milli birliyin möhkəmləndirilməsi və gələcək prioritetlərin müəyyən edilməsi üçün əlverişli şərait yaradır.

Suverenlik istənilən xalqın ən böyük arzusu, niyyətidir. Belə ki, milli dövlətçilik milli özünüdərkin ifadəsidir. Hər bir xalqın müstəqil dövlət quruculuğu yolunu bir sıra mühüm faktorlar müəyyən edir. Bizim tariximiz azadlıq, müstəqillik uğrunda çətin və eyni zamanda şərəfli mübarizə yolu ilə zəngindir. Azərbaycan xalqı müstəqillik uğrunda əzmlə mübarizə aparmış və bu yolda bir çox çətinliklərlə üzləşmişdir.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etsə də, bu illərdə ölkəmiz ciddi siyasi böhran, iqtisadi tənəzzül və çətinliklərlə üzləşdi. Müstəqilliyin ilk illəri Azərbaycan üçün ağır sınaqlar dövrü idi. Ölkəmizə qarşı hərbi təcavüz və torpaqlarımızın işğalı, digər tərəfdən ölkədaxili siyasi qeyri-sabitlik və idarəetmə böhranı Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə yaratmışdı. O dövrdə ölkəmizdə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, həmçinin ölkəmizin müstəqilliyi üçün təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurmasının güclənməsi onu göstərdi ki, ölkəni yaranmış ağır vəziyyətdən yalnız ümummilli lider Heydər Əliyev kimi prinsipial, güclü və iradəli lider xilas edə bilər.

Məhz ulu öndər Heydər Əliyevin o böhranlı günlərdə xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışından sonra bu mürəkkəb vəziyyətin qarşısını almaq mümkün oldu. Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas edən dahi şəxsiyyət Heydər Əliyev tərəfindən müstəqilliyin qorunması istiqamətində həlledici addımlar atıldı, ölkədə mövcud olan xaosun, özbaşınalığın qarşısı alındı, cəmiyyətdə ictimai-siyasi sabitlik təmin edildi, müasir dövlət quruculuğu üçün etibarlı zəmin formalaşdırıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu öndərin dövlətimiz və xalqımız üçün həlledici məqamlarda böyük liderlik nümayiş etdirərək həyata keçirdiyi xilaskarlıq missiyası haqqında demişdir: "Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur".

Məlumdur ki, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında ölkənin yeni Konstitusiyasının hazırlanması nəzərdə tutulsa da, ölkədə mövcud olan ictimai-siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda mübarizə, həmçinin vahid siyasi iradənin olmaması Əsas Qanunun hazırlanaraq qəbul edilməsini mümkünsüz etmişdir.

Xüsusilə vurğulanmalıdır ki, Əsas Qanunun qəbulu ideyasının irəli sürülməsində, eyni zamanda onun layihəsinin hazırlanmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yeni Konstitusiyanın hazırlanaraq qəbul edilməsi məsələsi



***Fərhad ABDULLAYEV,***
***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri***

ön plana çəkilmişdir. 1995-ci il mayın 2-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq edildi.

Ümummilli lider Heydər Əliyev yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, layihənin açıq müzakirələrini təşkil etməklə onun ən təkmil şəkildə qəbul edilməsini təmin etmək üçün böyük əmək sərf etmişdir.

Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev qeyd etmişdir: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq".

Eyni zamanda, 1995-ci il 24 noyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqi zamanı ulu öndər Heydər Əliyev Konstitusiyanın bəzi cəhətlərini xüsusilə vurğulamışdır: "Yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır, xalqımız bu Konstitusiyanın müddəalarından daim istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni Konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsasları yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Ulu öndər Heydər Əliyevin qeyd etdiyi bu vacib əsaslar mahiyyət etibarilə ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynadı.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir. Bu tarixi hadisə ölkəmizdə yeni konstitusionalizm nəzəriyyəsi və təcrübəsinin formalaşmasının əsasını qoydu.

O da vurğulanmalıdır ki, hər il noyabrın 12-də qeyd edilən Konstitusiya Günü hüquqi dövlətçilik ənənələrinin təbliği, hüquq mədəniyyətinin gücləndirilməsi və milli müstəqillik ideyalarının möhkəmləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edir.

Əsas Qanunun qəbulu müasir Azərbaycanın müstəqillik tarixində ən mühüm hadisələrdən biri olmaqla yanaşı, dövlətçiliyin möhkəmləndirilməsi baxımından çox vacib ictimai-siyasi hadisə oldu. Konstitusiya dövlətin və xalqın milli maraqlarını, həmçinin ölkəmizin özünəməxsus xüsusiyyətlərini özündə əks etdirməklə, dövrün çağırışlarına və tələblərinə tam cavab verən mükəmməl sənəd olaraq qəbul edildi. Gərgin əməyin məhsulu olan Konstitusiya dolğunluğu ilə seçilərək, ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin inkişafı üçün hərtərəfli zəmin yaratdı.

Konstitusiya ən mühüm, ali hüquqi sənəddir və ölkənin siyasi, iqtisadi və hüquqi inkişafını istiqamətləndirən əsas qaydaları müəyyən edir. Konstitusiyanın qəbul edilməsi ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi olmaqla, gələcək nailiyyətlərin hüquqi bazası qismində çıxış etdi. Bu mühüm məqam ilə bağlı dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan 2024-cü il 28 dekabr tarixli sərəncamda qeyd edilmişdir: "Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".

Konstitusiya, suverenlik və dövlətçilik bir-birini tamamlayan anlayışlar olmaqla, dövlət quruculuğunun ayrılmaz dəyərləridir. Konstitusiya dövlətin hüquqi təməlini formalaşdırır, suverenlik və dövlətçilik amili isə dövlətin siyasi-hüquqi və siyasi-ideoloji əsaslarını, həmçinin milli kimliyini və birliyini ifadə edir. Suverenlik və dövlətçilik müstəqil dövlətin mövcudluğunu və tərəqqisini təmin edən mühüm prinsiplərdir.

Konstitusiyada öz əksini tapan prinsiplər, müddəalar dövlət və xalq birliyinin iradəsinin təcəssümüdür. Dövlətin qanunvericilik sisteminin bünövrəsini, əsasını təşkil edən, Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya eyni zamanda ölkədə ictimai-siyasi sabitliyin, milli birliyin təminatı kimi çıxış edir. Bu Ali Qanun xalq hakimiyyəti, dövlətin əsasları, əsas insan və vətəndaş hüquqları və azadlıqları, vətəndaşların əsas vəzifələri, hakimiyyətlərin bölünməsi, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını və digər bir sıra mühüm müddəaları ehtiva edir.

Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Konstitusiyamızın preambulasında bəyan olunan ülvi niyyətlərdir. Burada əksini tapan müddəalar ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini, gələcəklə bağlı niyyət və hədəfləri əks etdirir.

Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi olaraq müəyyənləşdirilməsi, dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsi ilə bağlı müddəalar xüsusi əhəmiyyət kəsb edir.

Konstitusiyada dövlət və cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyən edən prinsiplər geniş şəkildə təsbit edilir. Əsas Qanun xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Konstitusiya Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir.

Vurğulanmalıdır ki, hüquqi dövlətdə insan hüquq və azadlıqlarının təminatı mexanizmlərinin mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Konstitusiyada həmin hüquqlar və azadlıqlar hər kəsin doğulduğu andan malik olduğu ali dəyərlər kimi ifadə edilir və onlar toxunulmaz, pozulmaz və ayrılmaz elan olunur. İnsan və vətəndaş hüquq və azadlıqlarına etibarlı və davamlı təminat yaradan Konstitusiyanın ən böyük fəslində əsas hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların qanuni məhdudlaşdırılmasının yol verilən hədləri ehtiva edilmişdir.

Əsas Qanunda, həmçinin Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi, dövlətin bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaratması, azad sahibkarlığa təminat verilməsi və digər bir sıra mühüm müddəalar öz əksini tapmışdır.

Məlum olduğu kimi, konstitusiyaların əsas hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluq rejiminin sabitliyinin, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsi sahəsində şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindəndir. Bununla belə, konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən münasibətlər və hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur. Bu baxımdan, konstitusiyaların zərurət yarandığı təqdirdə təkmilləşdirilməsi, onlara müəyyən əlavə və dəyişikliklərin edilməsi labüd olur.

Ötən illər ərzində dəyişilən sosial-siyasi reallıq səbəbindən 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlar nəticəsində Əsas Qanunun mətninə müvafiq əlavələr və dəyişikliklər edilmişdir. Konstitusiyaya edilmiş bu mühüm əlavə və dəyişikliklər hüquqi dövlət prinsip və dəyərlərinin bərqərar olmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin təzahürü olmaqla, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi, bütövlükdə dövlət idarəetmə sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi məqsədlərinə xidmət etmişdir.

Qeyd edilməlidir ki, 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın mütərəqqi xüsusiyyətlərindən biri ali konstitusiya ədalət mühakiməsi orqanı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılması olmuşdur. Ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə yaradılan və artıq 27 ildir fəaliyyət göstərən Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir.

***(ardı 6-cı səhifədə)***

Konstitusiya və Suverenlik İli – 2025

# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 30 il keçir




*(əvvəli 5-ci səhifədə)*

Qeyd edilməlidir ki, konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının səmərəli mexanizmlərindən biri olmaqla, həmçinin hüquqi dövlətin mühüm institutlarından biri olaraq qəbul edilir.

Fəaliyyət göstərdiyi müddət ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 604 qərar və 182 qərardad qəbul edilib. Bu qərar və qərardadlarda formalaşdırılan hüquqi mövqelər dövlətin Əsas Qanununun aliliyinin təmin olunmasına, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir. Bu qərarlardan və orada əks olunmuş hüquqi mövqelərdən bəziləri xüsusilə qeyd edilməlidir.

Belə ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında qəbul edilən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.23-cü, 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.24-cü və 2022-ci il 9 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası"nın 3.2.25-ci yarımbəndlərinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, III–V hissələrinə, 41-ci maddəsinin I hissəsinə, 42-ci maddəsinin I hissəsinə, 71-ci maddəsinin I və II hissələrinə və 149-cu maddəsinin I, III və V hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2025-ci il 22 sentyabr tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, yalnız bilik əldə etmək imkanı ilə məhdudlaşmayaraq şəxsin cəmiyyətdə layiqli mövqe tutmasına şərait yaradan, fərdi inkişafı, eləcə də cəmiyyətin sosial-iqtisadi tərəqqisini təmin edən əsas vasitə kimi təhsil hüququnun qorunması və təmin edilməsi hüquqi dövlətin mühüm göstəricisidir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, dərslərdə iştirak etməmənin üzrlü səbəblərdən də baş verə biləcəyinin mümkünlüyü nəzərə alınaraq "Təhsil haqqında" Qanunun 32.5.1-1-ci maddəsi ilə məhz üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verilməməsi təhsilalanların vəzifəsi kimi müəyyən olunmuşdur.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab etmişdir ki, üzrlü səbəbdən auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbədən fənni yenidən dinləməsi üçün ödəniş alınması Konstitusiyanın 42-ci maddəsinin I hissəsində təsbit edilən təhsil almaq hüququnun qeyri-mütənasib şəkildə məhdudlaşdırılmasına səbəb olur.

Qeyd edilmişdir ki, üzrlü səbəbə görə fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbənin təhsil hüququnun təmin olunması məqsədilə Qərarda sadalanan Qaydalarda qeyd edilən məsələlərin aydın şəkildə və ətraflı tənzimlənməsi Konstitusiyadan irəli gələn tələblərə cavab vermiş olardı.

Həmçinin Qərarda əks olunmuşdur ki, milli yığma komandaların üzvləri olan idmançı-tələbələr beynəlxalq miqyaslı yarışlarda ölkəni təmsil etməklə idmanın inkişafında əhəmiyyətli rol oynayırlar. Bu baxımdan, idman yarışlarında iştirak edən tələbələrə dərslərə davamiyyətlə bağlı güzəştlərin tətbiq edilməsi fərdi imtiyazın müəyyən olunmasına deyil, ictimai əhəmiyyətli məqsədlərə xidmət edir.

Göstərilənlər belə qənaətə gəlməyə əsas verir ki, fərqli rəftar (milli yığma komandaların üzvləri olan idmançı-tələbələrə güzəştin müəyyən edilməsi) ilə qarşıya qoyulan qanuni məqsəd (yüksək dərəcəli idmançıların beynəlxalq miqyaslı yarışlarda ölkəni şərəflə təmsil etməsi üçün lazımi şəraitin yaradılması) arasında ağlabatan mütənasiblik olmaqla, həmin rəftar ayrı-seçkilik xarakteri daşımır.

Bu Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticələrə gəlmişdir ki, 2013-cü il 24 dekabr tarixli Qaydaların 3.2.23-cü, 2013-cü il 26 dekabr tarixli Qaydaların 3.2.24-cü və 2022-ci il 9 mart tarixli Qaydanın 3.2.25-ci yarımbəndləri Konstitusiyanın 25-ci maddəsinin I, III–V hissələri, 41-ci maddəsinin I hissəsi, 42-ci maddəsinin I hissəsi, 71-ci maddəsinin I və II hissələri və 149-cu maddəsinin I, III və V hissələri ilə ziddiyyət yaratmır.

Həmçinin, Konstitusiyanın 42-ci maddəsinin I, IV hissələrinin və 149-cu maddəsinin I hissəsinin tələblərinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, orta ixtisas və peşə təhsili müəssisələrində üzrlü səbəblərə görə fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbələrin təhsil hüquqlarının təmin edilməsi üçün yuxarıda qeyd olunan Qaydaların təkmilləşdirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tövsiyə edilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun digər qərarı, Azərbaycan Respublikasının Prokurorluğunun sorğusu əsasında qəbul edilən "Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri və 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1 və 12.5-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair" 2025-ci il 30 sentyabr tarixli Qərarda qeyd edilmişdir ki, cinayət qanunvericiliyində Azərbaycan Respublikasının vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xarici ölkədə törətmiş olduqları cinayətlərə görə məhkum edilərkən cəzanın yuxarı həddinin cinayətin törədildiyi ölkənin cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddi ilə məhdudlaşdırılması cinayətə görə məsuliyyətin, cəzanın məhz əməlin ictimai münasibətlərə vurduğu zərərə, bununla da ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq müəyyənləşdirilməsindən irəli gəlir.

Əks yanaşma, yəni şəxsin, əməlinin baş verdiyi ölkədə ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq nəzərdə tutulmuş məsuliyyət həddindən artıq məsuliyyətə cəlb edilməsi cəzanın mahiyyət və məqsədlərinə uyğun olmazdı.

Bu Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 8 və 58-ci maddələrinə istinad edərək qeyd etmişdir ki, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədlərini təmin edə bilmir. Cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır.

Həmçinin qeyd edilmişdir ki, törədilmiş əmələ görə təyin edilən cəza ilə həmin əməlin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, onu törədən şəxsin şəxsiyyəti arasında gözlənilən proporsionallıq cəzanın ədalətlilik meyarı kimi çıxış edir. Odur ki, ədalətin bərpası təyin edilmiş cəzanın cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, təqsirkarın şəxsiyyətinə, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallara uyğun olduğu təqdirdə mümkündür.

Adıçəkilən Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 62-ci maddəsinə istinad edərək göstərmişdir ki, cəzanın aşağı həddinin, habelə daha yüngül cəzanın təyin edilməsi cəzanın məqsədlərinə nail olmağa imkan verdiyi və şəxsin islah olunmasına kifayət etdiyi hallarda onun tətbiqi ədalətli cəza kimi müəyyən edilmişdir.

Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, Konstitusiyanın 71-ci maddəsinin I və X hissələrinə və 80-ci maddəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Cinayət Məcəlləsinin 5.1 və 12.5-ci maddələrinə, habelə Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən həmin Məcəllənin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə xarici ölkənin ərazisində törətdikləri cinayətə görə cəzanın aşağı həddi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələri ilə müəyyən edilməlidir.

Bu gün bir çox digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemi qarşısında yeni çağırışlar və tələblər dayanır. Müasir dövrdə məhkəmə-hüquq sisteminin, o cümlədən ədalət mühakiməsinin inkişafı hüquqi islahatlarla yanaşı, həm də texnoloji inkişafdan çox asılıdır. Ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması, eyni zamanda innovativ texnologiyaların tətbiqi müasir dövrün tələbidir. Bununla bağlı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçılarına müraciətində qarşıda duran vəzifələr və hədəflər barədə müvafiq fəaliyyət istiqamətləri müəyyən edilmişdir: "Müasir dövrün çağırışları, qlobal miqyasda baş verən sosial-iqtisadi transformasiya, sürətlə inkişaf edən rəqəmsallaşma, yeni texnologiyaların, xüsusilə də süni intellektin tətbiqi məhkəmə sistemlərindən daim adaptasiya olunmağı, yeni yanaşmaları tətbiq etməyi tələb edir".

Qeyd edilməlidir ki, konstitusiya ədalət mühakiməsi orqanları qarşısında da duran mühüm vəzifələrdən biri bu sahədəki mütərəqqi milli təcrübə ilə yanaşı, müasir inkişaf meyillərinin davamlı olaraq izlənilməsi, təhlili və fəaliyyətdə tətbiq edilməsidir. Öz növbəsində, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yarandığı gündən xarici ölkələrin Konstitusiya məhkəmələri və bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulmasına və bu əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Vurğulanmalıdır ki, həyata keçirilən beynəlxalq əməkdaşlıq informasiya mübadiləsinin genişləndirilməsi, hüquqi bilik və təcrübənin paylaşılması baxımından əhəmiyyətli rol oynayır.

Bu sahədə mötəbər beynəlxalq tədbirlərdən biri cari ilin 28-30 oktyabr tarixlərində Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatının "Gələcək nəsillərin insan hüquqları" mövzusunda İspaniyanın Madrid şəhərində keçirilmiş VI Konqresi oldu. Konqresin işi "Təbii ehtiyatların və ətraf mühitin qorunması, "Bəşəriyyətin mədəni irsinin qorunması", "Elmi biliklərə və yeni texnologiyalara əlçatanlıq", "Konstitusiya Məhkəmələrinin müstəqilliyi" adlı dörd sessiyadan ibarət olmuş, tədbir çərçivəsində bir sıra mühüm və aktual mövzular ətrafında fikir mübadiləsi aparılmış, məruzələr dinlənilmişdir.

Beynəlxalq məhkəmə-hüquq əməkdaşlığı çərçivəsində bu cür tədbirlərin keçirilməsi konstitusiya ədalət mühakiməsi sahəsində qabaqcıl təcrübənin öyrənilməsi baxımından əlverişli imkanlar yaradır, həmçinin yeni əməkdaşlıq münasibətlərinin qurulması üçün mühüm platforma qismində çıxış edir.

Hər bir xalqın tarixində elə vacib əhəmiyyət kəsb edən hadisələr olur ki, onlar həmin xalqın, dövlətin gələcək müqəddəratını müəyyən edən mühüm başlanğıcların əsasını qoyur. Bir daha vurğulanmalıdır ki, 2025-ci il bizim hər birimiz üçün ikiqat əlamətdardır. 1995-ci il Konstitusiyasının qəbulunun 30-cu və İkinci Qarabağ müharibəsində parlaq Qələbənin 5-ci ildönümü bu ili olduqca əlamətdar edir. Əminliklə demək olar ki, 2025-ci il hüquqi dövlət quruculuğunun mühüm mərhələsini simvolizə edir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı hərbi-siyasi Zəfər müasir tariximizin ən mühüm hadisəsidir. 44 gün davam edən və 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələri dövlətimizin ərazi bütövlüyü uğrunda cəsarət və şərəflə mübarizə apararaq tarixi Qələbə qazandı, xalqımızı Zəfərə qovuşduran Vətən müharibəsi tariximizə qızıl hərflərlə yazıldı.

44 günlük Vətən müharibəsində qazanılan Zəfərin davamı olaraq, 2023-cü ilin sentyabrında 24 saatdan az müddətdə davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bununla da Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərimizdə bərqərar oldu. 2023-cü il sentyabrın 20-də ölkəmizin bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi.

2023-cü il oktyabrın 15-də Dövlət başçısı cənab İlham Əliyevin Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. Bu addım yalnız siyasi-ideoloji mahiyyət kəsb etməməklə, eyni zamanda, suverenliyin bütün ölkə ərazisində bərpa olunduğunu hüquqi-siyasi müstəvidə təsdiq etdi. Uzun illər ərzində işğal altında olan ərazilərimizdə Konstitusiyada təsbit edilən hüquqların tətbiqi mümkün deyildi. 2023-cü ildə ərazi bütövlüyünün və suverenliyin tam bərpa edilməsi nəticəsində respublikamızın ərazisi ilə bağlı bir sıra mühüm konstitusiya müddəalarının yerinə yetirilməsi tam şəkildə təmin olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2025-ci il 14 sentyabr tarixində Xocavənd rayonunun Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşü zamanı qeyd etmişdir: "Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik".

Qazanılan Qələbə Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin prinsipial mövqeyi, uzaqgörən siyasəti, o cümlədən əsgər və zabitlərimizin qəhrəmanlığı, mübarizə əzmi, xalqımızın birliyi, milli ruhu və vətən sevgisi nəticəsində mümkün oldu.

Hazırda Cənubi Qafqaz regionu yeni tarixi inkişaf mərhələsindədir. Cənubi Qafqaz sülh və əməkdaşlıq regionuna çevrilir. Cari ilin avqustunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ABŞ-a rəsmi səfəri ölkə diplomatiyası tarixində mühüm hadisə oldu. Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşlər, imzalanan əhəmiyyətli sənədlər və əldə olunan razılaşmalar sadəcə region üçün deyil, eyni zamanda qlobal geosiyasi müstəvidə dövlətimiz üçün mühüm üstünlüklər yaratdı.

Vaşinqton görüşünün mühüm nəticələrindən biri də regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP). Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Orta Dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində TRIPP marşrutunun əhəmiyyətini vurğulayaraq qeyd etmişdir: "...Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcək TRIPP Asiyanı Avropa ilə birləşdirən, beynəlxalq yükdaşımalarının tranzit imkanlarının genişlənməsinə, region ölkələrinin rifahına və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasına xidmət edən vacib nəqliyyat əlaqəsi olacaqdır. TRIPP, eyni zamanda gələcəkdə enerji resurslarının daşınması, elektrik enerjisinin, xüsusilə də bərpa olunan enerjinin ixracı, o cümlədən fiber-optik xətlərin çəkilməsi üçün də geniş imkanlar təqdim edərək regionun beynəlxalq ticarət və rəqəmsal kommunikasiya habına çevrilməsinə təkan verə bilər..."

Qeyd edilməlidir ki, Vaşinqton razılaşmaları, əldə olunan tarixi nəticələr müasir tariximizin mühüm siyasi hadisələrindən biri kimi nəzərdən keçirilir. Bu razılaşmalar dövlətçiliyimizin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli diplomatiyasının və müdrik liderliyinin ən bariz göstəricisidir. Bu səfər həm ikitərəfli münasibətlərin inkişafı, həm də regional sabitliyin təmin olunması baxımından xüsusi əhəmiyyətə malikdir.

Vaşinqtonda əldə edilən razılaşmalar Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan mühüm tarixi nailiyyətlərdən biridir və onun məhz "Konstitusiya və Suverenlik İli"nə təsadüf etməsi dərin rəmzi xarakter daşıyır.

Bu gün dövlətimiz bir çox sahələrdə yeni inkişaf tarixinə qədəm qoyub. Azərbaycanın dövlət suverenliyi tam, ərazisi bütöv, sərhədləri isə toxunulmazdır. Hazırda qarşıda duran ən önəmli məsələlərdən biri işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsidir.

Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri bütövlükdə regionun iqtisadi və sosial inkişafında yeni mərhələnin əsasını qoyub. Bu ərazilər bütün əsas infrastruktur, yollar, elektrik, su, rabitə və digər zəruri xidmətlərlə təmin edilir. Qarabağın zəngin təbiəti, əlverişli iqlimi, kənd təsərrüfatı üçün geniş imkanları, turizm və sənaye sahələrində böyük potensialı bu əraziləri investisiya baxımından cəlbedici məkana çevirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesi sayəsində Qarabağ və Şərqi Zəngəzurda qabaqcıl texnologiyalara əsaslanan yeni inkişaf modeli reallaşdırılır. Bu prosesin ayrılmaz hissəsi kimi, yüzlərlə kilometr avtomobil və dəmir yolları salınır, yeni tunellər, körpülər inşa olunur, "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, beynəlxalq hava limanları inşa olunaraq istifadəyə verilir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur eyni zamanda "yaşıl enerji zonası" elan edilərək, burada günəş, külək və hidroenerji layihələri sürətlə icra olunur.

Mühüm məqamlardan biri də işğaldan azad edilmiş ərazilərdə tarixi, dini və mədəni abidələrimizin bərpa edilməsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə görülən işlər bu ərazilərin dirçəlişinə, inkişafına, eyni zamanda milli yaddaşımızın bərpasına mühüm töhfədir.

Həmçinin bölgədəki mədəni tədbirlərin keçirilməsi ənənələri bərpa edilir. Şuşa şəhərinin 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı, Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan olunması, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və Vaqif Poeziya Günlərinin bərpa edilməsi, bu il "Mədəniyyət rüzgarı" adı altında silsilə və digər bir sıra tədbirlərin keçirilməsi işğaldan azad edilmiş torpaqlarda həyatın bərpası, mədəniyyətin yenidən canlandırılması işinin mühüm hissəsidir.

İşğaldan azad edilmiş ərazilərdə sürətli bərpa və quruculuq işlərinin aparılması ilə bərabər, bu torpaqlara yerli əhalinin qayıtması, burada əhalinin dayanıqlı məskunlaşması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət Proqramı çərçivəsində keçmiş məcburi köçkünlər uzun illər boyu həsrətini çəkdikləri doğma yurd-yuvalarına qayıdır. Artıq minlərlə insan doğma torpaqlarına qayıdıb, yaşayış üçün zəruri olan sosial xidmət və kommunikasiya infrastrukturu ilə təmin olunub.

Bu gün Azərbaycan gələcəyə doğru inamla addımlayır. Regionun lideri olan ölkəmiz beynəlxalq müstəvidə də söz sahibi olan dövlətlər sırasına daxildir. Vətən müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional, eyni zamanda beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsini şərtləndirdi. Dövlət başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.".

Ölkəmiz regiondakı iqtisadi-siyasi proseslərin əsas iştirakçısıdır. Məhz Azərbaycanın təşəbbüsü və iştirakı ilə uğurla həyata keçirilən bütün irimiqyaslı layihələr ümumilikdə regionun təhlükəsizliyinə, iqtisadi inkişafına öz mühüm töhfəsini verir. Dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasət nəticəsində beynəlxalq aləmdə nüfuzu daha da artan ölkəmizlə əlaqələr yaratmaq və bu əlaqələri inkişaf etdirmək istəyində olan ölkələrin sayı da getdikcə artır.

*(ardı 7-ci səhifədə)*

Konstitusiya və Suverenlik İli – 2025

# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 30 il keçir

*(əvvəli 6-cı səhifədə)*

Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərin, qlobal forumların, konfransların keçirildiyi unikal məkana çevrilib. Ölkəmizin mühüm tədbirlərə ev sahibliyi etməsi baxımından bir nümunə olduğunu deyə bilərik. Bu cür beynəlxalq əhəmiyyətli tədbirlərdən biri bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycanda keçirilən III MDB Oyunları oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında çıxışında qeyd etmişdir ki, bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir.

Əminliklə demək olar ki, son beş ildə Azərbaycan öz inkişafının tamamilə yeni mərhələsinə daxil olmuşdur. Tarixi Zəfər qazanmaqla ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən dövlətimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə gündən-günə daha da güclənərək özünün qüdrətli dövrünü yaşayır.

Dünya nizamının özünün çətin dövrünü yaşadığı, beynəlxalq müstəvidə mürəkkəb proseslərin baş verdiyi zamanda, Azərbaycan əlaqələrini davamlı şəkildə şaxələndirir, dünya ölkələri sırasında tərəfdaşlarının sayını artırır. Ölkəmiz beynəlxalq miqyasda siyasi dialoqun, əməkdaşlığın və strateji tərəfdaşlığın fəal iştirakçısı və eyni zamanda təşəbbüskarıdır.

Bütövlükdə 2025-ci ilin bir sıra mühüm siyasi hadisələri bir daha göstərdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçilik prinsiplərinə sadiq lider olmaqla, milli maraqlara əsaslanaraq həyata keçirdiyi xarici siyasət, diplomatiya və strateji baxışlar sayəsində Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib.

Vətən müharibəsinin regionda yaratdığı yeni geosiyasi reallıqlar dövründə ölkəmizin çoxvektorlu xarici siyasət kursunda Türk dünyası ilə əməkdaşlıq, həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyət prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Böyük coğrafiyanı əhatə edən Türk dövlətləri və xalqları ümumi tarixi köklər, ortaq zəngin mədəni irs, ədəbiyyat, adət-ənənə, milli-mənəvi dəyərlər ilə bir-birinə sıx bağlıdır. Ortaq tarixi və etnik köklər, dəyərlər, ənənələr üzərində təşəkkül tapmış bu dostluq və qardaşlıq münasibətləri dünyada bənzəri olmayan həmrəylik nümunəsidir.

Türk dövlətləri arasında müxtəlif sahələri əhatə edən əlaqələr ildən-ilə daha da genişlənir və möhkəmlənir. Bu əlaqələrinin genişləndirilməsində Türk Dövlətləri Təşkilatının rolu olduqca böyükdür. Ölkəmiz təməli 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında qoyulan Türk Dövlətləri Təşkilatı ilə əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi diqqətlə yanaşır və bu Təşkilatı üzv və müşahidəçi ölkələrlə səmərəli əməkdaşlıq üçün mühüm platforma olaraq qəbul edir.




Dövlətimizin başçısı cənab İlham Əliyev cari il oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündəki çıxışında təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artmasının məmnunluq doğurduğunu qeyd edərək, bu gün Türk Dövlətləri Təşkilatının, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşdığını vurğulamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmçinin qeyd etmişdir ki, daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.

Qəbələ Zirvə görüşündə gələcək illər üçün əməkdaşlıq prioritetlərini, strateji hədəfləri müəyyən edən Qəbələ Bəyannaməsinin imzalanması, həmçinin "TDT+" formatının təsis edilməsi, Beynəlxalq Türksoy Təşkilatının gücləndirilməsi qərarı xüsusi əhəmiyyət kəsb etdi.

Qeyd edilməlidir ki, Azərbaycan dövlətinin dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Bir çox xarici dövlətlərlə, mötəbər beynəlxalq təşkilatlarla milli maraqları qorumaqla qarşılıqlı hörmət və ehtiram əsasında qurulan əməkdaşlıq münasibətləri ölkəmizə etibarlı tərəfdaş imicini qazandırıb. Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir sıra mühüm əhəmiyyət kəsb edən qərarların qəbulunda və icrasında yaxından iştirak edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə cari il avqustun sonu – sentyabrın əvvəlində Çin Xalq Respublikasına işgüzar səfəri, keçirdiyi görüşlər, "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçirilən təntənəli tədbirlərdə və hərbi paradda iştirakı bir daha onu göstərdi ki, dövlət başçısı cənab İlham Əliyev beynəlxalq miqyasda böyük ehtiramla qarşılanan siyasi lider, Azərbaycan isə yüksək nüfuza malik dövlətdir.

Həmçinin, dövlət başçısı cənab İlham Əliyev cari il oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak edib. Dövlətimizin başçısı sammit çərçivəsində bir sıra dövlət, hökumət başçıları, həmçinin Avropa İttifaqı Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti ilə görüşlər keçirdi. Mühüm məqamlardan biri odur ki, keçirilən görüşlər qarşı tərəflərin təşəbbüsü ilə həyata keçirilib. Bu ölkəmizin artan geosiyasi əhəmiyyətinin, Avropa liderlərinin Azərbaycana olan marağının, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsi nüfuzuna, həyata keçirdiyi siyasətə etimadın və ehtiramın bariz nümunəsidir.

Ölkəmiz ədalətə və beynəlxalq hüquqa söykənən mövqeyi ilə hər zaman ən yüksək tribunalardan ikili standartlara əsaslanan siyasətin yaratdığı problemləri vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısı çıxışında bu reallığı da qeyd edib ki, son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında qlobal təhlükəsizliklə bağlı beynəlxalq ictimaiyyətə mühüm çağırışları səsləndirərək xüsusilə vurğuladı: "Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".

Bir daha qeyd edilməlidir ki, 2025-ci il dövlətçilik tariximizdə "Konstitusiya və Suverenlik İli" kimi xüsusi əhəmiyyət və məna daşıyır. Bu il ölkənin milli müstəqilliyi, ərazi bütövlüyü və qanunvericilik prinsiplərinin gücləndirilməsi baxımından yeni mərhələnin başlanğıcıdır. Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçiliyimizin möhkəmlənməsinə, milli suverenliyimizin bərqərar olmasına verilən xüsusi önəmin göstəricisidir. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı xalqımızın birliyi və həmrəyliyinin ifadəsi, yüzilliklərin dövlətçilik ənənələrinin məntiqi davamı olmaqla, milli şüurun, milli dəyərlərin qorunmasına xidmət edir. Möhtərəm cənab Prezidentin bu Sərəncamı eyni zamanda hüquqi dövlətə sadiq qalmaq, ölkə Konstitusiyasına hörmətlə yanaşmaq, onun müddəalarını həyata keçirməklə bağlı gələcək nəsillərə ünvanlanmış bir çağırışdır.

Olduqca qürurverici haldır ki, bizim qədim tarixə, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətənimiz var. Xalqımız bu gün öz müstəqil və suveren dövlətinə sahibdir, mübarizə ilə əldə edilən suverenlik onun milli sərvətinə çevrilmişdir. Hər bir azərbaycanlı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsinin, ölkənin bütün ərazilərində Konstitusiyanın hüquqi qüvvəsinin tam bərqərar olunmasının sonsuz sevincini, qürurunu yaşayır. Bu böyük Qələbə hər birimizi yeni nailiyyətlərə ruhlandırır.

Tam əminliklə bildirmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütöv və suveren dövlətimiz tarixi uğurlara imza atmaqda davam edəcək, növbəti dövrdə də inkişafının mühüm mərhələsini yaşayacaq. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də öz növbəsində, müəllifi ulu öndər Heydər Əliyev olan Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsi, hüquqi dövlət quruculuğu istiqamətində Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu fəaliyyətə dəstək olaraq, üzərinə düşən məsuliyyətli vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaq.

Fürsətdən istifadə edərək, Azərbaycan xalqını bu il beşinci ildönümünü qeyd etdiyimiz 8 Noyabr – Zəfər Günü, həmçinin 9 Noyabr – Dövlət Bayrağı Günü və 12 Noyabr – Konstitusiya Günü münasibətilə Konstitusiya Məhkəməsi adından təbrik edir, xalqımıza xoşbəxt və firavan həyat arzulayıram.

# Əsas Qanunumuzda prioritet insan hüquqlarıdır

**1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin müstəqillik dövründə siyasi, hüquqi və ictimai həyatının bütün sahələrini müəyyən edən əsas sənəddir. Hüquq sisteminin aparıcı sütunu sayılan konstitusiyanın demokratikliyi, hamılıqla qəbul edilmiş ümumbəşəri norma və prinsiplərə cavab verməsi adekvat olaraq ictimai münasibətləri tənzimləyən qanunların liberallığında, vətəndaşın hüquq və azadlıqlarına maksimum təminat yaratmasında real təcəssümünü tapır. Bu mənada hər bir dövlətin konstitusiyası onun ictimai-siyasi, iqtisadi, hüquqi və mədəni həyatının aynası hesab olunur.**

Ötən əsrin 90-cı illərinin əvvələrində müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın çeşidli təhdidlərlə üzləşməsinə rəğmən, Heydər Əliyevin rəhbərliyi ilə demokratik ölkə quruculuğu prosesinin dönməzliyi təmin edildi. 1995-ci il noyabrın 12-də Ümummilli liderin müəllifi olduğu və referendum yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası cəmiyyətdə yeni konstitusionalizm nəzəriyyəsini və praktikasını formalaşdırdı. Müdrik, uzaqgörən lider bununla Azərbaycanın neçə illər irəliyə inkişafının təməlini yaratdı. Bəli, Ulu öndər ölkəmizin uğurlu gələcəyinə inanırdı. O, dövlətçiliyin möhkəmləndirilməsinin, Azərbaycanın pozulmuş ərazi bütövlüyünün bərpasının vacibliyini daim vurğulayır və bu yolda əzmlə çalışırdı.

Zaman keçdikcə cəmiyyətin inkişafı, beynəlxalq münasibətlərin dəyişməsi, eləcə də qloballaşmanın gətirdiyi yeni çağırışlar Konstitusiyanın müəyyən müddəalarının yenilənməsini zərurətə çevirdi. Çağdaş dövrün tələblərinə cavab verilməsi məqsədilə Konstitusiyaya edilən əlavə və dəyişikliklər beynəlxalq hüquqa və reallığa tam adekvat idi. Dəyişilən sosial-siyasi reallıq səbəbindən və əldə olunan uğurların möhkəmləndirilməsi məqsədilə Azərbaycan Konstitusiyasında bir neçə dəfə dəyişikliklər edilib və əlavələr olunub.

*

2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Konstitusiyaya ümumxalq referendumu ilə edilmiş əlavə və dəyişikliklər həm də beynəlxalq hüquqi aktların Əsas qanunda daha dolğun ifadəsini tapması ilə nəticələndi. Məsələn, Birləşmiş Millətlər Təşkilatının 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt"ında, "Mülki və siyasi hüquqlar haqqında Pakt"ında, habelə Avropa Şurasının 1961-ci il tarixli Avropa Sosial Xartiyasında vətəndaşların sosial və mədəni hüquqlarının təmini vacib məsələ kimi önə çəkildi. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyada üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Əsas Qanunun 29 maddəsində edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, bu hüquqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəldilib.

Konstitusiyaya əsasən, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Bu kontekstdə qeyd olunmalıdır ki, 30 ilə yaxın müddətdə doğma yurdlarından məcburi köçürülmüş vətəndaşlarımızın öz torpaqlarına qayıtması onların pozulmuş mülkiyyət hüquqlarının bərpasına şərait yaratmağı nəzərdə tuturdu. 2020-ci ilin sentyabrında başlayıb noyabrında Zəfərimizlə başa çatmış Vətən müharibəsində Azərbaycan Ordusunun apardığı uğurlu əməliyyatlar xalqımızın əsas konstitusion hüquqlarından biri olan təhlükəsiz yaşamaq hüququnu bərpa etdi. Azərbaycan xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək düşmən üzərində şanlı qələbəyə doğru birgə addımladı, işğaldan azad edilmiş torpaqlarımızda dövlət bayrağımızın ucaldılmasına və Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin bərpasına nail oldu.




*

Ümumbəşəri demokratik dəyərlərə əsaslanan Ali Qanunumuz respublikamızın gələcək inkişaf prioritetlərini dəqiq müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarır. 5 bölmədən, 12 fəsil, 158 maddədən ibarət olan Azərbaycan Konstitusiyasının 48 maddəsinin və yaxud üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması onun beynəlxalq səviyyədə mükəmməl Əsas Qanun kimi qəbulunu şərtləndirir. Konstitusiyada əksini tapmış strateji məqsədlər, ilk növbədə, hüquqi islahatların və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri edir. Ali Qanuna edilən dəyişikliklər Azərbaycanın beynəlxalq hüquqa inteqrasiyasını gücləndirir, ölkənin demokratik inkişafını və insan hüquqlarının təminatını daha da möhkəmləndirir. Nəticə etibarilə, Konstitusiyanın yenilənməsi dövrün tələblərinə cavab verən, insan və cəmiyyət mərkəzli hüquqi dövlətin formalaşmasına xidmət edir.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasında BMT-nin 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqazadlıqları tam və əhatəli şəkildə təsbit olunub. Kommunizm quruculuğunu özünün ali məqsədi elan etmiş keçmiş sovet konstitusiyasından fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edir. Konstitusiyamızın hüquqi bazasını təşkil edən beynəlxalq hüquqi aktlar sırasında BMT-nin 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi ilə yanaşı, BMT-nin 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasını, Qadınların siyasi hüquqlarına dair 1952-ci il tarixli Konvensiyanı, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunmasına dair 1979-cu il Konvensiyanı, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunmasına dair 1965-ci il Beynəlxalq Konvensiyanı xüsusi vurğulamaq lazımdır. Bəli, Azərbaycan Konstitusiyasının əsasında sivil dünyanın istinad etdiyi mütərəqqi, demokratik ruhlu beynəlxalq saziş və konvensiyalar dayanır. Azərbaycan demokratik dəyərlərə sadiq ölkə kimi qəbul etdiyi bir sıra qanunların, normativ-hüquqi aktların beynəlxalq hüquqi aktlara uyğunlaşdırılmasını, onlarla bağlı beynəlxalq hüquqi ekspertizanın keçirilməsini təmin edir.

Bu gün bəşəri dəyərləri, demokratik prinsipləri rəhbər tutan Azərbaycan dövləti ölkə daxilində yaşayan vətəndaşları qarşısında öz öhdəliklərini yerinə yetirməklə kifayətlənmir, eyni zamanda, xaricdə yaşayan soydaşlarımızın siyasi, iqtisadi və sosial hüquqlarını beynəlxalq standartlara uyğun şəkildə qoruyur.

***İlahə SADİQOVA,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Azərbaycanın "orta güc" strategiyası: yeni mərhələnin prioritetləri

**Prezident İlham Əliyevin yaradıcı liderliyi haqqında Azərbaycan və dünya mətbuatında araşdırmalar dərc olunur. Bundan başqa, ekspert dairələrində politoloji aspektdə dövlət başçısının siyasi kursunun tədqiqi aparılır. Azərbaycan Prezidentinin siyasi lider kimi kreativliyinin mühüm bir cəhəti son dərəcə çevik addımlar atması ilə bağlıdır. Bu da, faktiki olaraq, dövlət başçısının siyasi fəaliyyətini zamanında təhlil etmək tələbini ortaya qoyur. Bütün bunları nəzərə alaraq, biz, Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin sentyabr-oktyabr aylarında mötəbər beynəlxalq tədbirlərdə iştirakını multivektorluq və multilaterallıq kontekstində təhlil etməyə ehtiyac duyduq.**



## Multivektorluq və multilaterallıq yeni mərhələdə

Azərbaycanın xarici siyasətini xarakterizə edən politoloqlar onun bir sıra xüsusiyyətlərini vurğulayırlar. Onların sırasında multivektorluq (çoxistiqamətlilik) və multilaterallıq (çoxtərəfli və ya çoxaspektli əməkdaşlıq forması) xüsusi yer tutur. Yeni tarixi mərhədə həmin özəlliklər yeni səviyyədə xarici siyasətin prioritetləri sırasında yer alır.

Realpolitik yanaşma çərçivəsində bu iki siyasi parametr sadə mənaya malik deyildir. O, əslində, hər bir real situasiyada dövlətin xarici siyasətinin mühüm cəhətlərini əks etdirir. Yəni, multivektorluq dövlətin xarici siyasətində müxtəlif istiqamətlərin siyasi və geosiyasi kontekstdə əlaqələndirilməsi ilə bağlıdır. Multilaterallıq isə daha mürəkkəb anlayışdır, çünki burada çoxistiqamətlilik şəraitində əməkdaşlığın bütün aspektlərini mövcud siyasi və geosiyasi şərtlərə uyğunlaşdırmaq tələb olunur. Bundan başqa, xarici siyasətdə hər iki özəlliyin milli maraqlara və dövlətin strateji hədəflərinə uyğunluğunu təmin etmək lazım gəlir.

Bu fikirlərin işığında Azərbaycanın xarici siyasətində özünü göstərən mühüm bir trendə diqqət yetirək. Öncə, onu qeyd edək ki, ekspertlər bu kontekstdə müəyyən təhlillər əsasında qiymətləndirmələr aparırlar. Onların bir qisminə qısa nəzər salaq.

## Təhlilin predmeti

Ekspertlərin cari ilin sentyabr və oktyabr aylarında Prezident İlham Əliyevin qlobalmiqyaslı toplantılarda iştirakı əsasında siyasi ümumiləşdirmələri maraq doğurur. Belə ki, Azərbaycan Prezidentinin Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatındakı görüşdə, Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında, "Avropa Siyasi Birliyi"nin Kopenhagendə keçirilən 7-ci zirvə görüşündə, Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələ sammitində, Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən sammitində və ABŞ Prezidenti Donald Trampın, həmçinin Misir, Qətər və Türkiyə liderlərinin iştirak etdikləri Şarm əl-Şeyxdəki Yaxın Şərq sülh sammitində iştirakı ölkəmizin artan qlobal nüfuzunun göstəricisi kimi qiymətləndirilir.

Biz bunlara iki hadisəni də əlavə etmək istərdik – İtaliya Prezidentinin Azərbaycana səfəri və Azərbaycan Prezidentinin Qazaxıstana səfəri. Bu isə onu göstərir ki, Prezident İlham Əliyev fəal və məqsədyönlü xarici siyasət yürüdür. Ekspertlər onu ümumən aşağıdakı kimi qiymətləndirirlər.

Prezident İlham Əliyevin qatıldığı sammitlər fərqli siyasi-mədəni məkanlarda baş tutub və hər biri ölkənin xarici siyasət palitrasında fərqli məna daşıyır. Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin sammitinin əsas məzmununu enerji təhlükəsizliyi, qitələrarası sabitlik, Avropa-Asiya əlaqələri kontekstində dəyərləndirmək olar. Ölkəmiz üçün əsas məna Azərbaycanın Qərb məkanında etibarlı enerji tərəfdaşı və təhlükəsizlik aktoru kimi qəbul edilməsidir. Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci zirvə görüşündə isə əsas mövzu Orta dəhliz, mədəni-strateji həmrəylik idi. Bu zirvə görüşü Azərbaycanın Türk dünyasında lider və təşəbbüskar mövqeyi, türk inteqrasiyasının hərəkətverici qüvvəsi kimi fəaliyyətini ortaya qoyub.

Vurğulanan ümumi trek kontekstində ekspertlər konkret nəticələri ifadə edirlər.

Birincisi, Prezident İlham Əliyev bu platformadakı çıxışında Türk Dövlətləri Təşkilatının ideoloji birlikdən strateji güc mərkəzinə çevrilməsi zərurətini ortaya qoyub.

İkincisi, Azərbaycan Prezidenti türk dünyasının qlobal güc balansında öz yerini möhkəmləndirməsi üçün faydalı addımlar atır.

Üçüncüsü, İlham Əliyev Azərbaycanı türk dünyasının siyasi mərkəzi statusuna yüksəldir.

Dördüncüsü, Prezident İlham Əliyev təkmilləşdirilmiş əməkdaşlıq fəlsəfəsi irəli sürüb. Həmin fəlsəfənin məğzi müxtəlif dövlətləri ortaq maraqlar və qarşılıqlı hörmət əsasında bir araya gətirməkdən ibarətdir. Onun xarici siyasətdə əsas əlaməti isə Azərbaycanın xarici siyasətində dəyişməz prinsipin – tarazlıq və suveren qərarvermənin bərqərar olmasıdır.

Beşincisi, Prezident İlham Əliyev Azərbaycanın Yaxın Şərq istiqamətində xarici siyasətinə yeni prioritetlər gətirib. Dövlət başçısının Yaxın Şərq sülh sammitində iştirakı bunun əyani təzahürüdür. Ekspertlərin fikirlərinə görə, İlham Əliyevin Qəzza sammitində iştirakı ölkəmizin Qərb və Şərq arasında tarazlaşdırılmış mövqeyini, beynəlxalq aləmdə vasitəçi dövlət imicini daha da gücləndirir və əlamətdardır ki, İlham Əliyev burada sülh və ədalət anlayışlarını yalnız region deyil, bütün dünya üçün universal dəyərlər kimi təqdim edən lider obrazında çıxış edib.

Başqa maraqlı məqam isə ekspertlərin gəldikləri ümumi qənaətlə bağlıdır. Həmin qənaətə görə, Prezident İlham Əliyevin müxtəlif geosiyasi məkanlarda və fərqli siyasi sistemləri təmsil edən siyasi liderlərlə dialoq aparması, onlarla ortaq dil tapması diplomatik fəallıqla yanaşı, strateji çevikliyin və liderlik enerjisinin göstəricisidir.

Bizcə, ekspertlərin vurğulanan fikirləri fonunda xarici siyasətin multivektorluq və multilaterallıq kontekstinin yeni çalarları aydın görünür. Məsələnin substantiv tərəfi üzərində geniş dayanmağa çalışaq.

## Təhlilin substantiv aspekti

Substantivlik məsələnin konkret məzmun tərəfi ilə həyata keçirilən siyasi kursun praktiki nəticələrini özündə ehtiva edir. Burada ilk qənaət ondan ibarətdir ki, Azərbaycan regional lider statsunu aşaraq regionlararası miqyasda yeni mövqeyə çıxıb. Bu mövqenin başlıca əlaməti ölkəmizin geosiyasətin subyekti olması ilə sıx bağlıdır. Belə ki, Azərbaycan postsovet məkanında buna nail olan ilk müstəqil dövlətdir (Rusiya buraya aid deyil, çünki o, artıq bir neçə yüzildir ki, geosiyasətin subyektidir).

Onu deyək ki, ilk baxışdan Baltikyanı dövlətlərin də geosiyasi proseslərin subyekti olması təəssüratı yarana bilər. Lakin bu, baş vermədi. Əsas səbəb odur ki, həmin region dövlətləri avtoritar sistemdən (sovetlərdən) xilas olmaqla müstəqil mövcudluq müstəvisinə keçə bilmədilər – Avropa İttifaqı (Aİ) dərhal "əlini üzərlərinə" qoydu. Onlar indi Brüsselin rəva gördüyü qədər geosiyasətin subyektləridirlər.

Bundan başqa, Aİ ilə TDT arasında paralellər aparmaq olmaz. Çünki Aİ-nin qurulmasında Baltikyanı dövlətlər iştirak etməyiblər. Bu mənada onlar artıq "bölünmüş suverenliklərin masasına oturublar". Azərbaycan isə TDT-nin əsas qurucusudur. Onun ideya müəllifi və praktiki reallaşma konsepsiyasının banisidir. Azərbaycan TDT-nin lideri kimi təşkilatın geosiyasi proseslərdə yeri və rolunun müəyyən olunmasında həlledici rol oynayır. Bu nöqteyi-nəzərdən ölkəmiz, sözün həqiqi mənasında, regionlararası miqyasda geosiyasətin subyektidir! Azərbaycan Prezidenti bu məqsədinə bütövlükdə türk dünyası ilə ortaq mədəniyyət, vahid geosiyasi, iqtisadi, hərbi və ideya gücü olmaq xəttini qətiyyətlə inkişaf etdirməsi sayəsində çatıb!

Substantivlik kontekstində multivektorluqla multilaterallığın sintezi digər üç istiqamətdə də aydın ifadəsini tapıb. Onlar məzmunca Avropa ilə enerji sferasında əməkdaşlıqda, Şərqlə (xüsusən Çinlə) nəqliyyat və logistika aspektlərində qarşılıqlı faydalı əlaqələrin inkişafında və Yaxın Şərqdə nəqliyyat, enerji, logistika sferalarında əməkdaşlıqda əks olunub.

Hər bir istiqaməti birləşdirən mühüm geosiyasi faktor isə budur ki, Azərbaycan realpolitik paradiqması fonunda hər bir istiqamətdə enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin mükəmməl sintezinə nail ola bilib!

Vurğuladığımız bütün özəlliklər substantiv və funksional aspektlərdə səkkiz istiqamətin vahid geosiyasi məntiq çərçivəsində təhlili üçün nəzəri baza yaradır.

Azərbaycanın yuxarıda vurğuladığımız səkkiz istiqamət üzrə fəaliyyəti çox ciddi geosiyasi nəticələr verməkdədir. Prezident İlham Əliyev çoxistiqamətli və çoxaspektli siyasət sayəsində Azərbaycanı müstəqil dövlət kimi, Cənubi Qafqazı region olaraq, türk dünyasını Türk Dövlətləri Təşkilatının timsalında yeni geosiyasi səviyyəyə yüksəldib. Bunun fonunda Avropa və bütövlükdə dünya miqyasında həm Azərbaycanın, həm də türk dünyasının yeni pozitiv obrazı formalaşmaqdadır.

## 8 istiqamətin ideya müqayisəsi

Bu mövzuda yuxarıda qeyd olunan səkkiz istiqamətin ideya, məzmun və məqsədlərini motivə edən bir hadisəni mütləq vurğulamalıyıq. Çünki məhz həmin hadisə siyasi, geosiyasi, sülh və təhlükəsizlik anlamlarına məna verir. Bu isə o deməkdir ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderləri tərəfindən Birgə Bəyannamənin imzalanması, Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması tarixi hadisədir. Və indi nəzərdən keçirdiyimiz geosiyasi məsələ kontekstində İlham Əliyev, Donald Tramp və Nikol Paşinyanın Vaşinqton müzakirələrinin əhəmiyyəti böyükdür.

Birincisi, həmin müzakirələr çərçivəsində paraflanan sazişin təməl şərtlərini Azərbaycan Prezidentinin təklif etdiyi beş əsas prinsip təşkil edir.

İkincisi, Azərbaycanla Ermənistan arasında mümkün sülh sazişinin fəlsəfəsi rəsmi Bakıya məxsusdur.

Üçüncüsü, məhz Azərbaycanın təklif etdiyi məzmun və ssenaridə Bakı-İrəvan münasibətlərinin normallaşmasının regional konteksti vardır.

Dördüncüsü, sülh sazişinin imzalanmasından sonra regional, regionlararası və qlobal miqyaslarda iqtisadiyyat, enerji, nəqliyyat, logistika, informasiya və təhlükəsizlik sahələrində əlaqələr Bakının strateji vizyonu ilə sıx bağlılıqda həyata keçiriləcək.

Bu dörd xüsusiyyət səkkiz istiqamətin ideya təməlinin tərkib hissələridir. Çünki onlar, əvvəla, dünya miqyasında anti–Azərbaycan mövqeyi tutanların arzusunu gözündə qoydu, ikincisi, Azərbaycan Prezidentinin liderlik nüfuzunu yeni səviyyəyə yüksəltdi, üçüncüsü, Azərbaycanın, regional, regionlararası və qlobal miqyaslarda geosiyasi aktorluğuna yeni məna çaları gətirdi. Bu aspekt üzərində bir qədər geniş dayanaq.

Səkkiz istiqamətin hər biri özünəməxsus mövzu dairəsinə malikdir.

## "ŞƏT plyus" görüşü

Çinin Tiencin şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyəti fonunda daha geniş coğrafiyada qarşılıqlı faydalı, sabit və səmərəli əməkdaşlıq perspektivlərinə nəzər salınıb. Bu formatda yeni məqam ŞƏT üzvü olmayan ölkələrin təşkilatın ümumi platforması çərçivəsində iştirak imkanlarının müzakirəsi ilə bağlıdır.

Azərbaycan Prezidenti tədbirdəki çıxışında yeni enerji növləri (məsələn, bərpaolunan enerji) və nəqliyyat-logistika əlaqələrinin inkişaf yolları ilə bağlı tezislər irəli sürüb. Orta dəhlizin Zəngəzur hissəsinin geosiyasi və geoiqtisadi əhəmiyyətini geniş izah edib. Prezident İlham Əliyevin vurğulanan tezisinin ciddiliyi və praktiki reallaşması üçün Bakının əhəmiyyətli rol oynaya biləcəyinə inam Azərbaycan Prezidentinin liderlik nüfuzu ilə birbaşa bağlıdır. Buna görə də hər kəs dövlət başçımızın bu təklifinə həssaslıqla yanaşdı.

## BMT Baş Assambleyasının sessiyası

Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı İlham Əliyevin irəli sürdüyü tezislər XXI əsrdə uğurlu siyasi liderliyin triumfu idi. Çünki həmin tezislərin ümumi ideya ruhu dövlətin geosiyasi mövqeyinin strateji aspektinin dəqiq ifadəsindən ibarət idi. Həmin çıxışla İlham Əliyev, birincisi, uğurlu liderlik təcrübəsinin bir sıra məqamlarını açıqladı, ikincisi, Azərbaycan Respublikasının müstəqil dövlət kimi həyata keçirdiyi strateji inkişaf kursunun perspektivinin anatomiyasını ortaya qoydu. Nəticədə, Azərbaycan dövlətinin və onun başçısının qlobal geosiyasi miqyasda yüksək statusunun mövcud olduğuna BMT-də tam əmin oldular. Bu, müstəqil bir dövlətin regional liderlikdən qlobal geosiyasi oyunçuya yüksəlmək istiqamətində konkret müsbət təcrübənin özünütəsdiqi kimi də qəbul edilə bilər.

## "Avropa Siyasi Birliyi" sammiti

Nyu-Yorkda dünyanın ən ali kürsüsündən – BMT tribunasından çıxışından sonra Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci sammitində Azərbaycan Prezidentinə yüksək marağın olması tamamilə təbii və gözlənilən idi. Orada Avropanın enerji təhlükəsizliyi, sabit inkişafı və geosiyasi miqyasda oynaya biləcəyi rol ilə bağlı Prezident İlham Əliyevin müxtəlif görüşlərdə səsləndirdiyi fikirlərə verilən qiymət və göstərilən diqqət bu qənaəti təsdiqləyir. Mövzu baxımından Kopenhagen sammiti Azərbaycanın Avropa qitəsi üçün aktual olan məsələlərin müzakirəsində xüsusi yeri olduğunu nümayiş etdirdi. Bu aspektdə əgər Nyu-York Azərbaycanın dövlət identikliyinin beynəlxalq miqyasda tam qəbulunun göstəricisi idisə, Kopenhagen tədbiri Azərbaycanın Avropa üçün strateji əhəmiyyətini nümayiş etdirdi. Bu cür miqyas və məkan dəyişikliyinin politoloji dərki çox vacibdir. Həmin kontekstdə Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələdə keçirilən 12-ci zirvə görüşünün xüsusi əhəmiyyəti vardır.

## Qəbələ Zirvəsi

Dövlət başçılarının Qəbələ görüşündə İlham Əliyevin ifadə etdiyi fikirlər və irəli sürdüyü təkliflər türk dünyası üçün son dərəcə aktual və əhəmiyyətli idi. Azərbaycan Prezidenti TDT-nin daha da gücləndirilməsi, hədəflədiyi məqsədlərə çatması istiqamətində tezislər söylədi. Bu tezislər türk dünyasının inteqrasiyasının mühüm mərhələsini ifadə edir. Və TDT üzvlərinin təhlükəsizlik sferasında ortaq fəaliyyətinin təməlini əks etdirir. TDT bir təşkilat kimi bu istiqamətdə sistemli, ardıcıl və ölçülü-biçili addımlar atır. Onun ana yolunu Prezident İlham Əliyev Qəbələ Zirvəsində göstərdi!

## Düşənbə görüşü

Buradan Prezidentin Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı iştirakına keçidin ciddi məntiqi əsası vardır. Çünki həmin tədbirdə İlham Əliyev dünyanın ən güclü dövlətlərindən olan, şimal qonşumuz Rusiya ilə prinsipial geosiyasi əhəmiyyət kəsb edən məsələnin həllinə nail oldu. Fəaliyyət miqyası baxımından isə Nyu-York-Kopenhagen-Qəbələ miqyaslarında irəli sürülən müddəaların davamı olaraq Düşənbə vacib incəliyi ifadə edir. Onun strateji mənası Azərbaycan Prezidentinin V.Putinlə görüşə çox "güclü əl"lə getməsindən ibarətdir.

Türk dünyası, Avropa və dünya səviyyəsində İlham Əliyevin çox uğurlu liderlik təcrübəsi aydın göstərdi ki, onunla bəhanələrlə danışmağın perspektivi yoxdur. Çox yaxşıdır ki, Rusiya Prezidenti bunu ciddi nəzərə alaraq iki qonşu ölkə arasında münasibətlərin "İlham Əliyev ssenarisi" üzrə inkişafının lazımlığını qəbul etdi!

## Yaxın Şərq sülh sammiti

Bu hadisədən cəmi üç gün sonra İlham Əliyevin Azərbaycanın xarici siyasəti üçün strateji əhəmiyyət daşıyan, lakin çox mürəkkəb situasiya il qarşılaşmış Yaxın Şərqə səfəri tarixi məna kəsb edir. Azərbaycan Prezidenti ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq sülh sammitində iştirak etdi. Dünyanın çox məhdud sayda dövlət başçılarının dəvət olunduğu həmin sammitdə ABŞ Prezidenti daxil olmaqla bir çox dövlət başçısının İlham Əliyevə xüsusi sayğı göstərməsi tarixi olaydır. Azərbaycan həmin tədbirdən Qəzzada təhlükəsizliyin təminatçısı olan dövlətlərdən biri kimi ayrıldı. Bu fakt dünya miqyasında Azərbaycanın geosiyasi statusunun növbəti yüksəlişi idi.

## İtaliya və Qazaxıstan

Nəhayət, İtaliya Prezidentinin Azərbaycana, dövlət başçısı İlham Əliyevin isə Qazaxıstana səfəri vurğulanan altı istiqamətin fonunda son dərəcə gərəkli siyasi addımdır. Onları yeddinci və səkkizinci istiqamətlər kimi qəbul etmək olar.

İtaliyanın dövlət başçısı ilə müzakirələr Azərbaycan-Avropa əlaqələrinin perspektivini bir daha ortaya qoydu. Xüsusilə Avropanın Azərbaycanla tərəfdaşlıqda marağının yüksək olduğunu sübut etdi. Prezident İlham Əliyevin Qazaxıstan səfəri isə rəsmi Bakının geniş geosiyasi məkanda birləşdirici rolunu bir faktla təsdiqlədi: İlham Əliyev Ermənistana taxılın Azərbaycan ərazisindən keçməklə çatdırılmasına yaşıl işıq yandırdı. Bütün dünya bunu çox yüksək qiymətləndirdi. Diplomatik gediş kimi isə çox məharətli və zamanında atılmış addım olaraq xarakterizə etdilər.

Vurğuladığımız mövzu müxtəlifliyi prizmasından yekun geosiyasi qənaət əldə edə bilərik.

## Ümumi geosiyasi qənaət

Azərbaycan Prezidentinin yuxarıda vurğulanan səkkiz istiqamətdə fəaliyyəti ölkənin xarici siyasət kursunun multivektorluq və multilaterallıq prinsiplərinin növbəti təntənəsidir. İlham Əliyev bütün istiqamətlərdə həm uğurlu liderlik aspektində, həm də Azərbaycanın regional, regionlararası və qlobal miqyaslarda dövlət statusunda geosiyasi rolunun yüksəlməsi kontekstində mühüm uğurlara imza atıb.

Azərbaycan regional lider kimi TDT-də rolunu və yerini daha da möhkəmləndirib. Avropa miqyasında qitənin davamlı inkişafı və təhlükəsizliyi üçün çox vacib dövlət olduğunu sübuta yetirib. Qlobal səviyyədə isə etibarlı tərəfdaş, sülhsevər dövlət və inkişaf paradiqmasına malik ölkə olaraq özünü bir daha təsdiqləyib. Bununla Azərbaycan, faktiki olaraq, yeni növ "orta güc" obrazının formalaşdırılması istiqamətində mühüm bir mərhələyə qədəm qoyub!

***Kamal ADIGÖZƏLOV***

# Qarabağ Zəfəri şərəfinə parad

## Dünya Azərbaycan Ordusunun 5 ildə necə güclənməsinin şahidi oldu



**Noyabrın 8-də Bakının Azadlıq meydanı bir daha Azərbaycanın müzəffər ordusunun qüdrətini, xalqın birliyini və dövlətin siyasi iradəsini nümayiş etdirdi. Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad təkcə tarixi Zəfərin rəmzi deyil, həm də milli gücün, strateji düşüncənin və siyasi sabitliyin nümayişi idi. Paytaxtımızın əsas meydanında eşidilən marş sədaları ölkəmizin suverenlik və təhlükəsizlik siyasətində əldə etdiyi nəticələrin real təsdiqi kimi dəyərləndirilməlidir.**

Bu parad həm də Azərbaycanın son beş ildə formalaşdırdığı yeni regional nizamın vizual ifadəsinə çevrildi. 2020-ci ilin payızında əzəli torpaqlarımızı düşmən işğalından azad edən Azərbaycan Ordusu bu gün bütün regionda sülhün və təhlükəsizliyin zəmanətinə, əsas söz sahibinə çevrilib. Azadlıq meydanında nümayiş etdirilən hərbi texnika və nizami keçidlər ölkəmizin müdafiə potensialının əvvəlki illərlə müqayisədə qat-qat yüksəldiyini, eyni zamanda, ordumuzun müasir çağırışlara tam uyğunlaşdığını təsdiqlədi. Hərbi parad, əslində, beş il öncə başlanmış yeni geosiyasi mərhələnin davamını göstərən mühüm siyasi mesaj idi.

Ordumuzun gücü təkcə döyüş meydanında deyil, həm də regionun siyasi və təhlükəsizlik arxitekturasında öz əksini tapır. Qeyd etdiyimiz kimi, Azərbaycan Silahlı Qüvvələrinin bugünkü səviyyəsi, texnoloji təchizatı və döyüş hazırlığı onu təkcə ölkəmizin deyil, bütün Cənubi Qafqazın sabitlik dayaqlarından birinə çevirib. Bu baxımdan ordumuzun sülhün və təhlükəsizliyin zəmanəti kimi səciyyələndirilməsi təsadüfi deyil. 2020-ci ildə əldə edilən Qələbə Azərbaycanın milli maraqlarını qorumaq əzmini, eyni zamanda beynəlxalq hüququn bərpasına yönəlmiş iradəsini göstərdi. Beş il ərzində formalaşan yeni güc balansı isə göstərir ki, Azərbaycan daha regional proseslərə reaksiya verən deyil, onları istiqamətləndirən mərkəz rolundadır. Bu reallıq həm hərbi modernizasiya proqramının, həm də diplomatik çevikliyin nəticəsidir. Azərbaycan Ordusu yalnız müdafiə konsepsiyası üzərində deyil, qabaqlayıcı təhlükəsizlik siyasəti prinsipləri əsasında fəaliyyət göstərir. Ölkə sərhədlərinin bütövlüyü, sərhədyanı ərazilərdə sabitliyin təmin edilməsi və regional əməkdaşlıq layihələrinin təhlükəsizliyi bu siyasətin prioritet istiqamətləridir. Məhz buna görə Azərbaycana qarşı hər hansı təxribat və ya yeni işğal cəhdi, təkcə hərbi cavabla deyil, həm də siyasi və iqtisadi müstəvilərdə balanslaşdırılmış tədbirlərlə qarşılanacaq.

Son illər həyata keçirilən hərbi sənaye islahatları, müasir silah sistemlərinin ölkə daxilində istehsalı və dost dövlətlərlə strateji əməkdaşlığın dərinləşməsi Azərbaycanın müdafiə potensialını sabit və uzunmüddətli dayaqlarla təmin edir. Bu sistem yalnız özünü müdafiə üçün deyil, bölgədə sülhün qorunması üçün də mühüm əhəmiyyət daşıyır. Ordunun gücü burada həm çəkindirici amil, həm də sabitlik faktorudur. Güman edirik ki, Azərbaycanın mövqeyi hər kəsə aydındır. Bu mövqe də ondan ibarətdir ki, regionda zorakılıq və revanşizmə yer yoxdur. Bu prinsip həm beynəlxalq hüquqa, həm də 44 günlük müharibədən sonra formalaşmış yeni reallığa əsaslanır. Buna görə də ordumuzun varlığı yalnız gücün simvolu deyil, sülhün dayanıqlığının zəmanətidir. Azərbaycan dövləti göstərir ki, sülh yalnız o zaman qalıcı olur ki, onu qorumağa qadir qüvvə mövcuddur. Bu qüvvə isə bu gün tam şəkildə formalaşmış, öz potensialını təsdiqləmiş Azərbaycan Ordusudur.

***

Ümumiyyətlə, güclü dövlətin əsas dayaqlarından biri peşəkar və müasir orduya malik olmaqdır. Azərbaycanın son illərdə keçdiyi inkişaf yolu bu prinsipin real ifadəsidir. Ölkə rəhbərliyinin siyasi iradəsi, iqtisadi sabitlik və hərbi modernləşmə strategiyası nəticəsində ordumuz artıq dünyanın güclü orduları sırasında layiqli yerini tutub. Qlobal hərbi araşdırma mərkəzlərinin, o cümlədən "Global Firepower" reytinqinin 2025-ci il hesabatına əsasən, Azərbaycan Ordusu 145 ölkə arasında ilk 50-ci yerdə qərarlaşıb və regionda hərbi potensialına görə lider mövqeyə sahibdir. Əlbəttə, bu nəticə təsadüfi deyil. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan Qələbə ordunun peşəkarlığını, texnoloji hazırlığını və komandanlıq strukturunun effektivliyini bütün dünyaya nümayiş etdirdi. Həmin dövrdə tətbiq edilən əməliyyat taktikasının müasir müharibə modelinə çevrilməsi, pilotsuz uçuş aparatlarının geniş istifadəsi və hədəf dəqiqliyinin yüksəkliyi Azərbaycanın hərbi sisteminin çevikliyini sübut etdi. Hazırda bu təcrübə tədris proqramlarına daxil edilib, NATO və Türkiyə ilə birgə keçirilən təlimlərdə geniş tətbiq olunur.

Ordumuzun inkişafı iqtisadi güc amili ilə birbaşa bağlıdır. Azərbaycanın 2025-ci il dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərcləri 8 milyard manatdan çoxdur ki, bu da əvvəlki illərlə müqayisədə əhəmiyyətli artım deməkdir. Hərbi sənaye kompleksinin yerli bazada genişlənməsi, zirehli texnikaların, pilotsuz uçuş aparatlarının və döyüş sursatlarının daxili istehsalı ölkənin özünütəminat səviyyəsini yüksəldib. Bundan əlavə, Türkiyə, İsrail, Pakistan, İtaliya və Serbiya ilə hərbi-texniki əməkdaşlıq çərçivəsində əldə edilən yeni nəsil silah sistemləri ordunun taktiki imkanlarını daha da genişləndirib.

Bu gün Azərbaycan Ordusu yalnız müdafiə gücü deyil, həm də strateji tərəfdaşlıq mərkəzi kimi çıxış edir. Ordumuzun struktur islahatları, komandanlıq sisteminin vahid standartlara uyğunlaşdırılması və beynəlxalq hərbi təlimlərdə fəal iştirakı onu regional təhlükəsizlik sisteminin ayrılmaz hissəsinə çevirib. Bütün bu amillər bir daha sübut edir ki, güclü dövlət anlayışı sadəcə iqtisadi göstəricilərlə məhdudlaşmır. Onun əsasında xalqın inamı, siyasi sabitlik və bu sabitliyi qorumağa qadir güclü ordu dayanır. Azərbaycan bu modelin Cənubi Qafqazda parlaq nümunəsinə çevrilib.

***

Sözsüz ki, ordumuzun texnoloji üstünlüyündən də ayrıca bəhs olunmalıdır. Bakıdakı Hərbi parad Azərbaycan Ordusunun modernləşmədən sonra strukturlaşdırılmış, texnoloji cəhətdən inkişaf etmiş və ağır səngər döyüşlərinə girmədən uzaq məsafədən tapşırıqları həll etməyə qadir olduğunu aydın şəkildə nümayiş etdirdi. "ICEBREAKER" gəmi əleyhinə beşinci nəsil super müasir qanadlı raket kompleksi paradın ən görkəmli elementlərindən biri idi. Onun ictimai nümayişi bu sistemin ordumuzun arsenalında mövcudluğunun ilk təsdiqi oldu. "ICEBREAKER"in aşağı hündürlükdə uçuş profili, termal görüntüləmə və hədəf tanıma rejimi həm su üzərindəki gəmilərin, həm də sahil hədəflərinin minimal aşkarlama ilə sıradan çıxarılmasına imkan verir. Mahiyyət etibarilə "ICEBREAKER" potensial düşmənin sahil zonasında manevr azadlığını əhəmiyyətli dərəcədə məhdudlaşdıran və dəniz cinahında effektiv strateji çəkindiricilik vasitəsi olan silahdır.

Ordumuzun paradda nümayiş etdirilən digər vacib komponenti müasir artilleriya qurğuları oldu. Yüksək səviyyəli avtomatlaşdırılmış atəş idarəetmə sisteminə malik müasir 155 millimetrlik uzaqmənzilli platforma olan "DİTA" özüyeriyən sistemi artilleriyanın artıq "yavaş hərəkət edən" bir vasitə olmadığını nümayiş etdirir. Avtomatlaşdırılmış yükləmə sistemi, inteqrasiya olunmuş ballistik naviqasiya (INS/GPS) və rəqəmsal atəş idarəetmə bloku ilə təchiz olunmuş bu vasitə vahid hədəf şəbəkəsinə inteqrasiya edildikdə sürətli və dəqiq "zərbə və uzaqlaşma" alətinə çevrilir. "DİTA" real vaxt rejimində PUA və ya kəşfiyyat sistemindən koordinatları alır, idarə olunan mərmilər atır və düşmən əks-batareya zərbəsi endirməzdən əvvəl mövqelərini dəyişir.

Sürətli yerləşdirmə və məsafədən idarəetmə imkanları ilə təchiz olunmuş 152 millimetrlik "DANA" özüyeriyən artilleriya sistemi və 155 millimetrlik "NORA" qurğuları düşmənin müdafiəsinin dərinliyindəki möhkəmləndirilmiş mövqeləri, sursat anbarlarını və komanda məntəqələrini məhv edə bilən atəş konturu formalaşdırılır. Effektivliyin əsas amillərinə şəbəkə mərkəzliliyi və vahid əməliyyat mənzərəsi, idarə olunan sursatların istifadəsi və "atəş və mövqe dəyişmə" rejimi sayəsində batareyanın minimal həssaslığı daxildir. Avtomatlaşdırılmış özüyeriyən silahların və əməliyyat kəşfiyyatının birləşməsi artilleriyanı sadəcə piyada dəstəyindən dəqiq məhv və çəkindirmə üçün strateji bir vasitəyə çevirir.

Hərbi paradın diqqəti cəlb edən daha bir məqamı aviasiya və pilotsuz uçuş aparatları idi. "Bayraktar Akıncı" ağır zərbə platforması olaraq "Harop" və "SkyStriker" hərəkətli sursatları ilə birləşərək düşmənin həssas elementlərinə – radarlara, komanda məntəqələrinə, hava hücumundan müdafiə heyətlərinə və hədəf obyektlərinə qarşı ilk zərbəni formalaşdırır. Bu modeldə əsas məqsəd quru qoşunları sərhədə çatmazdan əvvəl düşmənin "gözlərini və beyinlərini" söndürmək və ya zəiflətməkdir.

Hərbi aviasiyamızın güclənməsinin daha bir göstəricisi yeni "JF-17 Block 3" döyüş təyyarəsinin silahlanmaya daxil edilməsidir. Müasir hədəfləmə sistemləri və təkmilləşdirilmiş avionika ilə təchiz olunmuş çoxməqsədli təyyarələr olaraq onlar yüngül hücum PUA-larından daha yüksək sürətlə və uzun məsafələrdə hava məkanına nəzarət, ələ keçirmə və dəqiq zərbələr endirməyə imkan verir.

Paradda nümayiş etdirilən yeni nəsil raket, artilleriya və aviasiya sistemləri ölkəmizin müdafiə qabiliyyətinin keyfiyyətcə dəyişdiyini göstərdi. Bu texnoloji irəliləyişlər ordumuzu ənənəvi döyüş taktikalarından daha çox uzaq məsafədən zərbə və hədəf seçimi üzərində qurulmuş sistemə çevirir. Vahid şəbəkə və kəşfiyyat-informasiyalı əməliyyatlar düşmənin manevr imkanlarını məhdudlaşdırır və potensial təcavüzə qarşı inandırıcı çəkindirici amil yaradır. Nəticədə Azərbaycan Ordusunun modernləşməsi yalnız hərbi üstünlük deyil, eyni zamanda regionda davamlı sülh və təhlükəsizliyin təminatçısı rolunu gücləndirir.

***S.HƏMİD***
***XQ***

# Azadlıq meydanından dünyaya yayılan strateji bəyanat




## *Bakı paradı yeni status-kvonu təsdiqləyən dövlətlərin koalisiyasını bir araya gətirdi*

**Bakının Azadlıq meydanında Vətən müharibəsindəki Zəfərin beşinci ildönümünə həsr olunmuş Hərbi parad Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallığın və çoxşaxəli xarici siyasət strategiyasının göstəricisi idi. Noyabrın 8-də baş tutan möhtəşəm mərasim ölkənin hərbi potensialının nümayişi ilə yanaşı, həm də beynəlxalq münasibətlər sistemindəki mövqeyini və strateji tərəfdaşlıqlarının dərinliyini bütün dünyaya bəyan edən fundamental siyasi platforma funksiyasını yerinə yetirdi.**

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə keçirilən parada ənənəvi müttəfiqlərin – Türkiyə və Pakistanın ali rəhbərlik səviyyəsində təmsil olunması, eləcə də Avropa, Mərkəzi Asiya və Yaxın Şərqin nüfuzlu dövlətlərindən yüksək rütbəli hərbi nümayəndə heyətlərinin iştirakı Bakının qlobal siyasətdəki çəkisini və etibarlı tərəfdaş statusunu təsdiqləyən əsaslı göstərici oldu.

Hərbi mərasimin geosiyasi məzmununun dərinliyində ilk növbədə Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli strateji tərəfdaşlıq formatının sarsılmazlığına və institusional dərinliyinə diqqət yetirmək zəruridir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin paradda iştirakı formal protokol qaydasından qat-qat dərin strateji məna daşıyırdı. Vətən müharibəsinin ilk anlarından etibarən Azərbaycana qeyd-şərtsiz siyasi, mənəvi dəstək göstərən Türkiyə liderinin iştirakı iki qardaş dövlətin Şuşa Bəyannaməsi ilə rəsmiləşdirilmiş müttəfiqlik münasibətlərinin növbəti parlaq təzahürü idi. Türkiyə hərbçilərinin Azərbaycan əsgərləri ilə eyni cərgədə, çiyin-çiyinə Azadlıq meydanından keçməsi ortaq tale, ortaq gələcək və təhlükəsizlik konsepsiyasının vizual təsdiqi idi.

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin parada qatılması strateji müttəfiqliyin dərinliyini sərgiləyən növbəti mühüm hadisə oldu. Tarixən Azərbaycanın ədalətli mövqeyini bütün beynəlxalq platformalarda ardıcıl dəstəkləyən, Ermənistanın işğalçılıq siyasətinə qarşı prinsipial mövqe tutaraq bu ölkəni müstəqil dövlət kimi tanımaqdan imtina edən Pakistanın Vətən müharibəsi dövründə göstərdiyi həmrəylik Azərbaycan xalqının yaddaşında dərin izlər buraxıb.

Bakıdakı parad bir müddət əvvəl Laçında üç ölkə liderinin iştirakı ilə keçirilən tarixi zirvə görüşündə əsası qoyulan çoxtərəfli əməkdaşlıq platformasının artıq real fəaliyyət mərhələsinə keçdiyini sübuta yetirdi. Təhlükəsizlik, müdafiə sənayesi, enerji və nəqliyyat sahələrində əməkdaşlığı əhatə edən platforma Cənubi Qafqazdan Orta Asiyaya, oradan da Hind okeanı sahillərinə qədər uzanan yeni güc oxu formalaşdırmaqdadır. Azadlıq meydanında yanaşı dalğalanan Azərbaycan, Türkiyə və Pakistan bayraqları "üç dövlət – tək ürək" reallığının təcəssümü kimi regionda sülh və təhlükəsizliyin əsas qarantlarından olan qardaşlıq ittifaqının sarsılmazlığını dünyaya bəyan edirdi.

***

Paradın beynəlxalq iştirakçılarının geniş coğrafiyası Azərbaycanın xarici siyasətinin çoxvektorlu və praqmatik xarakter daşıdığını aydın şəkildə ortaya qoydu. Avropa İttifaqı və NATO üzvü Slovakiyanın Baş nazirinin müavini, müdafiə naziri Robert Kalinakın başçılıq etdiyi nümayəndə heyətinin iştirakı xüsusi diqqət tələb edir. Bu səviyyədə təmsilçilik Bakının, eyni zamanda, Avroatlantik məkanın mühüm üzvləri ilə təhlükəsizlik və müdafiə sahəsində strateji dialoq qurduğunu təsdiqləyir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatında oynadığı əvəzolunmaz rolu fonunda, müdafiə sahəsində əməkdaşlığın dərinləşməsi münasibətlərin strateji mahiyyət aldığının göstəricisidir. Slovakiyanın yüksək səviyyəli nümayəndə heyətinin Zəfər paradında iştirakı Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətin, eyni zamanda, Cənubi Qafqazda yaranmış yeni reallıqların qitənin mərkəzindəki dövlətlər tərəfindən qəbul edildiyinin təsdiqi kimi oxunmalıdır. Hadisə, həmçinin Azərbaycanın müasir müdafiə sənayesi məhsullarının Avropa bazarına çıxışı üçün yeni perspektivlər aça biləcək əməkdaşlıq imkanlarının mövcudluğundan xəbər verir.

Serbiya silahlı qüvvələrinin baş qərargah rəisi, general Milan Moysiloviçin paradda iştirakı iki ölkə arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərin hərbi sahədə də ardıcıl şəkildə möhkəmləndiyini nümayiş etdirdi. Həm Azərbaycan, həm də Serbiya beynəlxalq hüququn təməl prinsipləri olan ərazi bütövlüyü və suverenliyə hörmət mövzusunda həssas yanaşmaları ilə tanınır və bu proses iki ölkənin siyasi mövqelərini yaxınlaşdıran fundamental amildir. Baş Qərargah rəisinin belə mühüm tədbirə qatılması gələcək əməkdaşlığın konkret konturlarını müəyyənləşdirir.

Paraddakı iştirakçıların tərkibində Mərkəzi Asiya respublikalarının xüsusi yer tutması Türk dünyası çərçivəsində inteqrasiya proseslərinin dərinləşməsinin bariz nümunəsi kimi yadda qaldı. Qazaxıstanın müdafiə naziri Dauren Kosanovun, Qırğızıstanın müdafiə nazirinin, habelə Özbəkistanın müdafiə nazirinin müavininin tədbirdə təmsil olunması Vətən müharibəsindəki qələbədən sonra Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı nüfuzunun və aparıcı rolunun əhəmiyyətli dərəcədə artdığını təsdiqləyir. Azərbaycan Ordusunun müasir müharibə şəraitində qazandığı unikal təcrübə, hibrid müharibə elementlərini klassik hərbi əməliyyatlarla sintezetmə bacarığı, qardaş Mərkəzi Asiya ölkələri üçün böyük maraq kəsb edir və birgə hərbi təlimlərin intensivləşməsinə, təcrübə mübadiləsinin genişlənməsinə və müdafiə sənayesi sahəsində əməkdaşlığın güclənməsinə güclü təkan verir. "Birləşdik-2024" kimi birgə hərbi təlimlərin keçirilməsi bu əməkdaşlığın praktiki nəticələrindəndir. Zəfər paradı Türk dünyasının hərbi-siyasi sahədə də birliyinin və sarsılmaz həmrəyliyinin nümayiş olunduğu möhtəşəm platformaya çevrildi.

Yaxın Şərqin aparıcı dövlətlərindən olan Səudiyyə Ərəbistanı müdafiə nazirinin müavininin paradda iştirakı isə Bakının İslam dünyası ilə əlaqələrinin strateji dərinliyə malik olduğunu isbatladı. Son illər ərzində Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında həm siyasi, həm də iqtisadi münasibətlər yüksələn xətlə inkişaf etməkdədir. Krallığın Azərbaycanın ərazi bütövlüyünə verdiyi birmənalı dəstək və iki ölkə liderləri arasındakı səmimi, etimada söykənən münasibətlər, əməkdaşlığın müdafiə sahəsinə də şamil olunması üçün əlverişli zəmin yaratmışdır. Səudiyyə Ərəbistanının yüksək rütbəli hərbi rəsmisinin Zəfər paradını izləməsi, gələcəkdə müdafiə sənayesi, birgə təlimlər və hərbi təhsil sahələrində əməkdaşlıq üçün yeni imkanların mövcudluğuna işarə edir.

Paradda nümayiş etdirilən ən müasir silah sistemləri, uzaqmənzilli raket və artilleriya qurğuları, çoxqatlı hava hücumundan müdafiə sistemləri, Hərbi Dəniz Qüvvələrinin döyüş gəmiləri və katerləri Azərbaycan Ordusunun təkcə yüksək döyüş ruhuna sahib olmadığını, həm də maddi-texniki təchizatının hansı yüksək səviyyədə olduğunu göstərdi.

Bakının Azadlıq meydanında keçirilən parad Azərbaycanın milli gücünün bütün komponentlərinin – hərbi, diplomatik, siyasi və mənəvi gücün vahid vəhdət təşkil etdiyini bütün dünyaya nümayiş etdirdi. Türkiyə və Pakistan liderlərinin iştirakı ilə təcəssümünü tapan sarsılmaz qardaşlıq ittifaqı Cənubi Qafqazda formalaşan yeni təhlükəsizlik arxitekturasının təməl sütununu təşkil edir. Avropa, Balkan, Mərkəzi Asiya və Yaxın Şərq ölkələrinin yüksək səviyyəli nümayəndələrinin iştirakı isə Azərbaycanın qlobal miqyasda etibarlı, proqnozlaşdırıla bilən və çoxşaxəli tərəfdaşlıqlar qurmağa qadir suveren güc mərkəzi olduğunu qəti şəkildə təsdiqlədi. Parad tribunasının önündən keçən hər Azərbaycan əsgəri və nümayiş etdirilən hər hərbi texnika Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bundan sonra heç zaman təhdid altına alınmayacağının, regionda sülhün və əməkdaşlığın inkişafının Azərbaycanın iradəsi və qüdrəti ilə təmin olunacağının açıq və birmənalı bəyanatı idi.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Onlar da Bakıda “Azəriçay”dan dadacaqlar…

## *Dünən özgə kölgəsində “qızınanlar”ın bu gün canlarına üşütmə düşüb*



**Həyatın reallıqları və dialektika bunu deyir: nə qədər uzaqdan yola çıxsa da, haqq gec-tez gəlib öz yerini tapır. Bu gerçəyi tarix dəfələrlə sübuta yetirib. Son 30 ildə Cənubi Qafqazda cərəyan edən hadisələrin xronologiyası və mahiyyəti ədalətin təntənəsini nümayiş etdirmiş oldu.**

“Mən bunu demişəm, bir daha demək istəyirəm, biz heç vaxt bu vəhşiliyi, bu pisliyi unuda bilmərik. Xocalı soyqırımını necə unutmaq olar? Biz qisasımızı döyüş meydanında aldıq. Onlardan fərqli olaraq mülki əhaliyə qarşı heç bir nalayiq hərəkət etməmişdik, gücümüzü ancaq Ermənistan ordusunu məhv etmək üçün səfərbər etmişdik. Onlar isə əliyalın insanlara qarşı, qadına, uşağa, qocalara qarşı nə qədər çirkin əməllər etmişdilər, hərbi cinayətlər törətmişdilər”. Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri 8 ay bundan əvvəl Ağdərəyə səfəri zamanı Suqovuşanda yeni kompleksin istifadəyə verilməsi mərasimində deyib. Dövlət başçımızın sakinlərlə görüşdə erməni terrorçuların Birinci Qarabağ müharibəsində azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlərə, insanlıqla bir araya sığmayan vəhşiliklərə toxunması təsadüfi deyildi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşəndə, bir milyon Azərbaycan vətəndaşı qaçqın-köçkün vəziyyətinə salınanda dünya birliyi, sanki kar və kor olmuşdu. Azərbaycan Prezidenti İlham Əliyev regional və beynəlxalq səviyyələrdə keçirilən bütün tədbirlərdə xalqımızın məruz qaldığı məhrumiyyətləri, ona qarşı törədilən hərbi cinayətləri, Xocalı soyqırımını, Ermənistanın dövlət səviyyəsində etnik təmizləmə siyasəti apardığını dəfələrlə bəyan edib.

“Bu, bizim iradəmizi sındırmadı. Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi. Ermənistan başına gələnlərdən düzgün nəticə çıxara bilməmişdir və İkinci Qarabağ müharibəsi ərəfəsində daha da azğınlaşmışdı, bizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başlamışdı”. Bu sözləri Prezident İlham Əliyev Xankəndidəki revanşist-separatçı tör-töküntünün Azərbaycanı yeni müharibə ilə hədələmələri kontekstində bildirib. Dövlət başçımızın üstündən səkkiz ay keçəndən sonra, noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda çıxışı zamanı dedikləri həmin mesajın ardı olmaqla yanaşı, erməni hərbi cəlladları üçün hazırlanan son aqibətin ismarıcı sayılmalıdır: “Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər. Deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq. Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər”.

İlham Əliyevin çıxışındakı mesajların kimlərə ünvanlandığı bu gün hər bir azərbaycanlıya məlumdur. Söhbət “məşhur üçlük”dən gedir. Qarabağ onların babalarına qonaqpərvərliklə qucaq açmışdı, əcdadları kimi bunlar da suyumuzdan içib, çörəyimizdən yeyib sonda harınladılar və qədim yurdumuzda ikinci erməni dövləti yaratmaq xəyalına düşdülər. Qonaqpərvərliyimizdən sui-istifadə edənlərin, çörəyi dizinin üstündə olanların son aqibətinə indi bütün dünya şahiddir.

Həmin “üçlüy”ün üzvlərindən birincisi – Xocalıda soyqırımı törədən 366-cı motoatıcı alayın taqım komandiri, işğaldan sonra Xankəndidəki separatçı qurumun, daha sonra isə Ermənistanın müdafiə naziri olmuş, Füzulidə fransalı hərbi mütəxəssislərin layihəsi əsasında qurulmuş yeraltı istehkamları öz adına “keçilməz Ohanyan səddi” adlandıran, 2020-ci il noyabrın əvvəllərində, Vətən müharibəsinin gedişində başının dəstəsi ilə Şuşanın “müdafiəsinə gələn”, amma rəşadətli Azərbaycan Ordusunun zərbini görüb tülkü kimi qaçıb aradan çıxan Seyran Ohanyandır. İndi onun barəsində korrupsiya və digər qanunsuz əməllərinə görə cinayət işi qaldırılıb, məhkəmə araşdırması davam etdirilir.

İkincisi – Xankəndidəki separatçı rejimin “xaç atası” sayılan, 1998–2008-ci illərdə Ermənistana rəhbərlik etmiş “Qarabağ klanı”nın ilk nümayəndəsi, Qarabağın ətrafında işğal etdikləri və “bufer zona” adlandırdıqları 7 rayonu heç vaxt Azərbaycana qaytarmayacağına “and içən” Robert Koçaryandır. O Koçaryan ki, 1999-cu il oktyabrın 11-də Sədərək rayonunda Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşündə diplomatiya dahisinin dəmir məntiqi və siyasi qətiyyəti qarşısında Ermənistan silahlı birləşmələrinin işğal etdiyi 7 rayondan qeyd-şərtsiz çıxmasına razılığını bildirmişdi. Amma 16 gün sonra, o, verdiyi sözün altından qaçmış və belə bir razılaşmanın olduğunu danmışdı. Hazırda onun barəsində də İrəvan Məhkəməsində prezidentliyi dövründə baş vermiş qanlı olaylarda əli olması ilə bağlı, eləcə də korrupsiyaya görə açılmış cinayət işi üzrə dinləmələr aparılır.

“Üçlüy”ün üçüncüsünün Qarabağda dinc əhaliyə qarşı törədilən qanlı cinayətlərdə əlinin olması bir yana, Xocalı qətliamı ilə bağlı ingilis jurnalisti Tomas de Vaala verdiyi müsahibəsində dedikləri ən ağır cəzaya məhkum olunması üçün yetərlidir. Xocalı soyqırımı zamanı separatçı rejimin müdafiə naziri olmuş, sonra Ermənistanın prezidenti postuna (2008–2018) yiyələnmiş Serj Sarkisyanın sözlərinə diqqət edin: “Xocalıdan öncə azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdır. Biz bu stereotipi sındırdıq”. Onun bu etirafı törədilmiş qətliamın heç də təsadüf olmadığına, məhz soyqırımı cinayəti kimi Ermənistan tərəfindən əvvəlcədən planlaşdırılaraq icra olunduğuna heç bir şübhə yeri qoymur.

Əlləri soydaşlarımızın, günahsız dinc əhalinin qanına bulaşmış bu üzdəniraq “üçlük” barədə ona görə ətraflı məlumat veririk ki, onlar sabah, ya birisi gün Bakıda ədalət mühakiməsi qarşısına çıxarılanda oxucularımız əziyyət çəkib bu hərbi cinayətkarların “dosye”lərini axtarmasınlar. Hərçənd bu gün baş nazirə qarşı gizli koalisiya qurmuş Koçaryan–Sarkisyan–Ohanyan triosunun məqsədi Ermənistanda hakimiyyəti yenidən ələ keçirməkdən daha çox, yuxarıda bir qismini sadaladığımız hərbi cinayətlərə görə Femidanın qarşısına çıxarılacaqlarından keçirdikləri xof və qorxudur. Fəqət onlar layiq olduqları acı aqibətdən yayınmaq üçün faydasız cəhdlərə baş vurmaqdadırlar.

Sonda bir məsələni də qeyd etməyə ehtiyac duyuruq. Ermənistanın İkinci Qarabağ müharibəsi dövrünün generaliteti onlara kənardan ehtiyac duyduqları hərbi yardımı almadıqlarını deyir. Amma onlar bunu deyərkən gözlərinin içinə kimi yalan danışır, ikiüzlülük edirlər. Onlar, sadəcə olaraq, hərbi yük təyyarələrinin həm Şimaldan, həm də Şərqdən İrəvana daşıdıqları ən müasir silahların belə Azərbaycan əsgərinin döyüş əzmi və qətiyyəti qarşısında gücsüzlüyünü etiraf etməkdən qorxurlar. Bir də ki, hay xislətinə adekvat olaraq, onlar üçün dünən kölgəsinə sığındığına bu gün üz çevirmələri normal hal sayılır. Görünən odur ki, indi kənar “çətir-kölgələrdən” məhrum olanların canına üşütmə düşüb...

Bunu isə öz adımızdan deyirik. Həmin “eks”lərə son aqibətləri ilə bağlı reallaşacağına şübhə etmədiyimiz çılpaq həqiqəti unutmamalarını məsləhət görərdik. Yəni məhkəmə işləri İrəvanda başlayıb Bakıda tamamlanacaq hərbi cinayətkarların hazırda təcridxanada saxlanılan şəxslər kimi “Azəriçay”ın tamını hiss edəcəkləri günə çox qalmayıb. Noyabrın 8-də Vətən müharibəsində qələbəmizin beşilliyi münasibətilə paytaxtda düzənlənən möhtəşəm paraddakı çıxışında bunu onların diqqətinə çatdıranın “dəmir yumruğ”unun dadını və həmişə dediyi sözünün ağası olduğunu artıq görüb və əmin olublar.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

**Ermənistan siyasətində keçmişin qalıqları hesab olunanlar vaxtilə çox bəyanatlar verir, Azərbaycanın ünvanına boylarını aşan ifadələr işlədirdilər. Onlar hesab edirdilər ki, Qarabağda əbədi qalacaq və oradan xalqımıza və dövlətimizə meydan oxuyacaqlar. Amma vaxt dolandı və ədalət öz yerini tapdı. Separatçı ünsürlərin zirehinin üstündə Bakıya girəcəklərini bəyan etdikləri tanklar indi həqiqətən də paytaxtımızda – Hərbi Qənimətlər Parkındadır.**

O ki qaldı separatçıların Bakıda çay içmək arzularına, düşünürəm ki, Azərbaycan çayının dadı onların beyinlərini duruldub və məntiqi nəticəyə gəlmələrinə yardım göstərəcək. Yəni anlayacaqlar ki, bizimlə saymazyana davranmaq, Azərbaycana qarşı aşağılayıcı hərbi leksikona yol vermək onların özlərinin maraqlarına ziddir. Hər halda, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakimin suallarını cavablandıran keçmiş separatçılar bunu çox yaxşı başa düşüblər.

Koçaryan–Sarkisyan–Ohanyan “üçlüy”ünə gəldikdə isə bu adamlar Azərbaycanın bir nömrəli düşmənləridir. O da məlumdur ki, onlar tək bizimlə deyil, öz hakimiyyətləri ilə də düşmən kimi davranırlar. Hamısının əlləri korrupsiyaya bulaşıb, dələduzluqla məşğul olublar. İndi üzə çıxır ki, bu “üçlük” hakimiyyətdə olarkən Ermənistanı soyub-talayıb, öz xalqına qarşı cinayətlər törədiblər. Məhkəmə tam əsaslı şəkildə bu adamların əməllərində cinayət tərkibi olduğunu araşdırır. Azərbaycanın prokurorluq orqanları isə Koçaryan, Sarkisyan və Ohanyana qarşı çoxdan cinayət işi qaldırıb. Onlar da mütləq Azərbaycan Femidası qarşısında cavab verəcəklər. Bəlkə də bu gün buna inanmırlar, amma vaxt gələcək bu da baş tutacaq. Bəli, inanmadıqları çox şeylərin şahidi olanlar bunun da reallaşacağına şübhə etməsinlər. “Eks”lərin, separatçıların başladığı oyunun son tamaşasının məhz Bakıda məhkəmə salonunda oynanılacağına qəti şübhə etmirəm.

# Enerji əməkdaşlığından innovativ strateji tərəfdaşlığa doğru

## *Böyük Britaniya Qərb məkanında Azərbaycanın neytral və praqmatik müttəfiqidir*

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət nümayəndəsi lord Con Alderdeyslə Londonda keçirdiyi görüş iki ölkə arasında uzunmüddətli strateji tərəfdaşlığın növbəti ideoloji və iqtisadi dərinləşmə mərhələsi kimi qiymətləndirilə bilər.**




Azərbaycan–Böyük Britaniya münasibətlərinin tarixi inkişaf trayektoriyası, əslində, müasir beynəlxalq münasibətlər sistemində enerji amilinin siyasi alətə çevrilməsinin regional nümunəsidir. 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini yenidən bərpa etməsi ilə yaranan geosiyasi boşluqda Qərb dövlətləri, xüsusilə də Böyük Britaniya Xəzər hövzəsində enerji resurslarının istismarını iqtisadi maraq və regionda siyasi sabitliyin təminat mexanizmi kimi qiymətləndirirdilər. Məhz bu kontekstdə 1992-ci ildə Bakıda Böyük Britaniya səfirliyinin açılması strateji niyyətin ifadəsi idi – London regionda uzunmüddətli mövcudluq planını enerji platforması üzərində qurmağa qərar vermişdi.

BP şirkətinin Azərbaycanda fəaliyyətə başlaması və 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” bu niyyətin reallaşmış forması oldu. Müqavilə, faktiki olaraq, Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasının başlanğıcı, eyni zamanda, onun suverenlik modelinin iqtisadi dayağının formalaşması idi. BP-nin rəhbərlik etdiyi konsorsiumun fəaliyyəti ölkə üçün xarici sərmayə axınını təmin etməklə yanaşı, Qərb kapitalı ilə siyasi etimadın qarşılıqlı əlaqəsini də yaratdı. Enerji sahəsində qurulan bu əməkdaşlıq Londonun regiondakı nüfuzunun artmasına, Bakının isə Qərb siyasi-iqtisadi sisteminə daxil olmasına gətirib çıxardı.

Bu dövrdə formalaşan əməkdaşlıq tədricən ticarət münasibətlərindən daha dərin, strateji xarakter daşıyan tərəfdaşlığa çevrildi. Azərbaycan üçün Böyük Britaniya Qərbə inteqrasiyanın rəmzi idi. Çünki London heç vaxt regionda sərt siyasi şərtlər irəli sürmədən, iqtisadi əməkdaşlıq və qarşılıqlı fayda prinsipləri üzərində əlaqələr qururdu. Britaniya üçün isə Azərbaycan postsovet məkanında sabit, praqmatik və uzunmüddətli maraqlara cavab verən tərəfdaş idi.

“Əsrin müqaviləsi”nin imzalanması ilə yaranan yeni enerji xəritəsi Azərbaycanın regional statusunu dəyişdirdi. Bakı artıq Avropa enerji təhlükəsizliyinin ayrılmaz bir hissəsinə çevrilmişdi. Məhz bu kontekstdə “Cənub Qaz Dəhlizi” kimi layihələr London və Bakını ortaq strateji məqsədlər ətrafında birləşdirdi. Britaniya enerji şirkətləri Azərbaycanın resurslarının Avropa bazarına çıxışını təmin etməklə yanaşı, ölkəni regional enerji nəqliyyat qovşağına çevirmək prosesində mühüm rol oynadılar.

***

Böyük Britaniyanın 2020-ci ildə Avropa İttifaqından (Aİ) çıxması (Brexit) Londonun xarici siyasət fəlsəfəsində yeni bir mərhələnin başlanğıcını formalaşdırdı. “Qlobal Britaniya” konsepsiyası Britaniyanın qlobal miqyasda öz təsir dairəsini bərpa etmək, Avropa strukturlarından kənarda yeni iqtisadi və siyasi tərəfdaşlıqlar qurmaq niyyətinin ideoloji çərçivəsi oldu. Belə bir transformasiya kontekstində Cənubi Qafqaz, xüsusilə də Azərbaycan Londonun yeni geosiyasi xəritəsində diqqət mərkəzinə yüksəldi.

“Brexit” sonrası mərhələdə Böyük Britaniya üçün Azərbaycan Avropa ilə Asiya arasında əlaqələndirici tranzit məkan, sabitlik adası və yeni iqtisadi texnologiyaların tətbiq sahəsi kimi ön plana çıxdı. London regional balansın pozulduğu, Rusiya və İran təsirinin artdığı bir geosiyasi mühitdə Bakını praqmatik və etibarlı tərəfdaş kimi qəbul etdi. Azərbaycan Cənubi Qafqazda Qərb yönümlü, eyni zamanda, milli maraqlara əsaslanan müstəqil siyasət yürüdən yeganə aktor idi. Böyük Britaniya üçün Bakı ilə əlaqələrin dərinləşməsi Avropanın enerji təhlükəsizliyi məsələsində də xüsusi əhəmiyyət kəsb edirdi. “Cənub Qaz Dəhlizi” layihəsinin tam miqyaslı reallaşması və Azərbaycanın qazının Avropaya çatdırılması prosesi Britaniyanın post-Brexit dövründə kontinental enerji siyasətində dolayı təsir imkanlarını qorumağa şərait yaratdı.

Azərbaycan tərəfi bu yeni mərhələdə Böyük Britaniya ilə kompleks strateji kontekstdə yanaşmağa başladı. Hikmət Hacıyevin Londonda lord Con Alderdeyslə görüşü bu yanaşmanın siyasi təzahürüdür. Görüşdə “süni intellekt”, “rəqəmsal transformasiya” və “əlaqəlilik” kimi istiqamətlərin müzakirəsi onu göstərir ki, iki ölkə əməkdaşlığı artıq enerji sərhədlərini aşaraq bilik iqtisadiyyatı və texnoloji diplomatiya səviyyəsinə yüksəlir. London üçün Azərbaycan həm də Mərkəzi Asiya istiqamətinə çıxış nöqtəsidir. Xəzər dənizi üzərindən keçən ticarət və nəqliyyat marşrutları, Zəngəzur dəhlizinin (TRIPP) perspektivləri və Trans-Xəzər Orta Dəhliz layihəsi Britaniyanın Avrasiyada iqtisadi iştirakını artırmaq baxımından strateji imkanlar yaradır. “Brexit” sonrası mərhələ həm də siyasi baxımdan daha açıq dialoqa imkan yaradıb. London Aİ-nin normativ məhdudiyyətlərindən azad olaraq, ikitərəfli əsasda daha çevik və qarşılıqlı faydalı razılaşmalar həyata keçirməyə qadirdir.

Azərbaycan üçün bu prosesin siyasi mənası daha genişdir. Böyük Britaniya ilə əməkdaşlıq Qərblə əlaqələrdə yeni tarazlıq yaradır, eyni zamanda, Azərbaycanın çoxvektorlu diplomatiya kursunu möhkəmləndirir. Bakı Londona beynəlxalq arenada praqmatik dəstək mənbəyi kimi baxır. Bu əlaqələrdə rasional maraqlar üstünlük təşkil edir – məhz bu da onları uzunmüddətli və dayanıqlı edir.

***

Azərbaycan üçün Böyük Britaniya Qərb məkanında neytral və praqmatik tərəfdaş kimi xüsusi yer tutur. London nə Brüsselin normativ yanaşmalarını, nə də Vaşinqtonun təzyiq ritorikasını təkrarlayır; onun xarici siyasət fəlsəfəsi qarşılıqlı iqtisadi maraqlara, təhlükəsizlik və texnoloji əməkdaşlığa əsaslanan çevik diplomatiya üzərində qurulub. Azərbaycanın Qərblə münasibətlərində yaranan yeni mərhələdə Londonun mövqeyi tarazlaşdırıcı amil rolunu oynayır – nə siyasi müdaxilə, nə də ideoloji şərtlər, sadəcə qarşılıqlı faydaya əsaslanan real siyasət.

Praqmatik yanaşma Azərbaycanın son illər xarici siyasət kursunda müşahidə olunan əsas tendensiyalarla tam uzlaşır. Bakı regional sabitliyin təminatçısı, kommunikasiya və logistik mərkəz rolunda çıxış edir. Böyük Britaniya bu reallığı qəbul edərək, Azərbaycanı Cənubi Qafqazda mühüm geosiyasi oyunçu kimi dəstəkləyir. Londonun region siyasəti Vaşinqtonun və Brüsselin yanaşmasından fərqli olaraq, daha az normativ, daha çox praqmatikdir. Məhz bu, Azərbaycan üçün diplomatik manevr imkanlarını genişləndirir və balanslı siyasət aparmağa şərait yaradır.

Hazırda Vaşinqtonla və Aİ ilə münasibətlərin genişləndiyi bir mərhələdə Bakı bu iki istiqaməti bir-birinə qarşı qoymadan, əksinə, bir-birini tamamlayan platformalar kimi formalaşdırmağa çalışır. 8 avqust tarixində Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasında ABŞ-ın vasitəçilik rolu bu əməkdaşlığın praktiki təzahürünə çevrildi. Vaşinqtonun bu prosesdə fəal iştirakı regionda dayanıqlı sabitliyin və postmünaqişə nizamlanmasının təmininə yönəlmiş yeni diplomatik mexanizmin formalaşdığını göstərir. Eyni zamanda, Aİ ilə “yaşıl keçid” və enerji şaxələndirməsi istiqamətində dialoqun intensivləşməsi Azərbaycanın Qərb institutları ilə münasibətlərini qarşılıqlı fayda və strateji tarazlıq prinsipləri üzərində qurduğunu nümayiş etdirir.

Londonun Cənubi Qafqaz siyasətində Azərbaycana verdiyi önəm həm də qlobal enerji, nəqliyyat və təhlükəsizlik sistemlərində yeni reallıqlarla bağlıdır. Böyük Britaniya Rusiya-Ukrayna müharibəsindən sonra enerji bazarlarında yaranan qeyri-müəyyənlik fonunda Azərbaycanı alternativ enerji mənbəyi və tranzit tərəfdaş kimi görür. Siyasi baxımdan Londonun Bakı ilə yaxınlığı həm də regionda balans siyasətinin qorunmasına xidmət edir. Böyük Britaniya Cənubi Qafqazda qarşıdurma deyil, iqtisadi qarşılıqlı asılılıq və dialoq modeli üzərində sabitlik formulu təklif edir. Azərbaycanın müstəqil diplomatik manevr qabiliyyəti, hərbi-siyasi müstəqilliyi və regional təsir imkanları fonunda bu model qarşılıqlı güvən əsasında daha da dərinləşir.

Nəticə etibarilə, Azərbaycan–Böyük Britaniya münasibətləri regionda sabitlik arxitekturasının qorunmasına, həm də Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə xidmət edir. London–Bakı xətti indi strateji əməkdaşlığın yeni – bilik, texnologiya və qarşılıqlı etimad əsasında formalaşan mərhələsinə qədəm qoyur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Vaşinqtonun Orta Dəhliz və TRIPP strategiyası

(əvvəli 1-ci səhifədə)

Ölkələrin qarşıya qoyduğu məqsədlər arasında Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə bağlı da məsələlər var. Tərəflər təchizat zəncirinin əlaqəliliyini və dayanıqlılığını gücləndirmək məqsədilə Orta Dəhlizin potensialını tam şəkildə inkişaf etdirmək və onu TRIPP-lə birləşdirməklə yüklərin, məlumatların və enerjinin "C5+1" ölkələri və dünya üçün təhlükəsiz hərəkətini təmin etmək, gömrük rejimlərinin uyğunlaşdırılması və şəffaflığının artırılması istiqamətində səyləri davam etdirmək, "C5+1" ölkələri arasında kommersiya və mədəni əlaqələri gücləndirmək üçün aviasiya əlaqəsini genişləndirmək və texnologiya, hasilat və sürətlə inkişaf edən digər sahələrdə təlimləri asanlaşdıran təhsil mübadilələri vasitəsilə kommersiya əlaqələrini möhkəmləndirmək və əmək bazarının peşəkarlığını dəstəkləmək barədə razılığa gəlib.

Qeyd edək ki, "C5+1" platforması 2015-ci ildə ABŞ, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan arasında münasibətlərin yaxşılaşdırılması məqsədilə yaradılan platformadır. Format həmin il xarici işlər nazirləri səviyyəsində başlayıb. 2023-cü il sentyabrın 20-də isə dövlət başçıları səviyyəsinə qaldırılıb. Noyabrın 6-da ABŞ Prezidenti Donald Tramp 5 Mərkəzi Asiya ölkəsinin liderini Ağ Evdə qəbul edib. ABŞ dövlət başçısının Ağ Evdəki iqamətgahında təşkil olunan təntənəli şam yeməyinə Qazaxıstan Prezidenti Kasım–Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rahmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qatılıb.

***

Ekspertlər Vaşinqtonda keçirilən "C5+1" sammitini ABŞ-ın bu strateji əhəmiyyətli bölgəyə artan marağının parlaq nümunəsi kimi qiymətləndirirlər. Rusiya ilə Ukrayna arasında davam edən silahlı münaqişə, eləcə də Moskva və Pekinin Mərkəzi Asiyanın zəngin təbii sərvətlərinin istehsalında fəal şəkildə iştirakı fonunda Trampın region liderləri ilə görüşü beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. 2023-cü ildə ilk sammitdən sonra ikinci ABŞ–Mərkəzi Asiya sammitinə ev sahibliyi edən Tramp, nahar nitqində keçmiş prezident Co Baydenin regiona yanaşmasını tənqid edərək, onu həddindən artıq laqeydlikdə günahlandırıb. Amerika lideri administrasiyasının Mərkəzi Asiyaya layiq olduğu diqqət və prioriteti verdiyini vurğulayıb.

Vaşinqtonda "C5+1" formatının 10 illiyi münasibətilə qəbul edilən birgə bəyanat və Ağ Evdə keçirilən sammit ABŞ-ın Mərkəzi Asiya siyasətində yeni dönəmin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu görüş təkcə diplomatik simvolizm daşımır, həm də regionun geoiqtisadi mənzərəsində yeni güc balansının formalaşdığını göstərir. ABŞ Prezidenti Donald Trampın Mərkəzi Asiya liderləri görüşü və TRIPP layihəsini önə çəkməsi Vaşinqtonun regionda uzunmüddətli maraqlarını yenidən bərpa etdiyinin göstəricisidir.

Məlumdur ki, son 10 ildə Mərkəzi Asiya regionu Çin və Rusiya arasında mühüm iqtisadi və nəqliyyat kəsişməsinə çevrilib. "Bir kəmər, bir yol" təşəbbüsü və Avrasiya İqtisadi İttifaqı çərçivəsində Pekin və Moskva bölgədə mühüm infrastruktur üstünlüyü qazanıblar. ABŞ isə bu müddət ərzində regionda daha çox təhlükəsizlik və insan hüquqları məsələləri ilə yadda qalıb, iqtisadi layihələrdə aktivlik nümayiş etdirməyib. Tramp administrasiyasının yeni yanaşması isə bu boşluğu doldurmaq və Mərkəzi Asiya ilə iqtisadi-siyasi əlaqələri real layihələr əsasında dərinləşdirmək məqsədi daşıyır.

Sammitdə vurğulanan əsas ideya – Orta Dəhlizin potensialının TRIPP marşrutu ilə birləşdirilməsi – ABŞ-ın qlobal logistika sistemində Avrasiya üzərindən keçən ticarət xətlərinə birbaşa inteqrasiya niyyətindən xəbər verir. Bu, həm də Avropa–Asiya nəqliyyat əlaqələrinin daha təhlükəsiz və diversifikasiya olunmuş şəkildə təşkili baxımından əhəmiyyətlidir. TRIPP marşrutu yalnız nəqliyyat deyil, həm də enerji, rəqəmsal məlumat axını və texnoloji əməkdaşlıq kimi sahələri əhatə edir. Bu, Mərkəzi Asiya ölkələrinin enerji resurslarını Qərb bazarlarına çıxarmaq üçün yeni imkanlar yarada bilər.



Əlavə olaraq bəyanatda təchizat zəncirlərinin təhlükəsizliyinin və gömrük prosedurlarının şəffaflığının artırılmasına yönəlik bəndlər diqqət çəkir. Bu, ABŞ-ın son illərdə xüsusilə Çin iqtisadi modelinə qarşı formalaşdırdığı etibarlı tərəfdaşlıq konsepsiyasının regional tətbiqi kimi dəyərləndirilə bilər. Vaşinqton region dövlətlərini təkcə geosiyasi tərəfdaş deyil, həm də yüksək texnologiyalar və istehsal zəncirlərinin yeni qovşağı kimi görür.

Trampın sammitdə Bayden administrasiyasını regiona laqeydlikdə ittiham etməsi siyasi jest olmaqla yanaşı, həm də ABŞ daxilində Mərkəzi Asiya siyasətinə dair prioritet fərqini göstərir. Əgər Bayden dövründə Mərkəzi Asiya daha çox insan hüquqları və demokratik islahatlar kontekstində nəzərdən keçirilirdisə, Tramp bu bölgəyə iqtisadiyyat və təhlükəsizlik prizmalarından baxır. Bu yanaşma real layihələr, investisiya mexanizmləri və infrastruktur təşəbbüsləri vasitəsilə Vaşinqtonun təsir imkanlarını artırmaq məqsədi güdür. "C5+1" formatının əvvəlki illərdə daha çox diplomatik səviyyədə qaldığı halda, hazırda onun iqtisadi və logistik xarakter daşıması regional dinamikanın dəyişdiyini göstərir. ABŞ-ın təşəbbüsü ilə Orta Dəhlizin inkişafına yeni texnoloji və maliyyə dəstəyinin ayrılması, eləcə də təhsil mübadilələrinin genişləndirilməsi bu əməkdaşlığı uzunmüddətli və sistemli bir prosesə çevirə bilər. Ən önəmlisi isə Vaşinqtonun regionda balanslaşdırıcı rol oynamaqla Rusiya və Çinin təsirini məhdudlaşdırmaq istəyi açıq görünür.

Tramp administrasiyasının Beynəlxalq Sülh və Rifah Marşrutu vasitəsilə qurmaq istədiyi yeni iqtisadi əlaqələr sistemi həm regional sabitliyin qorunması, həm də Avrasiya üzərindən keçən qlobal ticarət yollarının təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, Vaşinqtonun Mərkəzi Asiyaya bu səviyyədə diqqət ayırması artıq təkcə siyasi jest deyil, qlobal iqtisadi strategiyanın vacib tərkib hissəsidir.

Azərbaycan da "C5+1" formatı çərçivəsində formalaşan yeni regional əməkdaşlıq xəritəsinin təbii və strateji tərəfdaşı kimi ön plana çıxır. TRIPP layihəsinin Orta Dəhlizlə birləşdirilməsi ideyası məhz Bakı–Tbilisi–Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi infrastruktur zəncirlərinə söykənir. Bu marşrutun uğuru Azərbaycanın coğrafi mövqeyi və nəqliyyat imkanları ilə sıx bağlıdır. ABŞ və Mərkəzi Asiya ölkələrinin tranzit, enerji və texnoloji əlaqələri üzrə planlaşdırdığı əməkdaşlıq, əslində, Azərbaycanın təşəbbüsü ilə illərdir formalaşan logistika sisteminə yeni beynəlxalq impuls verir. Bakı bu mənada TRIPP və Orta Dəhliz inteqrasiyasının real qovşağına çevrilə bilər. Azərbaycanın balanslı xarici siyasəti, regiondakı etibarlı tərəfdaş imici və sülh gündəmi bu böyük iqtisadi layihələrin reallaşması üçün sabitlik təminatıdır. ABŞ-ın və Mərkəzi Asiyanın planlaşdırdığı hər yeni nəqliyyat marşrutu, əslində, Azərbaycanın yaratdığı körpülər üzərindən keçəcək.

***Səxavət HƏMİD***
***XQ***

# Nikol Paşinyan illər əvvəl hansı "ölümü seçmişdi"?

## *Yaxud Ceyhun Bayramovun dediklərinin izi ilə...*

**"Siz istəyirsiniz ki, məni öldürsünlər?". Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İTV-də yayımlanan "Təmas xətti" verilişində belə bir ritorik sualı vaxtilə Ermənistanın baş naziri Nikol Paşinyanın Prezident İlham Əliyevə ünvanladığını bildirib.**

C.Bayramov onu da deyib ki, sualın səsləndiyi görüş Azərbaycan və Ermənistan liderlərinin ilk təmasından, təxminən, 6 ay sonra ATƏT-in keçmişdə qalmış Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə gerçəkləşmişdi. Halbuki, 6 ay əvvəl, yəni 2018-ci ilin sentyabrında Düşənbədə Paşinyan başqa söz demişdi. O, Prezident İlham Əliyevdən, bir növ, möhlət istəmişdi. C.Bayramov vurğulayıb ki, Nikol həmin vaxt hakimiyyətə yeni gəldiyini, onun üçün çətinlik yarandığını, bəlli bir vaxt lazım olduğunu, münaqişənin həlli üçün lazımi addımları atacağını söyləmişdi. Bütün bunlardan isə bir neçə nəticə hasil olunur. Amma onlara keçməzdən əvvəl bəzi məqamlara nəzər salaq.

*

Məlum olduğu kimi, N.Paşinyanın ictimai-siyasi fəaliyyətinin müəyyən hissəsi jurnalistika ilə bağlıdır. Xüsusən 1990-2000-ci illər. O, "Oragir", daha sonra isə "Haykakan Zhamanak" qəzetinin baş redaktoru olmuşdu. Nikolun həmin dönəmdə Qarabağla bağlı bildirdiklərində başlıca xətt bu idi ki, Ermənistan rəhbərləri, xüsusən Robert Koçaryan və Serj Sarkisyan Qarabağ məsələsindən daxili siyasi məqsədlər naminə yararlanırlar. Münaqişə hər iki dövlət başçısı üçün ölkənin sosial-iqtisadi böhranını ört-basdır edən amildir.

Bununla belə, Paşinyan "Artsax xalqının öz müqəddəratını təyinetmə haqqı" prinsipini dəstəklədiyini dilə gətirirdi. "Qarabağ məsələsi Ermənistanın əsas bəhanəsinə çevrilib. Amma Qarabağ xalqının azad yaşamaq haqqı danılmazdır", - deyən N.Paşinyan müxalifət lideri kimi aktiv siyasətə qoşulduğu vaxtlarda da Qarabağ probleminə dair mövqeyini bir elə dəyişmədi. Məsələn, Nikol bildirdi ki, Qarabağ Ermənistanın tərkib hissəsi olmasa da, ölkənin təhlükəsizliyi baxımından vacibdir.

Beləliklə, Paşinyan beynəlxalq hüquqla "Artsax xalqı" ritorikası arasında balanslı xətt tutdu. Ən başlıcası isə o, 2015-ci ildə deputat kimi parlamentdə çıxış edərkən bildirdi ki, Ermənistan Qarabağın (orada mövcud olmuş, əslində, separatçı mahiyyət daşıyan hakimiyyəti nəzərdə tutaraq – red.) adından danışa bilməz, münaqişə "Artsax xalqı" ilə Azərbaycan arasında müzakirə olunmalıdır.



Əlbəttə, Paşinyan hakimiyyətə gəlməzdən əvvəl hərbi ritorikanın əleyhinə idi. Məsələn, o, 2016-cı ilin Aprel müharibəsindən sonra bildirmişdi ki, "müharibə heç kimin xeyrinə deyil. Biz gənclərimizi itiririk, amma sülh üçün real yol açmırıq". Nikol, həmçinin sülhün kapitulyasiya olmadığını da vurğulamış, kompromisin mümkünlüyü ideyasını ortaya atmışdı.

Bir sözlə, Paşinyan 2018-ci ilin "məxməri inqilabından" əvvəl Qarabağ məsələsində qəti bir güzəşt təklifi irəli sürmürdüsə də, "sülhə hazırlıq" və xalqla açıq dialoq zərurətindən söz açırdı: "Əgər biz Qarabağ problemini gələcək nəsillərə ötürmək istəmiriksə, sülhə hazırlıq indi başlamalıdır".

Bir məqama da diqqət yetirək. N.Paşinyan 2022-ci ildəki, yəni 44 günlük müharibədən sonrakı çıxışlarının birində demişdi ki, 2018–2019-cu illərdə Ermənistanın bütün dostlarının ölkənin Qarabağın ətrafındakı yeddi rayonu qaytarmasını və Qarabağın statusu ilə bağlı mövqeyini yumşaltmasını gözlədiklərini ictimaiyyətə deməmiş olsa da, bunu anlamışdı. Başqa sözlə, Paşinyan ölkəsinin problemini anlamaqla bərabər, onu ictimaiyyətin önündə etiraf etməyə cəsarət etmədi. Elə isə əvvəldə haqqında söz açacağımızı vurğuladığımız nəticələrə keçid alaq. Daha doğrusu, bilavasitə Paşinyanın Prezident İlham Əliyevə ünvanladığı ritorik sualdan qaynaqlanmış məqamlara.

*

Heç şübhəsiz, N.Paşinyan hakimiyyətə gələndə Qarabağ məsələsində bıçağın sümüyə dirəndiyindən, Azərbaycanın səbrinin tükəndiyindən xəbərdar idi. Hələ bəzi versiyalar var ki, Prezident S.Sarkisyan güzəştlərin qaçılmazlığını görmüş, ona görə sərt mövqe tutmayaraq, hakimiyyətin Paşinyana keçməsi ilə razılaşmışdı. Bir növ, Nikolu "günah keçisi" kimi ortaya atmışdı. Bu iddianı irəli sürənlər Sarkisyanın "Qarabağ kartı" ilə düzgün davranmayacaq Paşinyanı sonradan devirmək niyyətinin olduğunu da vurğulayırlar.

Əlbəttə, bu cür versiyalarla çıxış edənlərin mövqeyini birmənalı şəkildə doğru saymaq mümkünsüzdür. Amma bir məqam var ki, müasir Ermənistan "Qarabağ kartı" üzərində qərarlaşmış ölkədir. Otuz ilə yaxın müddətdə də məhz Qarabağ amili Ermənistanın siyasi-ideoloji xəttinin əsasını təşkil etmişdi. Elə indinin özündə də ölkənin tam şəkildə Qarabağ avantürasından xilas olduğunu söyləmək mümkünsüzdür. Bu mənada Paşinyanın Prezident İlham Əliyevə 2019-cu ildə dediyi, C.Bayramovun isə verilişdə xatırladığı məqamı doğru saymaq mümkündür.

Məsələ ondadır ki, "demokratiyanın qladiatoru" kimi hakimiyyətə gəlmiş Paşinyan gördü ki, Qarabağ məsələsi Ermənistan siyasi həyatına hopub. Təsəvvür edin, "qladiator" birdən-birə deyir ki, ölkəsi işğalçıdır və tutduğu əraziləri geri qaytarmalıdır. Nəzərə alaq ki, hakimiyyətə gəlməzdən əvvəl Qarabağ məsələsi ilə bağlı, yuxarıda vurğuladığımız kimi, müəyyən güzəşt ritorikasından söz açan Nikolun mövcud istiqamətdə konkret baxış platforması yox idi. Onu hakimiyyətə gətirən amil də güzəştlərə hazırlığı yox, erməni xalqının Sarkisyanın timsalında xunta rejiminə nifrəti idi. Paşinyan həmin nifrəti siyasi dividendə çevirərək üstünlük əldə etmişdi. Deməli, onun Prezident İlham Əliyevə ünvanladığı ritorik sualında məntiq var idi. Çünki güzəşt ölümə bərabər şey idi. Amma hansı ölümə?

Suala cavab üçün ikinci nəticəyə keçid alaq və Paşinyanın ritorikasının başqa bir tərəfi üzərində dayanaq. Məsələ ondadır ki, 2018-ci ildə Ermənistanda baş vermiş "məxməri inqilab" ciddi sistem dəyişikliyi doğurmadı. Nikol başının dəstəsi ilə əvvəl Koçaryanın, sonra Sarkisyanın oturduğu kabinetin yumşaq kreslosunda oturdu. O kabinetdə ki, loru dildə desək, ondan ayağını bayıra qoyanda ətrafda Koçaryan-Sarkisyan xuntasının yetişdirdiyi şəxslər çoxluq təşkil etdiklərini gördü. Hakimiyyətdəki vacib rıçaqlar da onların əllərində cəmləşmişdi. Bələdərinin hara bağlı olduqları isə hər kəsə yaxşı bəllidir...

Mövcud durumda "demokratiyanın qladiatoru" Qarabağ məsələsində "yenilik" etmək qərarına gəldi. Nəticədə meydana "Qarabağ Ermənistandır nöqtə" bəyanatı çıxdı. Bu bəyanat nə Ermənistanın həmin vaxtadək aparılmış Qarabağ danışıqlarındakı mövqeyi, nə də Paşinyanın hakimiyyətə gəlməzdən əvvəlki Qarabağ düşüncəsi ilə uzlaşırdı. Bu yerdə Ermənistanda Qarabağ məsələsində güzəşt tərəfdarlarının nə zaman olduğuna diqqət yetirək.

*

Deməli, 1993-cü ildə Qarabağ müharibəsində uğur qazanmış ölkəyə birinci prezident Levon Ter-Petrosyan rəhbərlik etmişdi. O Levon Ter-Petrosyan ki, 2022-ci ildə Paşinyanın yuxarıda diqqətə çatdırdığımız fikrinə bənzər fikri 1996-cı ildə dilə gətirmiş və demişdi ki, beynəlxalq ictimaiyyət Ermənistanı dəstəkləmir, ondan güzəşt gözləyir. Birinci prezident onu da demişdi ki, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması Ermənistanın gələcəyi baxımından vacibdir.

Lakin tədbirli siyasətçi olan L.Ter–Petrosyan sözün hər iki anlamındakı ölümdən qorxdu və istefa vermək məcburiyyətində qaldı. Onun gedişindən sonra müasir Ermənistan dövlətini var edən ideyanın – bilavasitə Qarabağ avantürasının daşıyıcıları hakimiyyətə yiyələndilər. Söhbət Robert Koçaryanın iqtidarı ələ keçirməsindən gedir. Bu, 1998-ci ildə baş vermişdi.

Lakin həmin vaxt Ermənistandakı siyasi quruluş elə idi ki, "Qarabağ klanı" tam şəkildə söz sahibi deyildi. Azərbaycanla danışıqlarda güzəşt tərəfdarları iqtidarda qalırdılar. Məsələn, Ermənistan parlamentinin spikeri Karen Dəmirçyan və ölkənin baş naziri Vazgen Sarkisyan. Özü də bu şəxslərin cəmiyyətdəki mövqeləri xeyli güclü idi.

"Güclülər" 1999-cu ildə sıradan çıxarıldılar. Həmin ilin oktyabrında Ermənistan parlamentində silahlı terror aktı törədildi. Dəmirçyan və Sarkisyan da daxil olmaqla ümumilikdə 8 yüksək ranqlı şəxs qətlə yetirildi. Beləliklə, Qarabağ danışıqlarındakı müsbət dinamika pozuldu, həmçinin "Qarabağ klanı"nın 2018-ci ilədək davam etmiş mütləq hakimiyyət dövrü başlandı. Klanın isə həmin müddətdə aparılmış Qarabağ danışıqlarında tam manipulyativ mövqe tutduğu hər kəsə yaxşı bəllidir.

*

Sonda yekun nəticəyə gələrək deyək ki, "demokratiyanın qladiatoru" Paşinyanın Prezident İlham Əliyevə 2019-cu ildə verdiyi ritorik sual, əslində, onun siyasi ölümlə fiziki ölüm arasında birincinin xeyrinə seçiminin göstəricisi idi. Dövlətimizin başçısının erməni həmkarına nə dediyinə gəlincə, C.Bayramov: "Prezidentin də buna cavabı belə olur ki, mən, ümumiyyətlə, heç kimin öldürülməsini istəmirəm, ancaq bu heç bir mənada Azərbaycan torpaqlarının işğal altında qalması anlamına gələ bilməz".

Yəni, Prezident İlham Əliyevin mesajı, təxminən, budur: Sən hər bir halda ölüsən. Nikol "Qarabağ Ermənistandır nöqtə" bəyanatını verəndə siyasi ölümünü bir qədər də dərinləşdirdi. 2018-ci ildən indiyədək Paşinyanı fiziki cəhətdən məhv etmək planları getdikcə daha çox iflasa uğramaqdadır. Üstəlik, onu dervirərək siyasi səhnədən uzaqlaşdırmaq yönümlü cəhdlər də səmərəsiz və nəticəsizdir. Yekunda qərarlaşan isə haqq-ədalət və sülhdür. O haqq-ədalət və sülh ki, onu Azərbaycan öz gücü, qətiyyəti və iradəsi hesabına əldə edib.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Gürcüstan – Qərb qarşıdurması səngimir

## *Fransanın Tbilisidəki yeni səfiri özünü emissar kimi aparır*

**Gürcüstanın Qərblə münasibətləri yenidən gərginləşib. Gürcüstan parlamentinin vitse-spikeri Nino Tsilosani bildirib ki, Fransanın Gürcüstandakı yeni səfiri Olivye Kurto "antigürcü və antikonstitusiya fəaliyyətində adı hallanan" qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə gizli görüşlər keçirib: "Bu, müəyyən suallar doğurur və belə təmaslar diplomatın reputasiyasına kölgə sala bilər".**



"Rustavi 2" telekanalının məlumatına görə, Fransanın səfiri təxminən 15 QHT-nin, o cümlədən Gənc Hüquqşünaslar Assosiasiyası və Strateji Analiz Mərkəzinin nümayəndələri ilə qapalı görüş keçirib. Görüş səfirlikdə deyil, paytaxtın Çanturiya küçəsindəki mənzillərdən birində baş tutub. Görüşün təfərrüatları açıqlanmayıb.



Hakimiyyət tərəfindən sərt reaksiya ilə qarşılanan görüşlə bağlı Tsilosani bildirib ki, belə təşkilatlarla gizli əlaqələr diplomata fayda gətirə bilməz: "Düşünürəm ki, o, sonradan bunu özü izah edəcək. Bizim üçün də maraqlıdır ki, nə üçün səfir antigürcü və antikonstitusiya proseslərində adları hallanan təşkilatların nümayəndələri ilə mənzildə gizli görüş keçirib".

Hakim "Gürcü arzusu" partiyasından deputat Levan Maçavariani əlavə edib ki, görüşün səfirlikdə deyil, mənzildə keçirilməsi suallar doğurur və yaxşı təəssürat yaratmır: "Bu, müəyyən şübhələrə səbəb olur. Lakin səfirin Gürcüstana yeni gəldiyini nəzərə alaraq, ümid edirəm ki, o, fəaliyyətində Vyana konvensiyasının çərçivəsindən kənara çıxmayacaq".

Deputat bildirib ki, ictimaiyyət səfirdən və Fransa səfirliyindən izahat gözləyir. Yada salaq ki, səfir Olivye Kurto 2025-ci ilin avqust ayında bu posta təyin olunub və 2023-cü ildən bu vəzifədə çalışan Şeraz Qasrini əvəz edib. Rəsmi Parisin diplomat dəyişməsi Qərbin Gürcüstan hakimiyyətini demokratik standartlardan uzaqlaşmaqda tənqid etdiyi bir vaxtda baş verib. Vəzifəsini tərk etməzdən əvvəl Şeraz Qasri Gürcüstan hakimiyyətini "repressiyaları dayandırmağa" və "ədalətsiz həbs olunanları azad etməyə" çağırmışdı.

Fransa səfirliyinin keçmiş rəhbəri, həmçinin müxalifəti aktiv şəkildə dəstəkləyirdi. Qasri bildirirdi ki, Qərbin Gürcüstan büdcəsi üçün nəzərdə tutulan vəsaitləri QHT-lərə və KİV-lərə yönəldiləcək. Bundan sonra, "Gürcü arzusu" partiyası Fransa səfirliyini "radikal təşkilatları maliyyələşdirməkdə" ittiham etmişdi. Qasri isə cavabında deyirdi ki, Parisin qərarı Avropa Şurasının nəticələri ilə bağlıdır. Bu nəticələrə əsasən, Gürcüstanın Avropa İttifaqına (Aİ) inteqrasiyası prosesi dayandırılıb. Onu da qeyd edək ki, həmin vaxt Aİ "LGBT təbliğatını" qadağan edən qanunun qəbuluna cavab olaraq Tbilisi ilə münasibətlərini yenidən nəzərdən keçirərək, "Gürcü arzusu" ilə yüksəksəviyyəli görüşlərdən imtina edib və maliyyə yardımlarını, diplomatik və xidməti pasport sahibləri üçün vizasız səyahəti dayandırıb. Eyni zamanda, Avropa Komissiyası Gürcüstan Xarici İşlər Nazirliyinə "xarici agentlər" və "LGBT təbliğatı" haqqında qanunların ləğvini tələb edən məktub göndərib və adi vətəndaşlar üçün də vizasız səyahəti dayandırmaqla hədələyib. Hakimiyyət şərtləri "reallıqdan uzaq" adlandırsa da, vizasız rejimin dayandırılmayacağına əmin idilər. Amma məsələ bu gün yenidən gündəmə gəlib. "Prime Time" nəşrinin məlumatına görə, müxalifət Brüsseldən Gürcüstan üçün viza liberallaşdırmasını dayandırmasını tələb edib. Nəşrin məlumatına görə, radikal müxalifət noyabr ayının sonuna qədər Gürcüstanın sıravi vətəndaşları üşün vizasız səyahəti dayandırmalarını xahiş edib və Brüsseli təkcə hökumət məmurlarına təzyiq göstərməyin nəticə verməyəcəyinə inandırmağa çalışıb.

Ekspertlər hesab edirlər ki, Aİ tərəfindən Gürcüstan üçün vizasız səyahətin ləğvi son dərəcə mənfi addım olardı. Çünki belə bir qərarın qəbulu ölkədə iqtisadi gərginlik yaradardı. Hər il minlərlə Gürcüstan vətəndaşı Aİ-yə üzv ölkələrdə əmək fəaliyyəti ilə məşğul olur. Ölkəyə milyonlarla avro vəsait daxil olur. Bu vəsaitin qarşısının alınması Gürcüstanda gərginliyi artırar, sabitliyi poza bilər.



Qasri bundan əvvəl də "X" sosial şəbəkəsində hakimiyyəti tənqid edərək vurğulamışdı ki, Gürcüstanda yeni seçkilərin keçirilməsi ölkədəki siyasi böhrandan çıxış yolu olardı. Bildirək ki, müxalifət partiyaları 2024-cü il parlament seçkilərinin nəticələrini tanımaqdan imtina ediblər. Onları dəstəkləyən Aİ rəhbərliyi "Gürcü arzusu"nu qələbə münasibətilə təbrik etməyib. Aİ ölkələrindən yalnız Macarıstan və Slovakiya təbrik göndərib.

Göründüyü kimi, müxalifəti dəstəkləyən Qərb hələ də Gürcüstanda yeni parlament seçkilərinin keçirilməsində israrlıdır. Lakin indiki şəraitdə bu, mümkün deyil. Baş nazir İrakli Kobaxidze dəfələrlə bildirib ki, qarşıdakı üç il ərzində Gürcüstanda seçkilər keçirilməyəcək: "Bu gün ölkəmizdə sabitlik var və düşünürəm ki, Gürcüstanda sabit mühiti qoruyub saxlayacağıq. Bu isə ölkənin inkişafının açarıdır".

Gürcüstan hakimiyyəti sabitliyi qorumaqda israrlıdır və bunun üçün sərt tədbirlər görür. Baş Prokurorluq müxalifət liderləri Mixeil Saakaşvili, Giorgi Vaşadze, Nika Qvaramiya, Nika Meliya, Zurab Japaridze, Elene Xoştaria, Mamuka Xazaradze və Badri Japaridze barəsində cinayət işi açıb. Baş prokuror Giorgi Qvarakidze bildirib ki, iş dövlətə qarşı törədilmiş cinayətlərə, xüsusən sabotaja, xarici dövlətə düşmən fəaliyyətində kömək göstərməyə, Gürcüstanın konstitusiya quruluşuna və milli təhlükəsizlik əsaslarına qarşı yönəlmiş fəaliyyətin maliyyələşdirilməsinə aiddir.

Baş nazirin yaxın üç il ərzində seçkilərin keçirilməyəcəyi barədə bəyanatı da göstərir ki, hökumət bunu dövlətin inkişafı və daxili təhlükəsizliyin təminatı kimi qiymətləndirir. Rəsmi Tbilisi hesab edir ki, son hadisələr xarici qüvvələrin Gürcüstanın daxili işlərinə müdaxiləsinin nəticəsidir.

Beləliklə, Qərb dairələrinin müəyyən müxalifət qrupları vasitəsilə siyasi təzyiq göstərməsi Tbilisi ilə Brüssel arasındakı münasibətləri gərginləşdirir. Buna baxmayaraq, Gürcüstan hələ də çevik diplomatiya aparmaq imkanına malikdir. Rəsmi Tbilisinin mövqeyinə görə, ölkənin maraqları nə Rusiyanın, nə də Qərbin tam tərəfində olmaq deyil. Əsas hədəf Gürcüstanın təhlükəsizliyini təmin etmək, suverenliyini qorumaq və müstəqil inkişaf yolunu davam etdirməkdir.

Xatırladaq ki, Gürcüstan Aİ-yə üzvlüyə namizəd ölkədir. Tbilisi bu statusu 2023-cü ilin dekabrında alıb və Brüssel ilə Assosiasiya Sazişi imzalayıb. 2017-ci ildən bəri vətəndaşlar vizasız səyahətdən yararlanıblar. Gürcüstanın inteqrasiya prosesini davam etdirmək üçün ona doqquz əlavə şərt elan edilib. Bunlara qütbləşmənin aradan qaldırılması, deoliqarxizm, azad və rəqabətli seçkilərin təmin edilməsi və digər tədbirlər daxildir.

Sonda onu da qeyd edək ki, Gürcüstan noyabrın 18-də Brüsseldə keçirilməsi planlaşdırılan genişlənmə forumuna dəvət olunmayıb. Bu qərar Avropa Komissiyasının son hesabatının nəticələrini əks etdirir və hesabatda Gürcüstanın getdikcə özünü Aİ-dən uzaqlaşdırdığı qeyd olunur. Parlamentin spikeri Şalva Papuaşvili bildirib ki, "Bu gün Brüssel öz dəyərlərindən uzaqlaşıb ki, bu da gürcü xalqına qarşı eşitdiyimiz qarşıdurma tonunun, hücumların və ritorikanın nəticəsidir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

# "İrəvan öpüşü"nün "Ukrayna sevdası"

## *Rusiya xarici kəşfiyyatının "taxıl məlumatı" nəyə hesablanıb?*

**Görünür, Rusiyanın Xarici Kəşfiyyat İdarəsi Ermənistanla məzələnmək qərarına gəlib. Hər halda, qurumun yaydığı "İrəvan öpüşü" adlı məlumatı belə qiymətləndirmək mümkündür. Məsələ ondadır ki, "öpüş" Avropada da böyük təəccüb doğurub. Deməli, məsələdə başqa mətləblər var...**





Məlumdur ki, Ukrayna mövzusu "köhnə qitə" üçün kifayət qədər, həssas mahiyyətə malikdir. Belə ki, Ukraynaya Rusiya ilə müharibədə yardım göstərənlər sıraya düzülüblər və bu yardım, müəyyən mənada, insanlıq borcu kimi xarakterizə olunur. Amma bir məsələ də var ki, insanlıq borcu ağır yük kimi Avropanın boynundan asılmaqdadır. Qitə ölkələri artıq iqtisadi diskomfort keçirməkdədirlər. İrəvan məhz belə bir durumda Avropaya öz dəstəyini təklif edib. Yaxud...

Beləliklə, Rusiya Xarici Kəşfiyyat İdarəsinin məlumatına görə, Ermənistan "köhnə qitə"dəki dostlarına Rusiyadan taxıl almaqdan imtina qərarını açıqlayıb. Daha doğrusu, Rusiya taxılını Ukrayna taxılına dəyişmək qərarını. Problem ondadır ki, ikincinin taxılı birincinin taxılından bahadır. Ermənistanın isə "bəşəri məqsədlər" naminə xərcləyəcək pulu yoxdur. Ona görə də təklif edir ki, Ukrayna taxılının Rusiya taxılından baha hissəsinin pulunu Avropa ödəsin və nəticədə Ermənistan Ukraynaya "insanlıq dəstəyi trendinə" qoşulmaq şansı qazansın.

Ən gülməli durum budur ki, Avropada Ermənistanın bu təklifini heç də müsbət qarşılamayıblar. Səbəb çox sadədir. Yuxarıda bildirdiyimiz kimi, Rusiya–Ukrayna müharibəsi "köhnə qitə"nin dövlətlərini pis duruma salıb. Onların Ermənistana ödəyəcək pulları yoxdur və görünür, məhz bu səbəbdən Rusiya kəşfiyyatı İrəvanın "xeyirxahlıq" niyyəti barədə məlumat əldə edə bilib. Ehtimal etmək olar ki, Avropa sözügedən məlumatı Rusiyaya qəsdən sızdırıb. Axı məlumatda Fransanın Avropa və Xarici İşlər Nazirliyinin adı çəkilib. Çox güman, xəbər sızdıran da elə bu qurumdur.

Belədə ortaya sual çıxır: Rusiya, belə demək mümkünsə, "alternativ taxıl sövdələşməsi" niyyətinə görə Ermənistanı cəzalandıra bilərmi? Hər halda, Moskvada Rusiya taxılından imtina edib Ukrayna taxılına keçmək qərarını müsbət qarşılamazlar. Məlumdur ki, belə bir niyyət varsa, bu, İrəvanın Kremldən asılılığını aradan qaldırmağa yönəlib. Asılılıq isə hər sahədədir və bu, ikincinin birinciyə qarşı səssiz təsir alətidir. Ona görə səssiz ki, Rusiya heç bir alətindən istifadə etmir, yalnız subliminal şəkildə onlara sahibliyinin mesajını verir. Başqa sözlə desək, Rusiya Ermənistana iqtisadi cəhətdən ciddi təzyiq göstərmək istəsə, bunu asanlıqla edər.

Əlbəttə, demək olmaz ki, İrəvana göstərəcəyi iqtisadi təzyiq Moskvaya sərfəlidir. Sərfəli deyil, əksinə, erməni iqtidarının anti-Rusiya ritorikası güclənəcək və beləliklə, Kremlin Ermənistanda itirilmişlərin bərpasına yönəlmiş arzusu uğursuzluq zolağındakı yerini möhkəmləndirəcək. Ona görə də Rusiya, necə deyərlər, axıradək dözməli, Ermənistanın hər oyunbazlığına tolerant yanaşmalıdır və ölkə ötən müddətdə bunu etməkdədir.

Amma "İrəvan öpüşü" adı ilə ictimaiyyətə açıqlanmış məlumatın başqa tərəfi də ola bilər. Məsələ ondadır ki, Ukraynaya dəstəyi "müqəddəsləşdirmək" yönümlü təbliğat aparan Qərb dünyasının Ermənistandan bu dəstəyə qoşulmasını tələb etməsi, o cümlədən Rusiya taxılından imtina edib Ukraynadan taxıl almasını istəməsi mümkündür. Belə nəticəyə gəlmək olar ki, artıq aşkara çıxmış məsələ Avropanın Ermənistandan tələbinə ikincinin cavabından qaynaqlanır. Cavab isə məlumdur. Loru dildə desək belə: Məndə taxıl almaq üçün əlavə pul yoxdur. Həqiqətən, İrəvan duran yerdə niyə taxıl idxalatçısını dəyişdirmək istəsin ki? İstəyər o şərtlə ki, asılılığı aradan qalxsın...

Deməli, Ermənistanda Ukrayna taxılını almaq üçün Avropa qarşısında şərt qoyur. Əgər durum, həqiqətən, belədirsə, o zaman qitənin "Ukrayna sevdalıları"nın İrəvandan narazı qaldıqlarını düşünmək olar. Görünür, Rusiya xarici kəşfiyyatının məlumat əldə etməsi də bundan qaynaqlanır. Avropalılar, öz aləmlərində, Ermənistanın Rusiya ilə arasını vuracaqlarını zənn edirlər. Əlbəttə, bunu bacarmayacaqlar. Hər halda, indiki durumda heç bacarana oxşamırlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 325** **Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə” 2014-cü il 7 fevral tarixli 40 nömrəli və “Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2016-cı il 14 mart tarixli 124 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 124-VIIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 275 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 195 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün ƏRİZƏ-ANKET”ə aşağıdakı məzmunda 11.6-cı bənd əlavə edilsin:

| |
|---|
| 11.6. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantın mütəxəssis hesab olunduğu sahə üzrə fəaliyyətə başlaması öz iradəsindən asılı olmayan səbəblərdən mümkün olmadıqda<br>(If it is impossible for a highly skilled migrant, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan, to start working in the sphere in which he/she is considered a specialist due to reasons beyond his/her will) |

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – “Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ƏRİZƏ-ANKET”də aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. 10-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

<table>
<tr><td rowspan="3">10-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir)<br>(Period selected for consideration of your current application (failure to obtain the outcome of the application in time does not affect the amount of the state fee to be paid for the selected period)</td><td>15 (on beş) iş günü<br>(15 (fifteen) working days)<br>□</td><td>20 (iyirmi) iş günü<br>(20 (twenty) working days)<br>□</td></tr>
<tr><td colspan="2">Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə<br>(In relation to issuance and extension of temporary residence permits in the territory of the Republic of Azerbaijan to highly skilled migrants, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan, their children under the age of 23 and other family members)</td></tr>
<tr><td>10 (on) iş günü<br>(10 (ten) working days)<br>□□</td><td>15 (on beş) iş günü<br>(15 (fifteen) working days)<br>□</td></tr>
</table>

1.2.2. 11.4-1-ci bəndə “mütəxəssis” sözündən sonra “və ya Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrant” sözləri, dördüncü halda “Azerbaijan Republic” sözlərindən sonra “or a highly skilled migrant, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan” sözləri əlavə edilsin və həmin bənddə “A specialist” sözləri “If he/she is a specialist” sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ƏRİZƏ-ANKET”in 10-1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

<table>
<tr><td>10-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir)</td><td>35 (otuz beş) gün<br>□</td><td>40 (qırx) gün<br>□</td><td>50 (əlli) gün<br>□</td><td>60 (altmış) gün<br>□</td></tr>
<tr><td rowspan="2"></td><td colspan="4">Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə</td></tr>
<tr><td>25<br>(iyirmi beş)<br>gün<br>□</td><td>30<br>(otuz)<br>gün<br>□</td><td>40<br>(qırx)<br>gün<br>□</td><td>50<br>(əlli)<br>gün<br>□</td></tr>
</table>

1.4. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsi (müddətin uzadılması) üçün ƏRİZƏ-ANKET”in 3-1-ci hissəsində “iş icazəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə 2023-cü il yanvarın 1-dən 5 (beş) il müddətinə” sözləri “2023-cü il yanvarın 1-dən 5 (beş) il müddətinə, habelə Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantın ərinə (arvadına) və 23 yaşına çatmamış övladlarına iş icazəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə” sözləri ilə əvəz edilsin və həmin hissəyə “January 1, 2023” sözlərindən sonra “, as well as for a husband (wife) and children under the age of 23 of a highly skilled migrant, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 790 (Cild I); 2024, № 11, maddə 1265) ilə təsdiq edilmiş “Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası”nın 1.2-ci bəndinə və 1.6-cı bəndinin birinci cümləsinə “cəlb edilənlər” sözlərindən sonra “, habelə Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantın əri (arvadı) və 23 yaşına çatmamış övladları” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 327** **Bakı şəhəri, 3 noyabr 2025-ci il**

**“Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2751 (Cild I); 2024, № 3, maddə 341) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə ləğv edilsin.

**2.** 3-cü hissədən “aprelin 20-dən gec olmayaraq,” sözləri çıxarılsın və həmin hissədə “Dövlət Statistika Komitəsinə” sözləri “İqtisadiyyat Nazirliyinə” sözləri ilə əvəz edilsin.

**3.** 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə tapşırılsın ki, il ərzində fəaliyyəti olmuş, habelə yeni yaradılan və ləğv olunmuş sahibkarlıq subyektlərinin ölçüsünə görə mikro, kiçik, orta və iri sahibkar kateqoriyaları üzrə bölgüsünün bu meyarlara uyğun təşkilini və hesabat ili başa çatdıqdan sonra növbəti il mayın 10-dan gec olmayaraq, real vaxt rejimində işçilərin orta siyahı sayı və illik gəlir göstəriciləri göstərilməklə müvafiq məlumatların Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri”nə ötürülməsini təmin etsin.”.

**4.** Həmin Qərarla təsdiq edilmiş “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın “Qeydlər”inin 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

“4. Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kateqoriyalarına aid edilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu Qərara uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunan və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən həmin sahibkarlıq subyektləri haqqında reyestrə daxil edilən məlumatlar əsasında başa çatmış hesabat ili üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilir, meyar göstəriciləri üzrə məlumatlar dəyişdikdə real vaxt rejimində yenilənir və sahibkarlıq subyektlərinə təqdim edilir. Vergitutma məqsədləri üçün vergi qanunvericiliyində nəzərdə tutulan güzəşt və azadolmalar sahibkarlıq subyektlərinin bölgüsü meyarlarının müəyyən edilməsinə əsas verən göstəricilərin aid olduğu başa çatmış hesabat ili ərzində tətbiq edilir.

**5.** Sahibkarlıq subyektlərinin (yeni yaradılan və ləğv olunmuş sahibkarlıq subyektləri istisna olmaqla) hesabat ilində meyar göstəriciləri dəyişmədikdə, həmin sahibkarlıq subyektlərinin əvvəlki il üzrə müəyyən edilmiş meyarlar üzrə bölgüsü qüvvədə qalır”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 328** **Bakı şəhəri, 3 noyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 may tarixli 77 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün dövlət qulluqçusunun müraciət etdiyi vaxt dövlət məvacibinin hesablandığı dövlət qulluğu vəzifəsi mövcud olmadıqda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet, partiya orqanlarında çalışmış dövlət qulluqçularının vəzifələrinin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 sentyabr tarixli 290 nömrəli Fərmanının 1-ci bəndi ilə təsdiq edilmiş Siyahıya daxil olmayan vəzifələrin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün dövlət qulluqçusunun müraciət etdiyi vaxt dövlət məvacibinin hesablandığı dövlət qulluğu vəzifəsi mövcud olmadıqda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet, partiya orqanlarında çalışmış dövlət qulluqçularının vəzifələrinin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 sentyabr tarixli 290 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 may tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 547 (Cild I) ilə təsdiq edilmiş “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən pensiya təyin edilməsi üçün dövlət qulluqçusunun müraciət etdiyi vaxt dövlət məvacibinin hesablandığı dövlət qulluğu vəzifəsi mövcud olmadıqda, habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet, partiya orqanlarında çalışmış dövlət qulluqçularının vəzifələrinin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı”-nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 sentyabr tarixli 290 nömrəli Fərmanının 1-ci bəndi ilə təsdiq edilmiş Siyahıya daxil olmayan vəzifələrin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunda göstərilən dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması Siyahısı”nın I bölməsinə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

| | |
|---|---|
| 4. Naxçıvan MSSR Nazirlər Sovetinin Aparatında: | 4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında: |
| Nazirlər Soveti sədrinin köməkçisi | yardımçı şöbə müdirinin müavini |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 329** **Bakı şəhəri, 3 noyabr 2025-ci il**

**“Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 252 nömrəli Fərmanının 7-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 651 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş 12 nömrəli əlavə – “Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.2.3. hakim vəzifəsində işlədikləri müddət;”;

1.2. aşağıdakı məzmunda 2.2.3-1-ci və 2.2.3-2-ci yarımbəndlər əlavə edilsin:

“2.2.3-1. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;

2.2.3-2. dövlət qulluqçusunun dövlət qulluğu vəzifəsində qulluq stajı;”;

1.3. 2.2.7-ci yarımbənd ləğv edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 22 iyul tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 589 (Cild I); 2024, № 3, maddə 326) ilə təsdiq edilmiş “Daxili işlər orqanlarının əməkdaşlarına fasiləsiz xidmət illərinə görə haqqın ödənilməsi üçün xidmət illərinin hesablanması Qaydası”-nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

“hakim vəzifəsində işlədikləri müddət;”;

2.2. yeddinci − on üçüncü abzaslar müvafiq olaraq səkkizinci − on dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

“digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”;

2.3. on ikinci abzasa “əlaqədar” sözündən sonra “və ya attestasiyanın nəticələrinə görə” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 37 (Cild I) ilə təsdiq edilmiş “Gömrük orqanlarının vəzifəli şəxslərinin fasiləsiz xidmət illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

“hakim vəzifəsində işlədikləri müddət;”;

3.2. yeddinci − on üçüncü abzaslar müvafiq olaraq səkkizinci − on dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

“digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 446 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.10-cu yarımbənddə “işlədiyi müddət” sözləri “qulluq stajı” sözləri ilə əvəz edilsin;

4.2. 2.2.2-ci yarımbənd ləğv edilsin;

4.3. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.2.3. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”;

4.4. 2.2.3-1-ci yarımbənddə “işlədikləri müddət” sözləri “qulluq stajı” sözləri ilə əvəz edilsin.

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 441 (Cild I); 2024, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Fövqəladə hallar orqanları əməkdaşlarının xidmət illərinin və bununla əlaqədar onlara verilən fasiləsiz xidmət illərinə görə haqqın hesablanması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.1.10. hakim vəzifəsində işlədikləri müddət;”;

5.2. aşağıdakı məzmunda 2.1.10-1-ci yarımbənd əlavə edilsin:

“2.1.10-1. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qarabağ Zəfərindən Böyük Qayıdışa

## *Xalqımız Qələbənin mənəvi enerjisini dirçəliş dinamizminə çevirib*

**2020-ci il noyabrın 8-də əldə olunan tarixi Zəfər Azərbaycan dövlətçiliyinin və xalqının əsrlər boyu arzuladığı milli birliyi, azadlıq və ədalət idealını reallığa çevirdi, Ermənistanın 30 ilə yaxın bir müddətdə həyata keçirdiyi işğalçılıq siyasətinə son qoydu, tarixi torpağımızı – Qarabağı düşməndən xilas etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməndən geri alınan yaşayış sahələrində həyata keçirilən quruculuq prosesi Vətən müharibəsindən dərhal sonra Azərbaycanın sosial-iqtisadi inkişaf modelində yeni mərhələ açdı.**



Ötən 5 illik bir dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları respublikamızın bir sıra Dövlət proqramlarının, infrastruktur layihələrinin və strateji inkişaf təşəbbüslərinin mərkəzinə çevrildi. Əgər Vətən müharibəsi Azərbaycanın hərbi-siyasi gücünü dünyaya göstərdisə, ondan sonrakı quruculuq mərhələsi isə dövlətin idarəçilik, planlaşdırma və iqtisadi dirçəltmə potensialını nümayiş etdirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sonlarından etibarən azad edilmiş ərazilərdə bərpa prosesi sistemli şəkildə planlaşdırıldı. "Böyük Qayıdış" adlandırılan Dövlət Proqramı infrastrukturun bərpası ilə yanaşı, ərazilərin sosial-iqtisadi, ekoloji və mədəni həyatının tam şəkildə yenidən qurulmasını da qarşıya mühüm vəzifə kimi qoydu.

2021-ci ilin yanvarında yaradılan Qarabağ Dirçəliş Fondu dövlət və özəl sektorun, diaspor və beynəlxalq tərəfdaşların birgə fəaliyyətini koordinasiya edən əsas maliyyə institutu oldu. Bununla yanaşı, "Azad edilmiş ərazilərin yenidənqurma və bərpası üzrə Koordinasiya Qərargahı" bütün layihələrin vahid idarəetmə çərçivəsini formalaşdırdı.

Bərpa-quruculuq siyasətinin ideoloji dayağı "Qarabağ Azərbaycandır!" şüarı üzərində quruldu. Bu, həm siyasi mesaj, həm də milli inkişaf fəlsəfəsi idi. Dövlət başçısının təşəbbüsü ilə qəbul olunan "Böyük Qayıdışa dair I Dövlət Proqramı" (2022–2026) azad edilən ərazilərin dayanıqlı inkişafını təmin etmək üçün konkret məqsəd, mərhələ və maliyyə mexanizmlərini müəyyənləşdirdi.





Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq layihələrinin icrasına başlanan ilk vaxtlardan müasir infrastrukturun yaradılması daim diqqətdə saxlanılıb. Bunun nəticəsidir ki, 5 il ərzində 3 min kilometrdən çox avtomobil yolu və onlarla körpü inşa olunub. Zəfər yolu, Füzuli – Şuşa, Horadiz –Cəbrayıl – Zəngilan – Ağbənd, Tərtər – Suqovuşan kimi magistrallar regionun yeni həyat arteriyalarına çevrilib. Horadiz–Ağbənd dəmir yolunun tikintisinə isə həm daxili inteqrasiyanın reallaşması, həm də Zəngəzur dəhlizinin gələcək fəaliyyəti baxımından mühüm önəm verilib.

Yol-nəqliyyat infrastrukturunun qurulması baxımından xüsusi önəm daşıyan Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi daha çox diqqət çəkir. Çünki bu magistral, ilk növbədə, Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihənin çətin relyef şəraitində keçilməz dağ cığırları üzərində həyata keçirilməsi də bunun bariz ifadəsidir.

Dünyada analoqu olmayan Zəfər yolu layihəsi Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası isə Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır–yolun əbədiləşdirilməsi məqsədilə salınan və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Zəfər yolu adlandırılan magistralın inşası dövlətimizin başçısının nəzarəti ilə icra olundu.

Başlanğıcını Hacıqabul – Mincivan – Zəngəzur dəhlizi avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən bu yol Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasını, onlar üçün yüksəksəviyyəli həyat və yaşayış standartının yaradılmasını şərtləndirir.

Xatırladaq ki, ötən müddətdə azad edilmiş ərazilərdə geniş yol-nəqliyyat infrastrukturunun icrasında Türkiyə şirkətlərinin fəal iştirakı da diqqət çəkib. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "İndi Şuşaya gedən hər bir insan yeni çəkilən avtomagistraldan keçərək öz gözü ilə görür ki, orada 7 tunel, 9 viaduk, bir çox körpülər inşa edilir və podratçıların əksəriyyəti Türkiyədən olan şirkətlərdir. Eyni zamanda, dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz–Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir. Yəni biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük. Təbii ki, bu, həm bizi sevindirir, həm də bütün Türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir".

Burada söhbət yol tikintisindən düşmüşkən, onu da xatırladaq ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki avtomobil yolu layihələrinin icrası 2026-cı ilə qədər başa çatdırılacaq. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planında 2022–2026-cı illərdə 20 avtomobil yolu layihəsinin tikintisi ilə əlaqədar torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub. Bu layihələrdən 7-nin tikintisi artıq başa çatıb, digərlərinin icrasının isə 2026-cı ilə qədər yekunlaşdırılması planlaşdırılıb.

Ötən 5 ildə işğaldan azad edilən ərazilərdə yol-nəqliyyat infrastrukturunun yaradılması ilə paralel energetika sisteminin bərpası da diqqətdə saxlanılıb. Bu müddətdə 30-dan artıq elektrik yarımstansiyası, 10 min kilometrdən çox elektrik xətti, eləcə də Füzuli, Laçın, Kəlbəcər, Zəngilan, Şuşa və digər rayonlarda "yaşıl enerji zonası" konsepsiyasına uyğun enerji sistemləri qurulub. 2023-cü ildən etibarən Kəlbəcər və Laçında su elektrik stansiyaları işə salınıb, "Azərenerji" və "Azərişıq" tərəfindən bu ərazilərdə dayanıqlı enerji təminatı gerçəkləşdirilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında regionun yeni "qapı"ları açılıb – müasir aeroportlar işə salınıb. Füzuli, Zəngilan və Laçın beynəlxalq hava liman-



larının ardıcıl istifadəyə verilməsi ilə bu ərazilər regionda logistika və turizm mərkəzinə çevrilib. Füzuli Hava Limanında artıq beynəlxalq reyslərin qəbuluna başlanılıb, Zəngilan Hava Limanının isə Zəngəzur dəhlizinin hava komponenti kimi fəaliyyət göstərəcəyi nəzərdə tutulub.

Qarabağın bərpasında şəhərsalma və "ağıllı" kənd konsepsiyası diqqətdə saxlanılıb. Bunun nəticəsidir ki, azad edilmiş ərazilərdə şəhərsalma prosesi hazırda Azərbaycanın gələcək urbanizasiya modelinin sınaq meydanına çevrilib. Məsələn, Ağalı yaşayış məntəqəsi (Zəngilan) 2022-ci ildə ölkəmizin ilk "ağıllı" kənd layihəsi kimi istifadəyə verilib.

Yeri gəlmişkən, ölkəmiz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasına başladığı ilk günlərdən etibarən bu ərazilərin yenidən qurulmasında "0" tullantı və bərpaolunan enerji, eləcə də davamlılıq, inklüzivlik və təhlükəsizliyə üstünlük verən müasir şəhərsalma prinsiplərinə əsaslanılıb. Məsələn, işğaldan azad olunandan sonra salınan ilk yaşayış məntəqəsi – Zəngilan rayonunun Ağalı kəndi dayanıqlı inkişaf məqsədləri əsasında tikilib və inşaat prosesində həmin məqsədlər əsas götürülüb. Burada tikinti zamanı izolyasiya edilmiş materiallardan geniş istifadə edilib. Evlərin damları günəş panelləri ilə təchiz olunub. Bütün inzibati binalarda təmiz enerji əldə etmək üçün günəş panelləri quraşdırılıb. Kəndi enerji ilə təmin etmək üçün Həkəri çayında turbinlər tikilib. Bir sözlə, Ağalı təbii və su ehtiyatlarının, eləcə də biomüxtəlifliyin qorunması üzrə təşəbbüsləri reallaşdırmaqla dünyanın ən gözəl kənlərindən birinə çevrilib. Bu modelin Füzuli, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarında da tətbiqinə başlanılıb.

Yuxarıda sadalananlarla yanaşı, Böyük Qayıdış proqramı çərçivəsində Ağalı kəndində və digər yaşayış məntəqələrinə köçürülən ailələr üçün iş və biznes imkanları ilə dayanıqlı dolanışıq vasitələrinin yaradılması diqqət mərkəzində saxlanılıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bütün layihələr BMT-nin qarşıya qoyduğu dayanıqlı inkişaf hədəflərinə yönəldilib.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti–quruculuq prosesində təkcə fiziki infrastruktur deyil, həm də sosial həyatın bərpası nəzərdə tutulub. Çünki bu məsələdə dövlətin başlıca məqsədi ilk vaxtlardan keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz, mərhələli və ləyaqətli qayıdışını təmin etmək olub. 2022-ci ildən başlayaraq artıq minlərlə ailənin Ağalı, Talış, Füzuli, Laçın, Zəngilan, Kəlbəcər və Şuşaya qayıdışı reallaşdırılıb. Doğma ocaqlarına dönən ailələr üçün evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə məntəqələri və xidmət infrastrukturu da yaradılıb.

Əhalinin məşğulluğunu təmin etmək məqsədilə kənd təsərrüfatı layihələri, sənaye məhəllələri və turizm klasterləri formalaşdırılıb. Ağdam Sənaye Parkı, Cəbrayıl Sənaye Məhəlləsi, Zəngilan Logistika Mərkəzi və Laçın "Yaşıl" Enerji Parkı istifadəyə verilib. Bu iqtisadi qurumlarda fəaliyyət göstərən iş adamları üçün hər cür şərait yaradılıb. Məsələn, bir sıra iş adamlarının (rezidentlərin) maliyyəyə çıxışı həll edilib. Onlara hökumət tərəfindən 500 milyon manat həcmində kredit portfeli təqdim olunub. Həmin kreditlərin 450 milyon manatdan çox hissəsinə dövlət zəmanəti verilib. Hər bir sahibkar üçün 1 kreditin məbləği 5 milyon manatı keçməmək şərtilə dövlət zəmanəti ilə ayrılıb. Bu kreditlərin 7 il müddətinə ayrılması nəzərdə tutulub. Burada kredit faizlərinin subsidiyalaşdırılmasına əsas məsələ kimi yanaşılıb. Kreditlərin 10 faizə qədəri dövlət tərəfindən subsidiyalaşdırılıb. Bütün bunlarla yanaşı, elektron kredit və zəmanət informasiya sistemi fəaliyyətə başlayıb.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda yaradılan sənaye parkları bu iqtisadi rayonların inkişafına, bölgənin qeyri-neft sənayesinin sürətli inkişafına önəmli təsir göstərəcək. Eyni zamanda, bu müəssisələr respublikamızın ixrac potensialının artırılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, ölkəyə valyuta axınının, investisiyaların artmasına yeni imkanlar açacaq.

İşğal dövründə ermənilər tərəfindən dağıdılan tarixi, dini və mədəni abidələrin bərpası da milli kimliyin dirçəldilməsində əsas istiqamətlərdən biri kimi diqqətdə saxlanılıb. Məsələn, Şuşa şəhəri 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilib. Burada Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidləri, Xurşidbanu Natəvan, Vaqif məqbərəsi, Cıdır düzü, Qarabağ xanlarının sarayı kimi tarixi məkanlar bərpa olunub. Şuşa Bəyannaməsi (2021) ilə bu şəhər, eyni zamanda, siyasi və mənəvi birlik rəmzinə çevirilib. Ağdam, Füzuli və Zəngilanda məscidlər, qəbiristanlıqlar, abidələr və muzeylər yenidən tikilir. Bu, yalnız keçmişin bərpası deyil, gələcək nəsillərə tarixi yaddaşın ötürülməsi missiyasıdır.

Qarabağ və Şərqi Zəngəzurun turizm məkanına çevrilməsi üçün bu bölgədə müəyyən layihələrin icrasına başlanılıb. Qarabağda 2 hava limanının istifadəyə verilməsi, Laçında 3-cü aeroportun tikintisinin aparılması da mədəniyyət paytaxtımız Şuşa şəhərinə, füsunkar təbiətə malik Kəlbəcərə və digər ekoturizm imkanları olan yaşayış sahələrinə üz tutan istər yerli, istərsə də xarici turistlərin axınının sürətlənməsinə hesablanıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan enerji istehsalı üçün geniş imkanlar var. Mütəxəssislərin son hesablamalarına görə, sözügedən ərazilərdə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları texniki potensialı 7200 meqavatdan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şəraitə malikdir. Bununla yanaşı, ilkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialı 2 min meqavat həcmində qiymətləndirilir. Kəlbəcər və Şuşa rayonlarında isə geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları daha çox diqqət çəkir.

Belə bir zənginliyi nəzərə alan ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji zonası" elan edib. Dövlət başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncam imzalayıb. Sənədə əsasən, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Tədbirlər Planı" təsdiq edilib.

Qeyd edək ki, Qarabağın bərpa və quruculuq prosesinə beynəlxalq tərəfdaşların da cəlb olunması Azərbaycan diplomatiyasının mühüm nailiyyətidir. Türkiyə, İtaliya, İsrail, Böyük Britaniya, Macarıstan, Çin, Yaponiya və digər ölkələr, eləcə də BMT-nin ixtisaslaşmış qurumları, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Yenidənqurma Bankı tərəfindən düşməndən təmizlənən ərazilərdə tikinti, enerji, kommunikasiya və şəhərsalma layihələrində iştiraka böyük maraq göstərilir. Bu əməkdaşlıq Azərbaycanın qələbədən sonra regionda sülh, əməkdaşlıq və inkişaf gündəliyini irəli sürən konstruktiv lider kimi mövqeyini möhkəmləndirir.

Bu məqamda onu da xatırladaq ki, düşməndən geri alınan ərazilərimizdə idarəetmənin müasir modeli formalaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, bu rayonlarda xüsusi dövlət qurumlarının səmərəli fəaliyyət göstərməsi, rəqəmsal xidmətlər, "Smart City" texnologiyaları və müasir vergi-gömrük mexanizmlərinin tətbiq olunması da qeyd edilən fikrin parlaq ifadəsidir. Prezident İlham Əliyevin sözləri ilə desək, "Qarabağ və Şərqi Zəngəzur təkcə bərpaolunan torpaqlar deyil, həm də gələcəyin inkişaf laboratoriyasıdır".

***Vaqif BAYRAMOV***
***XQ***

# COP30: Bakının təcrübəsi Belem qlobal gündəliyində

**Braziliyanın Belem şəhərində keçirilən COP30 konfransında Azərbaycanın iştirakı həm iqlim dəyişiklikləri ilə mübarizədə ardıcıl liderliyi, həm də COP29 Sədrliyi dövründə əldə etdiyi mühüm nəticələri beynəlxalq ictimaiyyətə təqdim etmək fürsətidir. Bu, eyni zamanda, COP29-un uğurlu mirasını Braziliyaya ötürməzdən öncə ölkəmizin qlobal iqlim gündəliyində tutduğu fəal mövqeyin bir ifadəsidir.**

Azərbaycan pavilyonu “Həmrəylik evi” adını daşıyır. Bu ad COP29-un əsas ideyasını – müxtəlif ölkələr arasında əməkdaşlıq və birgə məsuliyyət ruhunu simvolizə edir. Pavilyonun “İrs zalı” bölməsində həm qlobal COP29 irsi, həm də Azərbaycanın mədəni və ekoloji davamlılıq ənənələri xüsusi vurğulanır. Burada təqdim olunan ekspozisiyalar iqlim diplomatiyasında ölkəmizin qurucu rolunu nümayiş etdirir. Eyni zamanda, pavilyonda COP29 Sədrliyinin fəaliyyət proqramını formalaşdıran səkkiz əsas təşəbbüsə geniş yer ayrılıb.

Şəffaflıq, su ehtiyatlarının iqlim dəyişikliklərinə qarşı dayanıqlılığı, sülh quruculuğu və insan inkişafı kimi istiqamətlər interaktiv üsullarla təqdim olunur. Quraşdırılmış rəqəmsal monitorlar vasitəsilə ziyarətçilər bu təşəbbüslərin mahiyyəti, COP sədrlikləri arasındakı ardıcıllıq və qarşılıqlı əməkdaşlığın necə formalaşdığı barədə ətraflı məlumat əldə edə bilirlər.

Braziliyanın Belem şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi Konfransı – COP30 artıq ilk günlərindən qlobal diqqətin mərkəzinə çevrilib. Forumda müzakirələr əsasən iqlim adaptasiyası, şəhərsalma siyasətləri, su təhlükəsizliyi, tullantıların idarə edilməsi və yerli idarəetmənin gücləndirilməsi məsələlərinə fokuslanıb.

Belem konfransı bir daha göstərir ki, qlobal iqlim çağırışlarına cavab vermək üçün yalnız beynəlxalq razılaşmalar deyil, həm də yerli səviyyədə idarəetmə mexanizmlərinin çevikləşməsi həyati əhəmiyyət daşıyır. Konfrans çərçivəsində irəli sürülən yeni təşəbbüslər və əməkdaşlıq platformaları artıq “fəaliyyət dövrü”nün başlandığını nümayiş etdirir. Müxtəlif dövlətlər və beynəlxalq qurumlar əməli tədbirlərin maliyyələşdirilməsi, icra mexanizmlərinin genişləndirilməsi və iqlim maliyyəsinin ədalətli paylanması istiqamətində konkret razılaşmalara imza atıblar.

Noyabrın 11-də keçirilən “Şəhərsalma və İqlim Dəyişikliyi üzrə Nazirlər Görüşü”ndə təqdim edilən “Çoxtərəfli İdarəetmənin Sürətləndirilməsi Planı” (PAS) və Yüksək Ambisiyalı Tərəfdaşlıq Koalisiyasının (CHAMP) yeni modeli 2028-ci ilədək yüz ölkənin milli iqlim planlarına yerli idarəetmə strukturlarının inteqrasiyasını nəzərdə tutur. UN-Habitat-ın təqdim etdiyi “Urban Content in NDC 3.0” hesabatı isə göstərir ki, yeni milli planlarda şəhərlərə aid müddəaların sayı iki dəfə artıb. Bu, ölkələrin məsuliyyət və icra mexanizmlərinə daha real yanaşmasının təzahürüdür. Görüşdə Azərbaycan adından ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva iştirak edib.




COP30-un ikinci günündə təqdim olunan “Beat the Heat” təşəbbüsü ekstremal istiliklərlə mübarizənin qlobal miqyasda yeni mərhələsini açır. BMT-nin Ətraf Mühit Proqramı (UNEP) tərəfindən həyata keçirilən bu layihə 185 şəhəri əhatə edir və 3,5 milyard insanı istilik risklərindən qorumağa yönəlib. Layihə çərçivəsində təbii soyutma üsulları, enerjiyə qənaətli texnologiyalar və yaşıllaşdırma proqramları tətbiq olunacaq.

Konfransda su resurslarının idarə olunması iqlim siyasətinin ayrılmaz hissəsi kimi dəyərləndirilib. “Dəyişimin suları” adlı nazirlər sessiyasında qəbul edilən birgə bəyanatda suyun iqlim fəaliyyətində mərkəzi rolu təsbit olunub. Latın Amerikası və Karib hövzəsi üçün elan edilən Su İnvestisiya Proqramı isə 2030-cu ilədək 20 milyard ABŞ dolları həcmində investisiyanın içməli su təhlükəsizliyinə, suvarma sistemlərinin modernləşməsinə və daşqın risklərinin azaldılmasına yönəldilməsini nəzərdə tutur.

Belem konfransında tikinti və tullantı idarəçiliyi sahəsində də mühüm qərarlar qəbul olunub. “GlobalABC” və Dünya Yaşıl Binalar Şurası tərəfindən təqdim edilən “Near-Zero and Resilient Buildings” standartı dövlət sektorunda dayanıqlı infrastrukturun tətbiqinə yeni yanaşma gətirir. Kolumbiya, Fransa, Finlandiya, Qana, Yaponiya və Keniya artıq bu istiqamətdə dəstək verəcəyini açıqlayıb. Eyni zamanda, “No Organic Waste (NOW)” planı 2030-cu ilədək üzvi tullantılardan yaranan metan emissiyalarını 30 faiz azaltmaq, bir milyon tullantı toplayıcısını dövri iqtisadiyyat sisteminə cəlb etmək və hər il 20 milyon ton ərzaq tullantısının bərpasını təmin etmək məqsədini daşıyır.

Ümumiyyətlə, COP30-un kommunikasiya komandasının məlumatına əsasən, builki konfrans çərçivəsində “Fəaliyyət Gündəliyi” üzrə 400-dən çox beynəlxalq təşəbbüs və 100-ə yaxın sürətləndirmə planı təqdim ediləcək. Bu, Belem konfransının “icra mərhələsi”nə keçidinin rəmzi sayılır. Tədbirin ikinci günündə keçirilən Qlobal Mutirao Plenar Sessiyasında 80-dən çox ölkənin nazir və merləri iştirak edib. Toplantıda vurğulanıb ki, Paris Sazişinin uğuru yerli icmaların və şəhərlərin fəal iştirakı ilə formalaşacaq.

### Ekspert rəyi



**Rövşən ABBASOV,**
**coğrafiya üzrə fəlsəfə doktoru, ekoloq**

Təbii ki, Azərbaycanda keçirilən COP29 tədbirindən sonra Braziliyanın Belem şəhərində təşkil olunan COP30 konfransını həmin prosesin məntiqi davamı kimi qiymətləndirmək lazımdır. Çünki bu iki tədbir arasında sıx məntiqi və tematik əlaqə mövcuddur. Belem konfransı həm adaptasiya, həm də mitiqasiya istiqamətində bir sıra mühüm məsələləri qlobal gündəliyə gətirir.

Hazırda planetdə müşahidə edilən iqlim istiləşməsinin davametmə riski olduqca böyükdür. Bunun əsas səbəblərindən biri odur ki, bir çox ölkələrin milli iqlim planları və milli töhfə sənədləri hələ də gözlənilən nəticəni vermir. Bu vəziyyət emissiyaların azaldılması üçün, xüsusilə enerji, sənaye və nəqliyyat sektorlarında, daha intensiv və hətta müəyyən qədər radikal dəyişikliklərin həyata keçirilməsini zəruri edir.

Bu baxımdan, mitiqasiya sahəsində əsas prioritetlərdən biri ölkələrin yeni milli iqlim sənədlərini yaxın illərdə qəbul etməsi və istixana qazlarının azaldılması üzrə daha ambisiyalı hədəflər müəyyənləşdirməsidir. Eyni zamanda, adaptasiya məsələlərinə COP30-da çox geniş yer ayrılması tədbiri əvvəlki konfranslardan fərqləndirən əsas cəhətlərdəndir.

Burada şəhərlərin iqlim dəyişikliklərinə uyğunlaşdırılması, meşə və torpaq istifadəsi, meşələrin qırılmasının qarşısının alınması, enerji sistemlərində ekoloji məsuliyyətin artırılması, fosil yanacaqlardan asılılığın azaldılması və torpaq deqradasiyasının qarşısının alınması kimi məsələlər ön plana çıxır.

Digər mühüm istiqamətlərdən biri iqlim maliyyəsinin və “yaşıl” investisiyaların genişləndirilməsidir. Artıq bu prosesə yalnız dövlətlərin deyil, özəl sektorun, xüsusilə iri şirkətlərin də fəal şəkildə cəlb olunması vacib sayılır. Bu baxımdan, “yaşıl karbon” bazarının formalaşdırılması və “yaşıl inkişaf” konsepsiyalarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bütün bu məsələlər “danışıqlardan icraya keçid” mərhələsinə daxil olmağın vacibliyini göstərir. Bununla belə, ABŞ-ın COP30-da yüksək səviyyədə təmsil olunmaması barədə yayılan xəbərlər müəyyən narahatlıq doğurur.

Çünki dünyada karbon emissiyalarının əsas hissəsinə məsul olan üç böyük ölkə – ABŞ, Çin və Hindistan – bu prosesdə həlledici rol oynayır. Onların fəal iştirakı olmadan qlobal iqlim məqsədlərinə nail olmaq mümkün deyil. Bu baxımdan, həm bu ölkələrin öz ərazilərində, həm də digər regionlarda həyata keçirəcəkləri transsərhəd mitiqasiya tədbirləri xüsusi əhəmiyyət daşıyır.

Bu tədbirlər meşələrin bərpası, “yaşıl enerji” layihələrinin dəstəklənməsi, adaptasiya proqramlarının icrası və istixana qazlarının azaldılması istiqamətlərini əhatə edə bilər. Lakin ABŞ-ın bu proseslərdə aktiv iştirakdan geri çəkilməsi, qlobal iqlim gündəliyində müəyyən ləngimələrə və prioritetlərin zəifləməsinə gətirib çıxara bilər.

# “Yaşıl enerji” erası başlayır

## *Dövlət Neft Şirkətinin yeni transformasiya strategiyası*

**Azərbaycanın iqtisadi inkişafının əsas dayaqlarından biri olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) yeni dövrdə tamamilə fərqli inkişaf mərhələsinə qədəm qoyur. Uzun illər ərzində neft-qaz sektorunun aparıcı qüvvəsi kimi tanınan şirkət indi qlobal enerji mənzərəsində öz missiyasını yenidən müəyyənləşdirir.**

Artıq SOCAR-ın qarşısında enerjinin gələcəyini formalaşdıran, dayanıqlı iqtisadi artıma xidmət edən və ölkənin enerji təhlükəsizliyini uzunmüddətli perspektivdə qoruyan bir strateji güc mərkəzi missiyası dayanır. Yeni transformasiya siyasəti SOCAR-ın fəaliyyət fəlsəfəsini köklü şəkildə dəyişir. Şirkət yalnız ənənəvi enerji mənbələrinə əsaslanan fəaliyyətlə kifayətlənmir; bu gün diqqət mərkəzində innovasiya, texnoloji modernizasiya və “yaşıl enerji”yə keçidin təmin olunması dayanır. Günəş, külək və digər alternativ enerji resurslarının inkişafı istiqamətində görülən işlər SOCAR-ın gələcəyə baxışını əks etdirir. Bu baxışda əsas məqsəd ekoloji məsuliyyət daşıyan, iqlim dəyişikliklərinə qarşı qlobal səylərə real töhfə verən bir şirkət qurmaqdır.




SOCAR-ın beynəlxalq arenadakı fəallığı da transformasiyanın mühüm tərkib hissəsidir. Şirkət ölkə daxilində deyil, müxtəlif regionlarda həyata keçirilən enerji layihələrində iştirak etməklə strateji tərəfdaşlıq şəbəkəsini genişləndirir. Bu əməkdaşlıqlar həm gəlir mənbələrinin çoxşaxəliliyini təmin edir, həm də şirkətin beynəlxalq nüfuzunu möhkəmləndirir.

Qlobal enerji bazarında baş verən dəyişikliklər fonunda SOCAR özünü yeni reallıqlara uyğunlaşdırır. Karbonsuzlaşdırma, enerji səmərəliliyi və “yaşıl” keçid siyasəti şirkətin gələcək strategiyasının əsas sütunlarını təşkil edir. SOCAR bu istiqamətdə həyata keçirdiyi layihələrlə yalnız enerji istehsalçısı deyil, həm də ekoloji dəyərləri qoruyan və sosial rifaha xidmət edən bir enerji brendinə çevrilir.

Xatırladaq ki, COP28 beynəlxalq iqlim konfransında təqdim edilən yeni hədəflər SOCAR-ın enerji siyasətində ciddi dönüş nöqtəsidir. Bunu Bakıda keçirilən COP29 İqlim Konfransında da aydın görmək mümkün idi. Belə ki, Şirkət 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq, 2035-ci ilə qədər hasilat mərhələsində metan emissiyalarını tam şəkildə aradan qaldırmaq və eyni dövr ərzində karbon intensivliyini 30 faiz, ümumi tullantıları isə 20 faiz azaltmaq niyyətindədir. Bu məqsədlər neft şirkətinin enerji istehsalında texnoloji modernizasiyaya, innovasiyalara və resurs səmərəliliyinə yönəlmiş yeni baxışının təzahürüdür.

Bu strategiyanın praktik təzahürlərini beynəlxalq əməkdaşlıq istiqamətində də görmək mümkündür. Şirkət “ACWA Power” və “Masdar”la birlikdə ümumi gücü 3,5 QVt olan enerji layihələrinin icrasını planlaşdırır. Bununla yanaşı, “China Datang Overseas Investment” və “PowerChina” ilə dənizdə 2 QVt gücündə külək elektrik stansiyası layihəsinin hazırlanması nəzərdə tutulub. Bu təşəbbüslər Azərbaycanın enerji xəritəsini yeni mənbələrlə zənginləşdirməklə yanaşı, SOCAR-ın beynəlxalq səviyyədə texnoloji tərəfdaşlıqlarını da gücləndirir.

**Transformasiya prosesinin mahiyyətini daha dərindən anlamaq üçün SOCAR-ın Media, ictimaiyyətlə əlaqələr və kommunikasiya departamentinə müraciət etdik.** Qurumdan aldığımız açıqlamada vurğulanır ki, SOCAR enerji sektorunda baş verən son dəyişiklikləri nəzərə almaqla şirkətin maliyyə dayanıqlılığını, fəaliyyət göstərdiyi bazarlarda rəqabətə davamlılığını artırmaq, əməliyyatları daha effektiv formada icra etmək, qlobal istiləşmə ilə mübarizə məqsədilə karbon emissiyasını azaltmaq, sahib olduğu resurslarda səmərəli istifadə etmək məqsədilə şirkətin transformasiya edilməsi zərurəti yaranıb. Transformasiya yuxarı da qeyd edilənləri nəzərə alaraq SOCAR-ın strategiyasına uyğun olaraq həyata keçirilir.

Strateji hədəflər əsasən ölkənin enerji təhlükəsizliyini təmin etmək, bərpaolunan enerji potensialından istifadə edərək “yaşıl enerji” əldə etmək və tərəfdaşlarımız üçün etibarlı enerji təminatçısı olmaqdır. Eyni zamanda, ölkənin sahib olduğu karbohidrogen resurslarının səmərəli formada hasil edilməsi və geoloji kəşfiyyat layihələrinin aparılması da əsas istiqamətlərdəndir. Beynəlxalq genişlənmələr şirkətin korporativ strategiyasına əsasən rəqabət qabiliyyətinin artırılması və fəaliyyət göstərdiyi bazarların şaxələndirilməsi məqsədini daşıyır.

Digər tərəfdən, SOCAR-ın beynəlxalq müstəvidə fəaliyyətinin genişləndirməsi onun əməliyyat və maliyyə dayanıqlılığının artırılması istiqamətində atdığı addımlar kimi qəbul edilə bilər. Şirkət beynəlxalq müstəvidə həyata keçirməyi nəzərdə tutduğu layihələri beynəlmiləl şirkətlərlə birlikdə tərəfdaş formasında həyata keçirməyi nəzərdən keçirir. Şirkətdən verilən məlumata əsasən, layihələrə investisiya qoyuluşlarının əsasən 3 mənbəyi var: SOCAR-ın daxili resursları, borclanma və 3-cü tərəflərlə birlikdə. Şirkət olaraq layihələrin formasından, gəlirliliyindən və başqa faktorlardan asılı olaraq qeyd edilən hər 3 vasitədən istifadə etmək məqsədəuyğun hesab edilir.

SOCAR kimi iri enerji şirkətlərinin enerji siyasətindəki çalarlığı xarici investorların da birbaşa nəzərindədir. Şirkətdən verilən məlumata görə, neftin və qazın hasilatı layihələrində investorlarla münasibətlər əsasən Hasilatın Pay Bölgüsü və Risk-Xidmət Sazişlərinə əsasən tənzimlənir ki, bu tənzimləmə Milli Məclis tərəfindən ratifikasiya edilir. Digər tərəfdən, xarici investorlarla, şirkətlərlə danışıqların əsas prioritetləri kimi şirkətlərin sahib olduqları “nou-hau”nun (know-how), istifadələrində olan son texnologiyaların və metodların ölkəyə gətirilməsi və onun yerli kadrlara aşılanması, ətraf mühitin qorunması və sairə kimi məsələlər danışıqlar mövzusudur. Tərəfdaşlıq modelləri layihələrdən asılı olaraq və şirkətin strategiyasına uyğun olaraq Birgə Müəssisələr, Ümumi tərəfdaşlıq və digər tərəfdaşlıq modellərindən istifadə olunur. Buna misal olaraq qeyd edə bilərik ki, SOCAR ilə “Masdar” və “ACWA Power” şirkətləri ilə tərəfdaşlıq modeli əsasən Birgə Müəssisə kimi nəzərdə tutulur.

Neft şirkətinin bərpaolunan enerji sahəsindəki məqsədlərini reallaşdırmaq üçün təsis etdiyi “SOCAR Green” şirkəti bu istiqamətdə mühüm rol oynayır. Yeri gəlmişkən, şirkət Bakıda keçirilən COP29 konfransı çərçivəsində bərpaolunan enerji mənbələrinin inkişafı, enerji effektivliyi və Azərbaycanın davamlı gələcəyinin dəstəklənməsinə yönəlmiş bir neçə strateji saziş imzalayıb.

Bu kimi proseslərdə əsas şərt müəyyən risk ssenarilərinin nəzərə alınması və təkmilləşdirilməsidir. Şirkətin korporativ strategiyasında qiymət, hasilat və digər bəzi faktorlara dayanan simulyasiyaları edilmiş və simulyasiyanın mümkün proqnozlarına dair təhdidlər və fürsətlərə dair potensial tədbirlər, layihələr nəzərdə tutulub. Şirkətin fəaliyyətinin şaxələndirilməsində də əsas məqsəd qiymət dalğalanmalarının mənfi təsirlərini minimuma endirməkdir. Eyni zamanda, şirkətdə risklərin idarə edilməsinə dair qəbul edilmiş vahid çərçivə vardır. Əməliyyat, maliyyə, strateji və digər risklər qeyd olunan çərçivədə nəzərdə tutulmuş riskin idarə edilməsi önləyici tədbirləri vasitəsi ilə idarə edilir.

Bu gün SOCAR-ın addımları Azərbaycanın enerji gələcəyini formalaşdırır. Ənənədən gələcəyə uzanan bu yolda qurum həm milli iqtisadiyyatın sabitliyinin təminatçısı, həm də regionda yeni enerji dövrünün aparıcı qüvvəsi kimi çıxış edir.

# Statistika Komitəsində təntənəli mərasim



**Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunan təntənəli mərasim keçirilib.**

Məclisdə əvvəlcə Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Çıxış edənlər bildiriblər ki, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratmış və onun inkişafına güclü təkan vermişdir. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunun aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratmışdır.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi əsaslarını təşkil edən, ölkənin müstəqilliyini hüquqi cəhətdən təsdiqləyən fundamental sənəd kimi tarixə düşmüşdür. Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Konstitusiyada təsbit olunan bütün müddəaların təmin olunduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, İlham Əliyevin 2003-cü ildə ali vəzifəyə seçildiyi dövrdən başlayaraq qarşısına qoyduğu strateji hədəf Ali Qanunumuzun müddəalarının bütün ölkə ərazisində təmininə yönəlmiş, Vətən müharibəsi və ardınca antiterror əməliyyatı ilə Azərbaycan bütün ərazisində suverenliyini tam bərpa etmişdir.

Sonda Prezident İlham Əliyevin 20 oktyabr 2025-ci il tarixli sərəncamı ilə statistika işinin təşkilində səmərəli fəaliyyətlərinə görə təltif edilmiş komitə əməkdaşlarına orden və medallar təqdim olunub.

*XQ*

# Maliyyə şəffaflığı müzakirəsi

**Bu barədə AMB-dən bildirilib ki, qurum ikitərəfli əməkdaşlıq çərçivəsində Qazaxıstan Milli Bankının nümayəndə heyəti ilə görüş keçirib. İnteraktiv görüşdə əsas diqqət maliyyə sektorunda, xüsusilə mərkəzi (milli) banklarda müasir təcrübələrin, o cümlədən tənzimləyici yeniliklərin mübadiləsinə yönəldilib.**

Konsolidasiya olunan maliyyə hesabatlığı üçün hazırkı avtomatlaşdırılmış bank informasiya sistemlərinin imkanları və inkişafı, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tələbinə əsasən maliyyə alətlərinin, digər aktiv və öhdəliklərin tanınması və qiymətləndirilməsi, eləcə də yeni maliyyə hesabatlılığı standartlarının tətbiqi prosesləri müzakirə olunub.

*Səhifəni hazırladı:*
*Nurlan ABDALOV*
*XQ*

*XQ-nin qonaqları*

**Azərbaycan ədəbi–ictimai fikrinin tanınmış nümayəndəsi, müstəqil dövlətçilik quruculuğunda özünəməxsus yeri olan, müasir poeziyamızın öncüllərindən biri kimi şöhrət qazanan Sabir Rüstəmxanlının adı həm sözün gücünü, həm də milli düşüncənin əzmini ifadə edir. Xalqın yaddaşını, ağrısını, ümidini misralara köçürən, dəyərli əsərləri ilə dövrünün ruhunu canlandıran şair söz adamı olaraq qələmi, siyasətçi kimi mövqeyi ilə hər zaman millətin maraqlarına xidmət edib. Xalq şairi ilə söhbətimizdə keçdiyi yaradıcılıq yolundan, siyasi baxışlarından və bu günün reallıqları barədə düşüncələrindən danışdıq.**

# Xalqın taleyinə qovuşmuş "Ömür yolu"

## *Ədəbiyyat milli kimliyin bədii təcəssümüdür*



***– Sabir müəllim, poeziyanızda Vətən, azadlıq və insanın qəlb ağrısı kimi mövzular ön plandadır. Bu duyğuların formalaşmasında hansı dövr və hadisələr həlledici rol oynayıb?***

– Bu, dəyərlər mənim doğulduğum və uşaqlıq illərimi keçirdiyim mühit və gördüyüm tərbiyə ilə bağlıdır. Yardımlı iki tərəfdən Güney Azərbaycanla sərhəddir. Xəritəyə baxdıqda bizi dövrələmiş sərhəd dar ağacına bənzəyir. Elə bil, dar ağacından asılmış vəziyyətdəyik. Yaylaqlardan Ərdəbil, Savalan görünür, ancaq keçə bilməzdik. Başqa bir yolumuzun da Salyanla Biləsuvar arasında Sovet sərhəd qoşunları tərəfindən kəsildiyini və rayondan çıxanların geri qayıtmasının müşkül bir iş olduğunu bilirdik. Kənd camaatının, qohum-əqrəbanın hansı əziyyətlə yaşadıqlarını da görürdük. Ata-anamızın hansı ehtiyaclar içində yaşadıqları bizi uşaqlıqdan qoparır, böyüklər kimi düşünməyə, onlara yardımçı olmağa və yaxşı oxumağa sövq edirdi.

Ötən əsrin 50-ci illərində müharibə yaraları sağalmamışdı, həlak olanlar və itkin düşənlər üçün axıdılan göz yaşları qurumamışdı. Bununla belə, adamların ürəyində böyük bir ümid, xatirələrində tarixdən və mifologiyamızdan gələn bir qəhrəmanlıq ruhu, işıq var idi. Vətən və ayrılıq duyğusu yaylaqlarımızın söykəndiyi o sərhəd məftillərindən, mübarizə ruhumuz və ümidlərimiz böyüklərimizin söhbətlərindən doğulurdu. Şübhəsiz, məktəbin, müəllimlərimizin və o illərdə əldən-ələ gəzən kitabların, deyək ki, Mirzə İbrahimovun uşaq düşüncələrimizi şimşək işığı kimi aydınladan "Gələcək gün" romanının da böyük təsiri olmuşdu. Bəxtimdən 5-ci sinifdə ədəbiyyat müəllimim (Qazax rayonunun Yuxarı Salahlı kəndindən idi) özü azadlıq ruhunun daşıyıcısı idi və bizə, ilk növbədə, Vətən sevgisi aşılamışdı.

Ağrı, kədər kənd uşaqlarının ömürlük yoldaşı olur. Nə qədər böyüsən, şöhrətlənsən də kənd axşamlarında başının üstündəki parlaq ulduzlara baxa-baxa duyduğun tənhalıq, qəriblik hissi heç vaxt ürəyindən silinmir. İndi yeniyetməlik illərində yazdığım "Günəş doğmazdan qabaq", "Torpaq şırımı", "Azadlıq", "Həsrətindəyəm" adlı şeirlərimi gözdən keçirəndə o yaşda bu duyğuların haradan doğulduğuna və mübarizə eşqinə necə kökləndiyimə özüm də təəccüblənirəm.

***– Ötən əsrin sonlarında böyük tirajla çap edilən və əl-əl gəzən "Ömür kitabı" toplusu xalqı azadlığa və müstəqilliyə çağırırdı. Bu əsəri yazarkən iç dünyanızda nə baş verirdi?***

– Bu kitabı 1985-ci ildə yazmağa başlamışdım. Həm Azərbaycanda, həm dünyada gedən prosesləri yaxından izləyirdim. Moskvada və qonşu respublikalarda tariximizlə, mədəniyyətimizlə bağlı nəşr olunan kitablarda, dərc edilən yazılarda yanlış, bəzən də qəsdən təhrif olunmuş məlumatlar məni ağrıdırdı. Bir sıra mənəvi dəyərlərimiz saxtakarlıqla qonşu xalqların adına yazılırdı. Yəni bizi talayırdılar. Həm tariximiz, həm bu günümüz müxtəlif əyri güzgülərdə fərqli şəkildə göstərilirdi.

Əleyhimizə yazılmış məqalələrə, kitablara nəinki Moskva mətbuatında, heç öz qəzet və jurnallarımızda da cavab vermək olmurdu. Bizi tənqid edə bilərdilər, amma biz ağzımızı açan kimi "Olmaz, milli münasibətlərə zərər gələr, bu məsələlərə mərkəz (Moskva) özü cavab verəcək", – deyə yollarımızı bağlayırdılar. Bütün bunlara münasibət bildirmək istəyi mənə rahatlıq vermirdi. Bu, təəssübkeşlik duyğusu idi və mən öz ölkəmi, xalqımı layiqincə tanıtmaq istəyirdim. Həmin ildən başlayaraq kitabı yaza-yaza bəzi hissələrini ədəbi jurnallarımızda çap etdirirdim.

Kitab 1988-ci ildə ilk dəfə Azərbaycan dilində, sonra da rus dilində nəşr olundu. Mənə elə gəlirdi ki, hamının bildiyi və məclislərdə hər gün danışdığımız şeyləri yazıram. Buna görə də əsərin bu qədər böyük maraqla qarşılanacağını gözləmirdim. Hər halda, insan bir məclisdə ürək sözlərini deyəndən, necə rahatlanırsa, yaxud çoxdan çiyninə yüklənmiş borcunu verəndən sonra necə sakitləşirsə bu kitabdan sonra bir müddət buna bənzər hisslər yaşadım.

Amma təəssüf ki, vəd etdiyim kimi kitabın ikinci hissəsini yazmaq mənə qismət olmadı. İkinci hissə Güney Azərbaycana həsr olunmalı idi. Siyasətə qarışmaq o arzumun qarşısını kəsdi. Amma "Xətai yurdu" və "Vətəndaşlığın əlifbası" kitablarımı "Ömür kitabı"nın davamı sayıram.

***– Sizcə, bu gün gənc şairlərin yaradıcılığında çatışmazlıq nədir?***

– Düzünü deyim ki, mən ömrüm boyu qüsur axtarmaqdansa, uğurlara sevinmişəm. Ümumiyyətlə, yaşlı nəsildə gəncləri bəyənməmək vərdişi var. Bu ənənə uzaqlaşmaq lazımdır. İnsanların həyatındakı və xarakterindəki çatışmazlıqları araşdırmaq, bir neçə yazı ilə və ya ilk addımlarına baxıb müəllifə qiymət vermək çətindir. İstedadlı cavanlarımız çoxdur. Bəyənmədiyim bir şey var ki, o da bəzi gənclərin keçmiş, daha doğrusu, özlərindən əvvəlki ədəbiyyata inkarçılıqla yanaşmalarıdır.

Ötən əsrin 90-cı illərində dünyaya gələn, keçdiyimiz yoldan, kitablarımızın hansı şərtlər altında yazıldığından xəbəri olmayan bəzi gənc yazarlar deyirlər ki, filankəs böyük ədəbiyyatda yoxdur.

Ədəbiyyat təkcə metafora, bənzətmə, şeir deyil. Həm də xalqın taleyi, dövlətin ideoloji xəttidir, yəni milli ideologiya meydanıdır. Poeziya yalnız şairin öz iç dünyasını oyması və orada həbs olunub qalması deyil. Ona görə də bəzən meydana yeni çıxan ədəbiyyatçılar deyirlər ki, poeziyada publisistika, sentimentallıq, emosiya olmaz.

Əksinə, bunların hamısının poeziyaya aidiyyəti var. Çünki poeziya mürəkkəb bir sistemdir, həm də çox fərqlidir. Hətta səssiz, sözsüz poeziya var. Sənət insanın azadlıq ehtirasını göstərməli və bu ehtirasdan doğmalıdır. Bizim keçdiyimiz yol millətin varlığı, ana dili, milli azadlıq uğrunda mübarizə yoludur. Xalqın səsi olmağa, onun sözünü deməyə çalışmışıq. Bütün bunları görməmək ancaq xəstə təfəkkürün məhsuludur. Mən inanıram ki, gənc yazarlar bütün bunlarla daha yaxından tanış olandan sonra fikirləri dəyişəcək.

***– Deyirsiniz ki, ədəbiyyat taleyin və düşüncənin aynasıdır. Bu güzgüdə müasir ədəbi mühit necə görünür?***

– Ayna özünü göstərməz. Mən ədəbiyyat aynasına baxanda ədəbi mühitdən daha çox, onun təsvir etdiyi həyatın, taleyimizin və düşüncə tərzimizin problemləri haqqında düşünürəm. Bu, çox geniş bir mövzudur. Çünki milli taleyimiz və ona yanaşma tərzimiz, şəxsən mənim fikrimə görə, hələ arzuladığımız kamilliyə, yetkinliyə çatmayıb. Ədəbiyyat xalqın tale və düşüncənin bədii tarixidir. Təsəvvür edin ki, XIX əsrə qədər ədəbiyyatımızda milli kimlik məsələsi, demək olar ki, olmayıb. İnsan, Tanrı, vəhdəti-vücud, irfani ədəbiyyat olub.

Amma dünyada gedən dəyişikliklər, milli dövlətlərin yaranması milli şüuru da dəyişdirib. Bunun nəticəsidir ki, XIX əsrdən etibarən məhz türk, Azərbaycan kimliyini göstərən əsərlər yaranıb. XX yüzil milli kimliyin daha mükəmməl şəkildə dərk olunması dövrüdür. Qarabağ savaşında bu kimlikdən qürur duyan gənclərimiz qeyrətlə savaşırdılar. Milli duyğular həm həyatımızda, həm ədəbiyyatımızda getdikcə güclənir.

Müasir dövrdə inteqrasiya, qloballaşma pərdəsi arxasında milli xarakterin dəyişilməsinə yönəlik yeni sənət və təbliğat növləri ortaya çıxır. Bir yandan süni intellekt, bir yandan da insan azadlığı adına təbliğ olunan antiinsani münasibətlər kütləvi şüursuzluğa, əxlaqi aşınmaya səbəb olur ki, bu da cəmiyyəti böyük problemlərlə üzləşdirəcək. Lakin Azərbaycanda bu sürəcə müqavimət göstərən, onu ləngidən başqa bir proses də var. Bizdə də, Güney Azərbaycanda da milli kimliyin dərki və qorunması prosesi getdikcə güclənir. Bu yol bizi hara aparacaq bəri başdan demək çətindir.

***– Ədəbiyyat cəmiyyəti dəyişdirmək, yönləndirmək missiyanı necə davam etdirir?***

– Ədəbiyyat cəmiyyəti yönləndirə, ona öz başlıca hədəflərini və mübarizə yollarını göstərə bilir. Lakin bu, müəyyən bir mərhələni əhatə edir. O "inqilabi" mərhələdən sonra cəmiyyət yenə əvvəlki yolu ilə gedir, ənənəvi həyat tərzi ilə yaşayır. Yəni cəmiyyətin dəyişməsi uzun bir prosesdir. Burada bir çox amillər rol oynayır: hakimiyyət, idarəçilik üsulları, qanunlar, dövrün ümumi ab-havası. Və bu sırada xüsusi yeri olan ədəbiyyat... Ədəbiyyat əslində bütün bu dediklərimin üstündədir. O hakimdir, sonda hər şeyin qiymətini verir. Bu gün hakimiyyətdən, qanunlardan asılı vəziyyətdə görünsə də, asılı deyil, yaradıcılıq prosesində onların hamısını böyük humanist ənənələr və insanlıq, azadlıq, milli ideallar baxımından dəyərləndirilir, yazılır.

Görünür, ədəbiyyatın bu gücünü dərk edən müasir dünya bilərəkdən onun geniş şəkildə populyarlaşmasında o qədər də maraqlı deyil. Sovet dövründə əksinə idi, ədəbiyyat o sistemin ideoloji aləti sayıldığına görə dövlət orqanları da onun geniş yayılmasında və hər kəsə çatdırılmasında maraqlı idilər. Kapitalist sistemində, "inkişaf etmiş" ölkələrdə isə belə bir maraq yoxdur. Bu vəziyyətdə də qarşılıqlı bir qorxu çıxır ortaya: hakimiyyət ədəbiyyatdan, ədəbiyyat hakimiyyətdən qorxur. Etimad mühiti dağılır. Tarix küləklərinin haradan-hara əsdiyini duyan ədəbiyyat, ilk növbədə, xalqı qaranlıqdan işığa, əsarətdən ağ günə çıxarmağa bələdçi olmalıdır.

***– Yazıçı və şairin sənətkarlığı ilə vətəndaş məsuliyyətinin nisbəti, yaxud vəhdəti necə olmalıdır?***

– Vətəndaş məsuliyyəti hər bir vətəndaşa aid olan məsələdir. Qələm sahibləri isə siyasi gündəmi və zamanın keçici rüzgarlarını nəzərə almadan millətin gələcəyinə xidmət edən böyük ideallara köklənməyi bacarmalı, bu idealları və insan talelərini bədii üsullarla göstərməlidir. Yazıçı və özünü ziyalı sayan hər kəs haqqa tapınmalı, ədalətə, humanist dəyərlərə bağlı olmalıdır. Həyat şərtlərindən asılı olmayaraq bədii əsər insanlığın qorunmasına kömək etməlidir.

Vətəndaş duyğusu olmayan yerdə yazıçının fəal həyat mövqeyindən danışmaq mümkün deyil. Yazıçının mövqeyindən söhbət gedəndə mənim yadıma, ilk növbədə, Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir düşür. Vətəndaşlıq təkcə çılpaq tərənnüm, Vətən sevgisinin birbaşa izharı deyil. Vətəndaşlıq yazıçının ruhundan doğmalıdır. Vətəndaşlıq xalqa məxsus ən yüksək keyfiyyətlərin keşiyində dayanmaqdır. Şeirdə bədiilik zəifdirsə, ana dili təhrif olunursa, bu, yalançı vətəndaşlıqdır. Vətənin adına bağlanmaq, ata-ananın verdiyi ad ola-ola özünü həm də yurdun oğlu elan etmək böyük istedad və cəsarət tələb etməklə yanaşı, həm də ömürlük bir məsuliyyətdir.

***– Söz ki, ana dilindən düşdü, siz uzun illərdir bu mənəvi sərvətin keşiyində dayanır, onun qorunmasına və inkişaf etdirilməsinə çağırırsınız...***

– Ana dilinin qorunması ölüm-dirim məsələsidir. Dil varsa, xalq da var, yoxdursa, o da yoxdur. Buna görə də Bakıya gəldiyim və burada dilimizin rəsmi məclislərdən dışlanmasının şahidi olduğum gənclik illərimdən başlayaraq, ana dilinin qorunması əsas qayğılarımdan biri olub. 1978-ci il Azərbaycan SSR konstitusiyasının müzakirəsində də dilimizin dövlət dili statusu alması uğrunda səsini ilk qaldıranlar sırasında Yazıçılar İttifaqı və bizlər var idik. Şeir kitablarımdan birinin "Sağ ol, ana dilim" adlandırılması da təsadüfi deyildi. Latın qrafikasına keçid məsələsini də 1989-cu ildən buraxdığımız "Azərbaycan" qəzetində biz qaldırmışdıq və sonra müstəqil Azərbaycanın parlamentində bunu qanunla həyata keçirdik.

Ölkə rəhbərliyi dilimizin qorunması haqqında dəfələrlə sərəncamlar verib, proqramlar hazırlanıb. Lakin ana dilinin qorunması hər bir vətəndaşın vəzifəsidir. Mənim yaratdığım "Azərbaycan dil qurumu" adlı ictimai təşkilat da dilimizin qorunması və inkişafı məsələlərinə kömək məqsədi daşıyır. Gənclərin dilə münasibət məsələsi isə məncə daha çox onların ailələrinin problemidir. Küçədə, meydanda rusca danışan gənclərlə söhbət edərkən onların bu məsələyə çox ayıq və ağıllı münasibətinin şahidi olmuşam: "bizim nə günahımız, valideynlərimiz uşaq ikən bizi rus məktəbinə qoyublar və nəticədə rusca düşünürük...". Yəni dilimizi qorumaq istəyiriksə, ana dilli məktəblərimizi qorumalı və uşaqlarımızı bu məktəblərdə oxutmalıyıq.

Son məlumatlara görə dünyada 8 mindən artıq dil var, amma onların bir çoxu sürətlə sıradan çıxır, unudulur. Dünya əhalisinin böyük hissəsi təxminən 15-20 dildə danışır. Türk dili də bu dillərdən biridir. Dünyanın ən qədim və geniş yayılmış dillərindən olan Türk dil qrupunun və o sırada Azərbaycan türkcəsinin gələcəyinə nikbin baxıram. Tarix boyu bizim ilahiyyatımız ərəbcə, siyasətimiz farsca olsa da, ruhumuz türk dilində yaşayıb. Yüz illər üstümüzə gələn böyük güclərin rəsmi dilləri qarşısında sınmayan, əksinə, böyüyüb təmizlənən dilimiz, texnologiyalar və qloballaşma təhlükəsinə də müqavimət göstərib yaşayacaq. Qloballaşma böyük güclərin ortaya atdığı texniki və intellektual istismara yol açır.

Dünyanı vahid bir dövlətə çevirib, vahid bir dildə danışdırmaq arzusu, bəlkə də yaxşı niyyətdir, lakin həmişə iflasa uğrayıb. Dünya xalqlarının hər biri öz dili, mədəniyyəti, milli xarakteri ilə gözəldir. Şair və yazıçılar ana dilinin əsgərləridir. Söz bizim səngərimizdir və orada sonuncu patrona - sonuncu sözə kimi vuruşmalıyıq. Şair və yazıçıların ən böyük xidməti öz ana dillərində gözəl əsərlər yazmaq və bu dilin sehrini, cazibəsini qoruyub saxlamaqdır. Bəzən bir dəyərli əsəri orijinalda oxumaq üçün onun yazıldığı dili öyrənirlər.

Şair və yazıçılar isə ana dilinin qorunmasına, ilk növbədə, yazdığı əsərlə xidmət edirlər. Əgər bir əsər oxunur, əldən-ələ gəzirsə, o artıq dilin də inkişafına təsir göstərir. Dilə olan marağı artırır. Bu mənada, elə əsərlər yazılmalıdır ki, onu oxusunlar. Kitablar oxucuya əlçatan deyilsə, kitabxanaların bir hissəsi ləğv olunubsa, bu, böyük bəladır. Elektron kitabxanalarda da kitablarımızı yerləşdirmək çox vacibdir. Eyni zamanda, dünya ədəbiyyatı ardıcıl şəkildə tərcümə olunmalıdır.

***– Bəs mədəniyyət sahəsində sizi ən çox narahat edən nədir?***

– İllər uzunu bizdə qəribə bir meyil müşahidə etmişəm. O şey ki, tariximizi qədimləşdirir, zənginləşdirir, o şey ki, Azərbaycan mədəniyyətinin halal malıdır, yüzlərlə müqavimətə rast gəlir. Lakin tariximizi təhrif edən ziyanlı fikirlər özünə çox tez yol tapır.

Mədəniyyət millətin həyat tərzidir: geyim-keçim, mətbəx, danışıq, ünsiyyət formaları, milli dəyərlərə münasibət və s. nəticə etibarilə mədəniyyətimizin göstəriciləridir. Təəssüf ki, həmişə olduğu kimi, yenə "idxal olunan" dilə və mədəniyyətə meyilliyik. Xarici paltarları bədənimizin, xarici mədəniyyətləri ruhumuzun libasına çevirir, bunu müasirlik və üstünlük hesab edirik. Bundan bəsit yanaşma ola bilməz. İlk növbədə, bu xəstəliyin sağaltmasının qayğısına qalmalıyıq.

***– Sizcə, milli kimlik duyğusunu daha çox hansı ədəbi növ, janr ifadə edə bilər–poeziya, nəsr, yoxsa dramaturgiya?***

– Bizim mühitimizdə kütləvilik baxımından poeziya ilə müqayisə oluna bilən ədəbi janr yoxdur. Lakin tarixi xatırlayanda dramaturgiyanın nə qədər təsirli və cəlbedici bir sahə olduğunu görürük. Qədim yunan şəhərlərinin, demək olar ki, hamısında açıq hava teatrları, amfiteatrlar vardı. Onların təsəvvüründəki allahların və cəmiyyətin bütün sorunları bu səhnələrə çıxarılır və oradan sürətlə bütün topluma yayılır, yaddaşlara köçürdü.

Bizdə peşəkar teatrın tarixi o qədər də qədim deyil, lakin M.F.Axundzadənin "Hacı Qara", C.Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "Od gəlini", Hüseyn Cavidin "İblis", Səməd Vurğunun "Vaqif" pyeslərinin cəmiyyətdə necə qarşılandığı və insanlara necə təsir göstərdiyi bəllidir. Cəlil Məmmədquluzadənin nəsri və Mirzə Ələkbər Sabirin "Hophopnamə"si də milli kimliyin, siyasi işğal nəticəsində xalqın uğradığı deformasiyanı və sağalmaq yolunu göstərmək baxımından parlaq örnəklərdir.

"Avesta"nın ev tikməyə, yurd salmağa, torpaq becərməyə, halal əməyə çağıran nəğmələrindən, "Dədə Qorqud"un Vətən yolunda ölümü şərəf sayan qəhrəmanlıq boylarından üzü bəri Azərbaycan bədii sözü həmişə insanlığın əbədi qayğılarından danışmış, ədalətin, düzlüyün, nəcibliyin, azad düşüncənin tərəfində dayanmışdır.

***– Siz həm də Azərbaycanın siyasi tarixində fəal rol oynamısınız. Ədəbiyyatdan siyasətə keçid hansı zərurətdən yarandı?***

– Mən ədəbiyyatla siyasət arasında uçurum və ya sədd görmürəm. Böyük ədəbiyyatla böyük siyasət arasında müəyyən məqsəd bağlılıqları da var. Əslində, mən bunların hər ikisinə milli-mənəvi quruculuq işi kimi baxıram. Siyasətdən çox uzaq görünən əsərlərin də nəticə etibarilə siyasi bəhrələr verdiyinə dair misallar çəkmək olar. Dahi şairlərimiz Nizami Gəncəvi də, Füzuli də siyasətdən uzaq olmayıblar. Şah İsmayıl Xətai, Vaqif, Mirzə Fətəli Axundzadə, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov... Hamısının taleyində və yaradıcılığında siyasətlə ədəbiyyatın bir-birini tamamladığını görürük.

Məni siyasətə öz yazılarım gətirib. Lakin deputat, siyasi partiya rəhbəri olmağım bir sıra problemlər yaradıb. Ədəbiyyat aləmində "yazıçının siyasətdə nə işi var?", və yaxud "o artıq bizdən aralanıb" deyiblər, mənə qarşı bir soyuqluq yaranıb. Bəzən hətta ədəbi-icmalarda belə adım çəkilməyib. Siyasət mühitində də "yazıçının siyasətdə nə işi var, gedib əsərlərini yazsın" deyib bizlərə xor baxanlar da olub. Amma məncə, hər iki yanaşma yanlışdır. Yazıçı öz vicdanına, milli ideallarına bağlıdır və siyasətin də bu dəyərlərə çox ehtiyacı var. Mən bu cür yazmış və bu cür yaşamışam. Bütün ömrünü faciəli bir aldanışla qondarma ideologiyalara sərf etmiş ədəbiyyat adamları boş əllə və boş ürəklə ortada qalırlar.

***– Bugünkü Azərbaycan siyasətində ziyalı sözü necə əks-səda verir?***

– Ziyalı bütün dövrlərdə gizli və ya açıq şəkildə cəmiyyəti yönləndirən, onun düşüncələrini aydınlaşdıran əsas güc olub. Bu gün də siyasətimizdə əsas söz sahibləri ziyalılardır. Bu sözün çəkisi azdır-çoxdur bunu müəyyənləşdirmək çətindir. Mətbuatda və ara danışıqlarında tez-tez "haradadır bizim ziyalılarımız?", "ziyalılarımız hara baxırlar?" kimi narazılıqlara rast gəlirik. Zaman "ziyalı" anlayışının mahiyyətini və çəkisini dəyişib.

Bir vaxtlar ziyalı deyiləndə yalnız oxumuş, savadlı adamlar nəzərdə tutulurdu. Yəni yazı-pozunu bilən, kitab oxuyan və elmlərdən başı çıxan, işıqlı adam, aydın. Lakin aydın olmaq yetərli deyil. Ziyalı toplumun yolunu aydınlatmalıdır. Bu cür ziyalılar – Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Cəlil Məmmədquluzadə, Sabir, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli səviyyəsində ziyalılar hər zaman yetişmir.

Yəqin, elə buna görə də indi oxumuşların sayı artsa da, ziyalıların sayı o qədər də artmır. Millətin ziyalıdan gözləntisi çoxdur, hər zaman onun sözünə ehtiyac duyur. Lakin ziyalı sözü hər zaman bərkdən səslənmir, şifahi deyilmir, çox vaxt yazılır, oxu səviyyəsi aşağı düşdükcə, xalq yazılan kitablardan məlumatsız olduqca yazıçıdan və ziyalıdan narazılıq da artır. Məncə, ziyalıya qiymət verməzdən öncə onu tanımaq, gördüyü işlərin mahiyyətinə varmaq, əsərlərini oxumaq lazımdır.

***– Gənclərin siyasətə marağı və fəallığı sizi qane edirmi?***

– Qane etmir. Böyük bəstəkarımız Qara Qarayevin bir sözü var. Sənətdə vakuum olmaz, olsa onu antisənət tutacaq. Siyasətdə də belədir. Yüksək intellektli, ağıllı, xarici dilləri bilən, öz millətini sevən gənclər yaradıcılığı bəhanə edib siyasətdən kənarda dayansalar onların yerini vecsiz adamlar tutacaq. Kənardan baxıb irad bildirməklə heç nəyi dəyişmək olmur. Yaxşısı budur, proseslərin iştirakçısı olasan və xalqın istəklərinin gerçəkləşməsi, dövlətinin nüfuzunun yüksəlməsi yolunda çalışasan.

***– Milli Məclisdə səsləndirdiyiniz hansı təşəbbüsünüzü qürurla xatırlayırsınız?***

– 1990-cı il seçkilərindən sonra mən Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin üzvü və Qaçqınlarla İş Komissiyasının sədri idim. Qəsdən bu çətin sahəni mənə tapşırmışdılar. Yəni "müxalifətçidir, həmişə narazılıq edir, qoy indi işləsin, görək bu çətin vəziyyətdən necə çıxacaq?". Ən ciddi işlərimdən biri Ermənistandan köçüb gələnlərin Bakıda ermənilərlə ev dəyişməsinə və onların qeydiyyata alınmasına kömək göstərməkdir. Bundan əlavə, mən "Müstəqil Azərbaycan" deputat blokunun həmsədri idim. İstiqlalçı deputatlardan biri olaraq, SSRİ-nin tərkibindən çıxmağa səs vermişdim (17 mart, 1991).

Müstəqillik bəyannaməsi (30 avqust, 1991), "Dövlət Müstəqilliyinin Bərpası haqqında Konstitusiya Aktı" (18 oktyabr, 1991) bizim təşəbbüs və təzyiqimizlə qəbul edilmişdi. Bundan sonra dil, əlifba, elm, təhsil və mədəniyyətimizin müxtəlif sahələri ilə bağlı bütün qanunların qəbulunda fəal iştirak etmişəm. Parlamentdə olduğum illərin ən ciddi hadisəsi 1991-ci ilin 18 oktyabrında qəbul etdirdiyimiz "Dövlət Müstəqilliyinin Bərpası haqqında Konstitusiya Aktı"dır. Həmin gün sevincimizdən ağlayırdıq. O vaxt yazmışdım ki, 18 oktyabr 1991-ci il mənim ən xoşbəxt günümdür.

***– Bu gün gənclik illərinizdəki Sabir Rüstəmxanlıya nə demək istərdiniz?***

– Çətin sualdır. Onsuz da gənclik illərinin Sabiri tərs idi və sözümə baxmayacaqdı. Hansı yolu seçmişdisə, elə o yolla gələcəkdi. Amma hər halda ona "ata-anana daha həssas ol, ömür əbədi deyil, onlara olan sevgini sıxılmadan bildir, daha tez-tez get və onlara daha çox vaxt keçir!", – deyərdim.

Cəmiyyətimiz dəyişilib, ehtiyac, maddi sıxıntılar, işsizlik adamları bezikdirəndə hətta müstəqillik uğrunda mübarizə aparanları da günahlandırırlar. Şeirlərimin birində demişdim "Şöhrət artıranın qeybəti artır". Yəni yolsuz - izsiz, ucqar bir kənddə, ətrafında ancaq dağları və başının üstündə mavi göyləri və ulduzları görən gənc oğlan dünyanı gəzib dolanandan və bir çox arzularına qovuşandan sonra tez-tez atasının ona məsləhətlərini xatırlayır. Atam balaca ocağından böyük dünyanı görürdü. O mənə "siyasətdən uzaq dur" deyirdi. Onun bu sözləri şeirə belə köçmüşdü:

**"Hökumətə sataşma, silahın yox,**
**ordun yox,**
**Arxada dayanmağa sözü bütöv**
**yurdun yox,**
**Aradan götürərlər, izin,**
**tozun da qalmaz,**
**Kitabını bağlarlar,**
**bircə sözün də qalmaz.**
**Malımız, mülkümüz yox,**
**başımızı soxmağa**
**Başqa bir ölkəmiz yox, ölən yerimiz bura, qalan yerimiz bura...**
**Hər dost deyən dost deyil,**
**saxtadır dilində can,**
**Ayağın büdrəyəndə qaçacaqlar**
**arxandan..."**

Amma sonra məni hadisələrin gur axarında görəndə: "İndi ki, bu yolu seçdin, sona kimi get" demişdi. Sona kimi getdik və müstəqilliyimizə nail olduq.

***– Yazmadığınız, macal tapmadığınız hansısa mövzu varmı?***

– Yaş artdıqca, mövzular da artır, amma yazmağa vaxt və güc çatmır. 15 cildlik seçilmiş əsərlərim nəşr olundu. 5-6 cildlik də kənarda qalan yazılarım var. Onları da səliqəyə salmalıyam, ancaq içimə dolan yeni mövzular buna mane olur.

***– Oxucularınıza və gənc yazarlara sözünüz?***

– Oxucu səsi, onun verdiyi qiymət sənətkarın mənəvi dayağıdır. Bu səs xalqın səsidir. Oxucu öz məktublarında sadə, səmimi sözlərlə bəzən, hətta tədqiqatçıların da duya, deyə bilmədikləri, yan keçdikləri həqiqətlərdən danışır. Onları bədii əsərin yaşamaq iqtidarına aydınlıq gətirən barometrə bənzətmək olar.

Oxuculara demək istərdim ki, "bizdə ədəbiyyat yoxdur, yazarlarımız dünya miqyasına çıxa bilmirlər" kimi təbliğatına uymasınlar. Biz də dünyanın bir parçasıyıq. Qoy onlar dünya ədəbiyyatı ilə yanaşı, öz ədəbiyyatımızı da oxusunlar, sevsinlər, tanıtsınlar. Gənc yazarlarımıza isə çətinlikdən qorxmamağı, böyük amallarla düşünməyi, yaşamağı, ənənələrimizə sayğı ilə yanaşmağı və yaradıcılıqdan zövq almağı arzulayıram.

***– Maraqlı söhbətə görə təşəkkür edirik.***

– Sağ olun.

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

# Zəfər yürüşünün Şuşa zirvəsi

(əvvəli qəzetin 8 noyabr tarixli sayında)

**Şuşa şəhəri əsası qoyulduğu vaxtdan Azərbaycanın milli və mədəniyyət mərkəzi olmaqdan əlavə, həm də strateji mövqeyi ilə mötəbər müdafiə qalası olmuş, ətraf bölgənin nəzarət altında saxlanması üçün əlverişli məkana çevrilmişdi. Birinci Qarabağ savaşı zamanı şəhərin məsuliyyətsizlik və xəyanətin qurbanı olması çevrədəki yaşayış məntəqələrinin və rayonların da müdafiəsini zəiflətmiş və işğal olunmasını asanlaşdırmışdı.**




Bu şəhərin işğal altında saxlanmasına nail olmaq üçün Ermənistanın keçmiş müdafiə naziri buradakı müdafiə işlərinə rəhbərliyi öz üzərinə götürmüşdü. Rəsmi şəkildə Şuşanın müdafiəsinə rəhbərlik etmədiyini bildirən Ermənistanın keçmiş müdafiə naziri öz ətrafında könüllü dəstə formalaşdıraraq Azərbaycanın hərbi qüvvələrinə qarşı müqaviməti gücləndirməyə çalışırdı. Bununla bağlı, qondarma qurumun rəhbəri ona, hətta öz təşəkkürünü də elan etmişdi.

Amma Azərbaycanın xüsusi təyinatlı hərbi qüvvələrinin möcüzəvi şəkildə Şuşaya daxil olması və bu şəhərdə dislokasiya olunmuş erməni hərbi qüvvələrinin neytrallaşdırılması onların göstərdiyi şücaət və qəhrəmanlıq erməni hərbi qüvvələrinin müqavimət gücünü məhv etdi. Ona görə də əlavə erməni hərbi qüvvələrinin Şuşaya cəlb edilməsi, bu şəhərdəki qüvvələrin yenidən təşkilatlandırılması üçün görülən tədbirlərin heç bir nəticəsi olmadı.

Şuşaya toplanmış olan erməni generalları, onların rəhbərliyi altında olan erməni qarnizonu Azərbaycan Ordusunun, ölkəmizin xüsusi təyinatlı qüvvələrinin sarsıdıcı zərbələri altında parça-parça oldular. Azərbaycanın gücü qarşısında aciz duruma düşən erməni generalları, böyük ümidlərlə bu şəhəri qoruyacağını bəyan etmiş Ermənistanın keçmiş müdafiə naziri isə elə noyabr ayının 6-da Şuşadan qaçmaqla öz canlarını xilas edə bildilər.

Şuşanın azad edilməsi döyüşünün iştirakçılarından birinin açıqladığı məlumata görə, xüsusi təyinatlı qüvvələrdən təşkil edilmiş hücum dəstələrindən biri meşələrdən, keçilməz qayalardan, dağ cığırlarından adlayaraq Şuşanın ətrafındakı erməni qüvvələri ilə qəfil şəkildə rastlaşdılar. Xüsusi təyinatlı qüvvələr rastlaşdıqları erməni postunu səssiz-səmirsiz alandan sonra üç gün orada qalıb əsas qüvvələrin yetişməsini gözlədilər.

Şuşa döyüşünün başqa bir iştirakçısı iştirak etdiyi döyüşü belə təsvir edirdi: "Şuşaya kanatla qalxdıq, yarım metr qarda 14 saat kəşfiyyatdan sonra 400 nəfər o dağı dırmaşmalı idi. Bıçaq, tapança, "limonka" ilə döyüşə gedirdik. Bizi nə gözlədiyini bilirdik. 500 erməni əsgərinin biz daxil olan tərəfdə olduğu məlumatını əldə eləmişdik. Ən az sayda bu tərəfdə yerləşmişdilər, başqa mövqelərində ağır artilleriya və canlı qüvvə sayı buradakından azı üç dəfə çox idi. Çünki onlar bizim yollardan hücum edəcəyimizi güman edirdilər. Nəinki onların, heç kəsin ağlına gəlməzdi ki, biz bıçaqla Şuşanı almağı düşünürük. Generalımızın (Hikmət Mirzəyev) düzgün döyüş tapşırığı, düzgün koordinatlar olmasaydı, məhv ola bilərdik. Amma hər şey zərgər dəqiqliyi ilə ölçülüb-biçilmişdi.

Biz qayaları dırmaşıb əlbəyaxa döyüşə girdik. Dəqiq deyə bilməyəcəyəm, təxmini desəm, 40-a yaxın erməniyə bıçaq salıb-çıxarmışam həmin hücum anı. Onların arasına düşən panika belə general tərəfindən hesablanmışdı. Panika yaranan kimi tapşırıq əsasında hərəmiz dəstə-dəstə əks–istiqamətlərə dağılışdıq. Ermənilər artıq həyəcan və qorxudan özlərinə atəş açırdılar. Şuşa döyüşü bizim əzəmətimizi, gücümüzü, əsgərimizin qorxmazlığını onlara göstərdi. Onlar Şuşanı 1 il dayanmadan müdafiə edə biləcək sayda silah-sursat və canlı qüvvə ilə təmin eləmişdilər".

Prezident İlham Əliyev isə xüsusi təyinatlı qüvvələrin Şuşa şəhərinin erməni işğalından azad edilməsi sahəsindəki xidmətlərini belə dəyərləndirirdi: "Bizim bütün əsas həlledici əməliyyatlarımızda xüsusi təyinatlılar ön sırada idilər. Digər hərbi birləşmələr ilə birlikdə şəhər və kəndlərimizi azad edən xüsusi təyinatlıların rolunu mən xüsusilə vurğulamaq istəyirəm. Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən o sıldırım qayaları görəndə hər dəfə mənim gözlərimin önünə siz gəlirsiniz. Bu alınmaz qala necə alındı - yüngül silahlarla, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə. Qarşıda, yuxarıda, dağın başında təpədən dırnağa qədər silahla, topla, tankla silahlanmış ermənilər sizin qarşınızda aciz idilər.

Yəni sizi ölümə aparan, "öldü var, döndü yoxdur" deməyə vadar edən Vətən sevgisi idi və biz bunu nümayiş etdirdik. Şuşanın azad olunması müharibənin ən parlaq səhifəsidir. Bu gün dünyanın aparıcı hərbi məktəblərində Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar öyrənilir".

Şuşa yürüşündə iştirak etmiş digər döyüşçülərin də xatirələrindən göründüyü kimi, bu şəhərin azad edilməsi üçün əlbəyaxa döyüşlərdən geniş istifadə olunmuşdu. Çünki qeyd edildiyi kimi, xüsusi təyinatlı qüvvələrin ilk bölmələri və dəstələri şəhərə soyuq və şəxsi silahlarla daxil ola bilmişdilər.

Şəhərin azad edilməsinin tarixi bənzərsizliyi onda idi ki, erməni hərbi-siyasi rəhbərliyinin, bütünlükdə dünya erməniliyinin və onların havadarlarının qorunub saxlanmasına xüsusi diqqət yetirdiyi və bunun üçün bu şəhərə böyük bir qarnizon topladığı halda Azərbaycanın ilkin olaraq kiçik saylı hərbi qüvvələri bu şəhərin mühüm məntəqələrini əlbəyaxa döyüşlərlə ələ keçirmişdilər.

Azərbaycan döyüşçülərinin bu hünərini son nəhayətdə həm ermənilər, həm də onların himayədarları da etiraf etmək məcburiyyətində qalmışdılar. Məsələn, Fransanın "Le Monde" qəzetinin Xankəndidəki müxbiri yazırdı ki, Şuşadan gələn yaralılarda əsasən güllə və bıçaqla yaralanmışdılar. Güllə yaraları tapança yaraları idi. Bu o deməkdir ki, Şuşa şəhəri Azərbaycan döyüşçüləri ermənilərlə əlbəyaxa olaraq döyüşmüş və bu şəhəri azad etmişdilər.

Fransadan olan erməni könüllüsü Şuşada erməni döyüşçülərinin qarşılaşdığı vəziyyəti Azərbaycan döyüşçüləri tərəfindən yaradılmış cəhənnəm kimi qələmə vermişdi. Onun fikrincə, belə bir cəhənnəmlə qarşılaşan erməni döyüşçüsü çox çətin ki, bir də elə bir vəziyyətə düşməyə razı olar. Bu erməni demişdi ki, Azərbaycan xüsusi təyinatlıları ölüm mələyi kimi hiss edilmədən, 3-4 nəfərlik qruplarla hücum edir və hücum etdikləri səngərlərdə ən azı 20-30 ermənínin meyitini qoyub çıxırdılar. O, Azərbaycan döyüşçülərini duman içində irəliləyən və gecə vaxtları ov edən ac canavarlara bənzətmişdi.

Fransalı erməni onu da bildirmişdi ki, 1500 erməni döyüşçüsünün 5-6 Azərbaycan döyüşçüsündən qorxaraq qaçdıqlarına görə qınaq obyekti olmalarını qəbul etmək olmaz. Onun fikrincə, bu 1500 erməni döyüşçüsü qaçmasaydı, onlar 5-6 azərbaycanlının əlində məhv olacaqdılar. Şuşa daxilində baş verənləri isə bu fransalı erməni könüllüsü dəhşət adlandırmışdı.

Dağlıq Qarabağ ətrafında XX əsrin 80-ci illərində başlanan millətçi-separatçı



hərəkatın ideya rəhbərlərindən olan bədnam Z.Balayan kimi bir qaniçənin oğlu isə Azərbaycan döyüşçülərinin şücaətini belə təsvir etmək məcburiyyətində qalmışdı: "Bu, əfsanəvi əməliyyat idi. Sizə səmimi deyirəm. Mən Hadrut yüksəkliklərində idim və hər şeyi öz gözlərimlə görürdüm. Heç cür başa düşə bilmirəm ki, azərbaycanlılar bu yüksəklikləri necə ala bildilər. Ancaq mən hərbi mütəxəssis deyiləm. Yəqin ki, bu azərbaycanlılar bu cür dağ əməliyyatlarına sadəcə yaxşı hazırlaşmışdılar. Çünki Şuşanı götürəndə topçularımız onların üzərində çox yaxşı işləyirdi. Ancaq yenə də irəliləyirdilər. Ölənlərin yerini yüzlərlə, minlərlə yenisi tutur və onlar heç cür bitib-tükənmirdilər".

Noyabrın 6-sı Şuşanın taleyinin müəyyənləşdirilməsi baxımından həlledici gün oldu. Şəhərin girişlərində də güclü müdafiə sistemi yaradılmışdı. Azərbaycan bölmələrinin hücum edəcəyi istiqamətlərdə böyük erməni qüvvələri yerləşdirilmişdi. Həmin istiqamətlərdən erməni müqavimətinin çox ciddi olacağı məlum idi. Ona görə də şəhərə giriş istiqamətlərindən biri kimi, Şuşa ətrafındakı sıldırım qayalıqlar seçildi. Həmin istiqamət ermənilər tərəfindən xüsusi təhlükəli bir istiqamət kimi götürülmürdü. Xüsusi təyinatlı qüvvələr bir daha nəyə qadir olduqlarını nümayiş etdirdilər və ermənilərin gözləmədiyi qayalıqlardan dırmanmaqla şəhərə daxil oldular.

Şəhərə daxil olmuş Azərbaycanın xüsusi təyinatlı qüvvələri gün ərzində yaxın döyüşləri davam etdirməklə erməni hərbi qüvvələrinin şəhərdə yenidən möhkəmlənmək üçün göstərdikləri bütün cəhdlərin qarşısını aldılar. Azərbaycan qüvvələri şəhərə daxil olduqdan sonra erməni hərbi-siyasi rəhbərliyi iki dəfə öz qüvvələrini səfərbər etməklə Şuşaya nəzarəti yenidən bərpa etməyə cəhd göstərdilər. Ermənistanın baş naziri çox böyük təəssüflə öz xalqına çatdırırdı ki, bu cəhdlərin hər ikisi uğursuzluğa düçar oldu.

Şuşanın işğal altında qorunub saxlanması üçün noyabr ayının 6-da kənardan bu şəhərə erməni zirehli texnikasının gətirildiyi də müşahidə edildi. Güman edilirdi ki, bu zirehli texnikanı erməni hərbi komandanlığı cəbhənin Ağdam istiqamətindən çıxararaq Şuşaya gətirmişdi. Lakin bu zirehli texnika da ermənilərin köməyinə çatmadı və şəhərdəki Azərbaycan hərbi qüvvələrini sıxışdırmaq mümkün olmadı. Kənar müşahidəçilərin qənaətincə, Azərbaycan hərbi qüvvələri noyabrın 6-da artıq şəhəri tamamilə erməni qüvvələrindən təmizləyə bilərdi. Lakin bu qüvvələr Azərbaycanın əsas qüvvələrinin Şuşaya gəlib yaxınlaşmasını, həmin qüvvələr tərəfindən şəhərin əhatələnməsini və giriş-çıxış yollarının tam şəkildə nəzarət altına alınmasını gözləməli oldular.

Erməni təbliğat mənsubları noyabrın 6-da da erməni ordusunun məğlubedilməzliyi, Şuşa ətrafında az qala bütün Azərbaycan Ordusunun məhv edilməsi haqqında uydurmalar tirajlasa da, xarici mətbuat orqanları elə həmin gün Şuşada Azərbaycan bayrağının artıq dalğalanmağa başlaması, ermənilərin məğlubiyyətlə barışaraq Xankəndiyə tərəf geri çəkilməsi haqqında məlumatları dərc etməyə başlamışdılar. Belə məlumatlar Rusiyanın və Fransanın kütləvi informasiya vasitələrində işıq üzü görmüşdü.

Gün ərzində Şuşanın ətrafında və cəbhə xəttinin digər sahələrində də gərgin döyüşlər davam etdi. Bu döyüşlərdə Azərbaycan Ordusunun vurduğu sarsıdıcı zərbələr erməni silahlı qüvvələrinin süqutunu daha da yaxınlaşdırdı. Belə sarsıdıcı zərbələrdən sonra Ermənistandan gətirilmiş 522-ci və 566-cı motoatıcı alaylar döyüş xəttinə çıxmaqdan imtina etdilər, Xankəndi yaxınlığında başqa bir böyük silah-sursat anbarı sıradan çıxarıldı, Xocavənd istiqamətində bir erməni generalı və iki polkovniki məhv edildi. Başlıcası isə Azərbaycanın hərbi qüvvələri Şuşa daxilində və xaricində möhkəmləndilər və cəbhəboyu erməni ordusuna vurulmuş sarsıdıcı zərbələr bu ordunu məhv olmaq dərəcəsinə çatdırmaqla Şuşa ətrafındakı erməni qüvvələrinə əməli kömək göstərilməsi imkanlarını minimuma endirdilər.

Bununla belə, Ermənistanın hərbi-siyasi rəhbərliyi Şuşa şəhərinin işğal altında saxlanması üçün bütün güclərini səfərbərliyə aldılar, şəhəri raketlərlə atəşə tutmaqdan belə çəkinmədilər. Amma erməni hərbi qüvvələri Azərbaycan Ordusunun zərbələri qarşısında duruş gətirə bilmədilər və çoxlu sayda itki verərək şəhəri tərk etmək məcburiyyətində qaldılar.

Noyabr ayının 7-də Şuşa şəhərinin taleyi həll edildi və bu şəhər Azərbaycan Ordusunun qalib hücumu ilə erməni işğalından tamamilə azad edildi. Yəni məğlubedilməzliyi haqqında saxta miflər və uydurmalar yaradılmış erməni ordusu qərar tutduğu son dərəcə əlverişli mövqelərin təbii üstünlüklərinə baxmayaraq, Azərbaycan Ordusu qarşısında məğlub duruma düşdü. Bununla Azərbaycan xalqının qürur simvolu olan və 28 il erməni işğalı altında böyük dağıntılara məruz qalan Şuşa şəhəri yenidən öz azadlığına qovuşdu.

Həmin gün Şuşa Şəhər İcra Hakimiyyətinin binası da erməni qüvvələrindən təmizləndi. Gündüz Səfərlinin rəhbərlik etdiyi xüsusi təyinatlı bölmənin şəxsi heyəti üzərində şəhid yoldaşlarının adı yazılmış Azərbaycan bayrağını binanın damına qaldırdılar. Bayrağı xüsusi təyinatlıların kapitanı Rəşad Məmmədov binanın üzərinə sancdı. Üçrəngli Azərbaycan bayrağı bu bina üstündə dalğalanmağa başlayanda bölmənin şəxsi heyəti Azərbaycan himnini oxudular. Ardınca isə döyüşçü Yaşar Hüseynovun verdiyi azanın səsi havaya yüksəldi.

Bu şərəfli və qürurlu tarixi hadisə ilə bağlı noyabr ayının 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əvvəlcə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını, sonra isə Şəhidlər xiyabanını ziyarət etdi. Şəhidlər xiyabanında olarkən İlham Əliyev radio və televiziya ilə Azərbaycan xalqına müraciət etdi və tarixi qələbənin sevincini Azərbaycan xalqına belə çatdırmışdı: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

28 il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq".

Bu böyük Zəfərin xəbərinin Şəhidlər xiyabanından elan edilməsi heç də təsadüfi deyildi. Bunu respublika Prezidenti özü də bəyan etmişdi. Belə bir sevincli xəbərin Şəhidlər xiyabanından elan edilməsi Vətən torpaqları uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinə ehtiram və onların axıtdıqları qanın qisasının alınmasına bir işarə idi. Ulu öndərin məzarının ziyarət edilməsi isə onun siyasi uzaqgörənliyinin və arzularının həyata keçməsinin təsdiqi idi.

Prezident İlham Əliyev xalqa müraciətində yalnız Şuşa zəfərinin sevincini bölüşmədi. Ali Baş Komandan həm də bu zəfərə yol açan amillər kompleksinin şərhini vermişdi. Bu amillərin mahiyyəti ondan ibarət idi ki, Şuşa zəfərinin qazanılması Azərbaycanın dövlət rəhbərliyinin uzunmüddətli, çoxsahəli və məqsədyönlü siyasətinin və fəaliyyətinin məntiqi nəticəsi idi.

Dövlət başçısı İlham Əliyev öz müraciətini belə tamamlamışdı: "17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Noyabr ayının 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələrinin komandanı general-leytenant Hikmət Mirzəyevə zəng etdi və Şuşa şəhərinin azad edilməsində bu qüvvələrin göstərdiyi tarixi xidmətlərə görə öz təşəkkürünü bildirdi.

Şuşa şəhərinin azad edilməsi Vətən müharibəsinin gedişində həlledici hadisəyə çevrildi. Məhz bu şəhərin azad edilməsi ilə müharibənin gedişində çox böyük strateji üstünlük əldə edildi, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan xalqının, dövlətinin və ordusunun qarşısında diz çökməyə məcbur olaraq noyabr ayının 10-da kapitulyasiya sənədini imzalamalı oldu. Şuşa şəhərinin erməni işğalından təmizlənməsi Azərbaycan xalqının Vətən müharibəsindəki böyük Zəfərinə və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə yol açdı.

İşğal altında olan bütün yaşayış məntəqələri kimi, Şuşa da erməni millətçi-təcavüzkarlarının ən sərt üzü ilə qarşılaşmalı olmuşdu. Bu şəhər demək olar ki, bütünlüklə dağıdılmış, az qala bir xarabalığa çevrilmişdi. Şuşanın işğaldan sonrakı görünüşü əslində, erməni faşizminin mahiyyətinin əyani nümayişi idi. Burada heç bir mədəniyyət və təbiət abidəsinə rəhm edilmədən dağıdılmış, Azərbaycan tarixini və mədəniyyətini xatırladan hər şey vəhşicəsinə məhv edilmişdi.

Prezident İlham Əliyev erməni işğalının davam etdiyi vaxtda Şuşada yaranmış vəziyyəti belə təsvir etmişdi: "Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır".

Şuşanın azad edilməsindən dərhal sonra da Azərbaycanın bu qədim mədəniyyət mərkəzinin bərpa edilməsinə və dirçəldilməsinə başlandı. Respublika Prezidentinin də qeyd etdiyi kimi, bu miqyaslı işlərin aparılması üçün Azərbaycan təkbaşına, öz imkanlarını səfərbərliyə almalı oldu. Əslində, böyük Zəfərin əldə edilməsindən sonra işğaldan azad edilmiş bütün ərazilər böyük quruculuq meydanına çevrildilər. Erməni faşizminin, təxminən, 30 il ərzində söküb-talayıb tanınmaz hala qoyduğu Azərbaycan torpaqlarında yeni həyat canlanmağa başladı.

Şuşada həyata keçirilən tikinti-quruculuq işləri bütünlükdə azad edilmiş ərazilərdə aparılan quruculuq işlərinin tərkib hissəsi olsa da, bu şəhərin dirçəldilməsinə respublika rəhbərliyi xüsusi diqqət yetirirdi. Bu münasibəti ölkə rəhbəri İlham Əliyev belə dəyərləndirmişdi: "İndi isə biz Şuşaya qayıtmışıq, biz Şuşanın sahibləri qayıtmışıq və əbədi orada yaşayacağıq. Şuşanın bərpası bütün digər azad edilmiş torpaqlarla yanaşı, əlbəttə ki, çox önəmlidir və hesab edirəm ki, prioritet olmalıdır. Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir. İndi Şuşada artıq bərpa işləri gedir, bəzi tarixi abidələr bərpa edilib və bu il görüləcək işlərlə bağlı tapşırıqlar vermək istəyirəm. Tarixi abidələr bərpa edilir, Heydər Əliyev Fondu 3 məscidi əsaslı şəkildə bərpa edir, eyni zamanda, yeni məscidin inşası yaxın aylarda başlanacaq. Artıq yer müəyyən olundu, biz onun təməlini qoyduq".

Qarşıya qoyulan tarixi vəzifələri uğurla yerinə yetirilməsi üçün Şuşaya yeni bir yol çəkildi və bu yol Zəfər yolu adlandırıldı. Mürəkkəb coğrafi ərazilərdən keçən bu yola respublika Prezidenti tərəfindən əldə edilmiş tarixi qələbənin şərəfinə Zəfər yolu adı verildi. Eyni zamanda şəhərin digər infrastrukturunun bərpasına və yenidən qurulmasına başlandı.

Prezident İlham Əliyev çıxışlarının birində Şuşanın dirçəldilməsi üçün görülən işlərin miqyasını belə qeyd etmişdi: "Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi".

Sonra "Xarıbülbül" oteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı. Şuşanın işğaldan azad edilməsindən sonrakı ilk ildə 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası istifadəyə verildi, 960 şagirdlik 1 nömrəli ümumtəhsil məktəbinin təməli qoyuldu, yeni və əzəmətli bir məscidin təməli qoyuldu, "Qarabağ" hotelinin açılışı oldu, dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı oldu, onun məqbərəsinin təmiri üçün böyük işlər görüldü və tamamlandı, xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyi bərpa edildi, Üzeyir Hacıbəyovun yeni heykəlinin açılışı oldu, vaxtilə ermənilər tərəfindən Şuşa şəhərində Üzeyir Hacıbəyovun, Natəvanın və Bülbülün güllələnmiş heykəlləri yenidən öz əvvəlki yerlərinə qaytarıldı.

Şuşanın tarixi binalarının bərpasının və yeni yaşayış binalarının tikintisi sonrakı illərdə də davam etdirildi. Şəhərin tarixi arxitekturası gözlənilir, bu arxitekturaya yad olan binaların tikintisinə yol verilmir. Artıq minlərlə məcburi köçkün yeni tikilmiş məhəllələrdə məskunlaşıb.

Şuşada artıq "Xarıbülbül" festivalı bərpa edilib. Hər il Vaqif poeziya günləri keçirilir. 2022-ci ildən şəhərdə bir sıra respublika və beynəlxalq miqyaslı məclislər keçirilib. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 2022-ci il Azərbaycanda "Şuşa ili" elan edilib. 2023-cü il üçün isə Şuşa şəhəri "Türksoy"un qərarı ilə "Türk dünyası mədəniyyət mərkəzi" olub.

Təxminən, 30 il doğma nəfəsdən uzaq düşsə də, Şuşa 5 ildir ki, azaddır və tarixinin, bəlkə də ən sürətli inkişaf dövrünü yaşayır. Bu şəhər uzun əsarətdən sonra doğma insanlara qucaq açdığı kimi, doğma insanlar da onu dirçəldirlər, qeyrət qalasının tarixi şöhrətini, müqəddəsliyini özünə qaytarırlar. Şuşada həyat gündən-günə qaynarlaşır. Şuşa şəhəri yenidən xoş günlərini yaşayır.

***Mehman SÜLEYMANOV,***
***Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru***

# "Dəmir yumruğ"un diz çökdürdüyü erməni faşizmi

**Bu günlərdə yaddaşlarımızda 44 günlük Vətən müharibəsinin o faciəli, qürurlu günləri yenidən canlanır. Qəhrəmanlarımızın igidliyi ilə fəxr edir, Azərbaycan xalqının əzmini, birliyini, Vətən sevgisini daha dərindən hiss edirik.**

44 gün — bir ömürdən daha çox əhəmiyyətli, daha çox mənalı bir dövr. Bu müddət ərzində torpaqlarımız işğaldan azad edildi, azadlıq bayrağı Qarabağın zirvələrində dalğalandı. Lakin bu zəfərin arxasında şəhidlərimizin qanı, qazilərimizin ağır yaraları, hər birimizin ürəyində dərin izlər var. Bu aralar insanların üz tutduğu ilk ünvanlardan biri də Bakının mərkəzində yerləşən Hərbi Qənimətlər Parkıdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə qəhrəman Azərbaycan əsgər və zabitlərinin qazandığı tarixi zəfərimizin simvolu olan Hərbi Qənimətlər Parkını bu günlərdə ziyarət edənlərin sayı artıb. Parka olan böyük maraq onu göstərir ki, xalqımız Aprel döyüşlərindən başlamış, 44 günlük İkinci Qarabağ müharibəsi və Müzəffər Ordumuzun 2023-cü il 19-20 sentyabr tarixində keçirdiyi lokal xarakterli antiterror tədbirlərilə torpaqlarımızın tam bütövlüyü, suverenliyi ilə nəticələnən qələbənin memarlarını həmişə qəlbində yaşadacaq.

Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun gücünün, qüdrətinin, yüksək döyüş ruhunun nəticəsində təcavüzkar Ermənistanın 30 il ərzində işğal altında saxladığı əzəli-əbədi torpaqlarımız azad edildi. Bu möhtəşəm Qələbə bütün dünyaya xalqımızın torpaq-yurd sevgisini, haqq-ədalət uğrunda mübarizə əzmini, milli birliyini göstərdi.

Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Qələbənin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin iştirakı ilə 2021-ci il aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışı oldu. Bu park Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən 19 il ərzində həyata keçirilən hərbi strategiya və taktikanın əyani sübutudur.

2003-cü ildən indiyədək yürütdüyü siyasətin əsas istiqamətlərini Qarabağ zəfərinə kökləyən, o günün yaxınlaşması üçün daxili və xarici siyasətinin konturlarını düşünülmüş, məqsədyönlü şəkildə quran Müzəffər Ali Baş Komandan hər zaman bildirirdi ki, vaxt gələcək, Qarabağ işğaldan azad olunacaq və bu istiqamətdə qalib xalq kimi zəfərimizi təcəssüm etdirən addımlar atacağıq. Hər addımını incə detalına kimi müəyyənləşdirən, uzaqgörən siyasətçi olan ölkə başçısı hələ müharibənin gedişində bildirirdi ki, düşməndən qənimət kimi götürülmüş və məhv edilmiş texnikanın nümayişi üçün planları da mövcuddur. Bu baxımdan da qürurla deyirik ki, tarixə adını qızıl hərflərlə yazan Ali Baş Komandanımız xalqına verdiyi sözə, həmişəki kimi, yenə də sadiq qaldı. Məhz Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə məhdud zaman çərçivəsində görülən işlərin nəticəsi olaraq açıq səma altında muzey – Hərbi Qənimətlər Parkı salındı.

Bura gələnlər, sadəcə, müharibə eksponatlarına baxmağa yox, həm də öz yaddaşına, milli kimliyinə və tarixi borcuna baş çəkməyə gəlir. Elə bu səbəbdən mən də bu qeyri-adi məkana üz tutdum. Hərbi Qənimətlər Parkına qədəm qoyduğum an hiss etdim ki, bura təkcə sərgi sahəsi deyil. Bura həm də millətin iradəsinin daşlaşmış formasıdır. Ermənistana məxsus tankların, artilleriya qurğularının, zirehli texnikaların nümayiş olunması o deməkdir ki, düşmənin işğalçılıq niyyəti tarixin arxivinə gömülüb.

Ziyarətə gələnlərin ardı-arası kəsilmirdi. Onların arasında şəhid ailələri, müharibə iştirakçıları, müəllimlər, şagirdlər və sıravi vətəndaşlar vardı. Hər kəsin baxışında bir təmkin, bir minnətdarlıq, qürur yaşanırdı. Buradakı hər bir detal, zirehli texnikalar, düşmənin tərk etdiyi avtomobillər, cırılmış əski parçasına çevrilən bayraqları – xalqımızın iradəsinin, Ordumuzun gücünün simvoludur. Tanklar susur, mərmilər dilsizdir. Amma hər biri bir tarix danışır – şanlı Zəfərin tarixini.

Ermənilər vaxtilə Azərbaycan xalqının hissləri ilə oynayaraq, Birinci Qarabağ müharibəsindən sonra ələ keçirdikləri şəxsi maşınların nömrələrini işğal edilmiş torpaqlarda nümayiş etdirir və bununla da azərbaycanlıları öz dədə-baba torpaqlarından didərgin saldıqlarını "sübut etmək" istəyirdilər. Ermənilərin uzun illər ərzində bu lövhəni xarici turistlərə nümayiş etdirərək orduları haqqında yaratdıqları mifi Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində yerləbir etdi. Azərbaycanlılar, əli silahsız əhali, öz şəxsi maşınlarını qoyub çıxmışdılarsa, ermənilər Azərbaycanın Ali Baş Komandanının qətiyyəti, prinsipiallığı, qəhrəman əsgər və zabitlərimizin döyüş əzmi qarşısında tab gətirə bilməyərək postları, ağır texnikalarını, raket komplekslərini, hərbi nəqliyyat vasitələrini, silah və sursatlarını qoyub qaçır, fərarilik edirdilər. Həmin o sursatların hamısı bu gün bu parkda Azərbaycan xalqına və bütün dünyaya nümayiş olunur. Bu, düşmənə ən layiqli cavabdır.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə müharibə cinayətləri törədib. Belə ki, döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Bu gün həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış "İsgəndər M" reketinin qalıqları da var.




Vurğulamaq lazımdır ki, 44 gün davam edən Vətən müharibəsində döyüş, eyni zamanda, informasiya cəbhəsində də davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən – Azərbaycan Prezidentindən alırdı. Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr parkın ərazisindəki videozalda nümayiş etdirilirdi.

Vətənimiz Azərbaycan üçün siyasi anlamda çox uğurlu hadisə olan Silahlı Qüvvələrimiz tərəfindən 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı düşmənin belini qıraraq qənimət götürdükləri "T-72" tankı və BMP (piyadaların döyüş maşını) da Hərbi Qənimətlər Parkına gətirilib.

Vətən müharibəsinin gedişatı barədə sərgilənən eksponatlar Azərbaycana zəfər qazandıran döyüşləri göz önündə canlandırmağa imkan yaradır. Çünki burada 44 günlük müharibənin, demək olar ki, bütün ssenariləri əks olunur. Ali Baş Komandan, Prezident İlham Əliyevin dediyi kimi: "Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu qələbələri əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bu maneələri dəf edərək düşməni məğlub etdilər".

Parkı gəzərkən qara geyimdə, əllərində qərənfillərlə dayanan yaşlı bir qadın diqqətimi çəkdi. Onu salamlayıram. Oğlum Həsənov Nurlan şəhid olub, – deyir. Bu park oğlumun döyüşdüyü cəbhəni xatırladır. O, buradakı texnikalardan birini məhv edəndə yaralanmışdı. Mən bu eksponatlara baxanda onun cəsarətini, əzmini görürəm. Bu parkda gəzdikcə oğlunun mübarizəsini, əsgər yoldaşlarının hekayələrini gözlərimdə canlandırıram. Onlar bu torpaq uğrunda can verdilər, biz də onların qəhrəmanlığını yaşatmaqla borcumuzu yerinə yetiririk. Gözlərimdə yaş gilələndi, suallarım dilimdə ilişib qaldı. Səssizcə başımı endirib bu müqəddəs ananın qarşısında ehtiramla dayandım.

Parkda olduğum müddətdə insanlarla söhbətləşdim. Biri hərbi geyimdə, digəri mülki geyimdə olan iki şəxs eksponatları diqqətlə nəzərdən keçirirdi. Hərbi geyimdə olan digərinə nəyisə izah edirdi. Geyimindən müharibə iştirakçısı olduğu bəlli olan gəncə yaxınlaşıb adını soruşuram. "Adım Murad Rüstəmovdur. Füzulidənəm. Bu parkda nümayiş olunan texnikaların bir çoxunu canlı döyüşdə görmüşəm. Park həm psixoloji baxımdan bizim mübarizəmizi xalqa göstərir, həm də gələcək nəsillərə dərsdir. Bu texnikaları döyüşdə necə sıradan çıxardığımızı unutmamaq, unutdurmamaq vacibdir", – deyə fikirlərini bölüşdü.

Digər söhbətləşdiyim ziyarətçilər isə böyük qürur hissi keçirməklə yanaşı, burada mənəvi rahatlıq tapdıqlarını bildirir, Hərbi Qənimətlər Parkının ərsəyə gəlməsi üçün canından-qanından keçən şəhidlərimizə Tanrıdan rəhmət, qazilərimizə şəfa, dövlət başçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə sonsuz təşəkkürlərini ifadə edirlər.

Parkın fəaliyyətə başladığı gündən artıq dörd il ötür. Lakin buna baxmayaraq, hələ də istər respublikamızın sakinləri, istərsə də ölkəmizə təşrif buyuran qonaqlar buranı bir dəfə seyr etmiş olsalar belə, təkrar gəlməkdən məmnunluq duyduqlarını bildirirlər.

Park beynəlxalq ziyarətçilər üçün də vacib mənbəyə çevrilib. Buraya gələn əcnəbilər Azərbaycanın müharibədəki haqlı mövqeyini, mülki əhaliyə qarşı törədilmiş vandalizm izlərini, vətənpərvərlik ruhunu daha dərindən dərk edə bilirlər. Hərbi Qənimətlər Parkı həm də xatirə məkanıdır, ideoloji bazadır, milli qürur ünvanıdır. Burada Zəfər yolu ilə addımlayan hər bir insan təkcə keçmişə deyil, həm də gələcəyə baxır. Çünki bu parkın əsas mesajı aydındır: Unutmayaq, unutdurmayaq!

***Nurəngiz ADİLQIZI***
***XQ***

# "Qara qutu" Türkiyə təyyarəsinin qəza səbəbinə aydınlıq gətirəcək

## *İlkin məlumatlar və müşahidələr isə xarici təsir iddialarını istisna edir*

**Noyabrın 11-də Azərbaycandan Türkiyəyə istiqamətlənən, qardaş ölkəyə məxsus C-130 tipli hərbi-nəqliyyat təyyarəsi Gürcüstan ərazisində qəzaya uğrayıb. İlkin məlumatlara görə, təyyarədə olan 20 nəfərin hamısı həlak olub. Qəzanın ardından Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verib və iki lider arasında telefon danışığı baş tutub. Azərbaycan tərəfi hadisəni böyük həssaslıqla izləyir, müvafiq qurumlar türkiyəli həmkarları ilə daimi əlaqə saxlayır və araşdırmalara hərtərəfli dəstək göstərir.**

Bununla belə, sosial mediada və bəzi media orqanlarında qəzanın səbəblərinə dair əsassız versiyalar və konspiroloji iddialar yayılır. Rəsmi mənbələr bildirir ki, təyyarə qəza öncəsi Gəncə hava limanına eniş edib, orada, təxminən, 2 saat gözləmədə qalıb və bu müddətdə ekipaj hava gəmisini tərk etməyib.

Təyyarədə olan heyət noyabrın 8-də Bakıda keçirilən Hərbi paradda iştirak edən Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələrinə texniki xidmət göstərən mütəxəssislər olub. Uçuşdan öncə onlar bütün təhlükəsizlik yoxlamalarından keçiblər və proseslər hava limanının kameraları tərəfindən qeydə alınıb.

Mənbələr bildirir ki, təyyarədə heç bir partlayıcı maddə və ya qurğu olmayıb — yalnız F-16 təyyarələrinin ehtiyat hissələri daşınıb. Qəzaya uğrayan hava gəmisi uzun müddət istismarda olub və sonuncu dəfə 2020-ci ildə əsaslı təmir keçib. İlkin müşahidələr təyyarənin gövdəsində xarici təsir izlərinin olmadığını göstərir.

Müqayisə üçün qeyd edilir ki, 2024-cü ilin dekabrında Azərbaycana məxsus "Embraer-190" təyyarəsinin qəzaya uğraması zamanı gövdədə xarici təsir nəticəsində çoxsaylı deşiklər aşkarlanmışdı. C-130 tipli təyyarədə belə izlər müşahidə edilmədiyi üçün, onun vurulması və ya partlayış nəticəsində sıradan çıxması versiyası istisna olunur.

Hazırda ilkin araşdırmalar iki əsas versiya üzərində aparılır. Birinci ehtimal texniki köhnəlmə və korroziya versiyası ilə bağlıdır. Uzunmüddətli istismar nəticəsində korroziya, xüsusilə yüksək təzyiq altında uçuş zamanı konstruksiya zədələnməsinə səbəb ola bilər. Oxşar hadisə 1990-cı illərdə ABŞ Hərbi Hava Qüvvələrinə məxsus "Herkules" təyyarəsi ilə də baş vermişdi. İkincisi yükün bərkidilməsi ilə bağlı ehtimaldır. Daşınan avadanlıqlar qaydalara uyğun sabitlənmədikdə, turbilentlik və ya kəskin manevr zamanı yerindən tərpənərək daxili zədələnmələrə və idarəetmənin itirilməsinə gətirib çıxara bilər.

Bu versiyalar sosial mediada yayılan fərziyyələrin əsassız olduğunu




göstərir. Əsl səbəblər təyyarənin "qara qutusu"nun təhlilindən sonra tam müəyyən ediləcək.

Prezident Rəcəb Tayyib Ərdoğan hadisə ilə bağlı çıxışında xalqı səbir və ayıqlığa çağırıb: "Millətimiz əmin olsun ki, Türkiyə Cümhuriyyəti Gürcüstan və Azərbaycanla birlikdə bütün imkanlarını qəhrəmanlarımız üçün səfərbər edib. Araşdırmalar ciddi şəkildə aparılacaq və qəzanın bütün aspektləri tam aydınlaşdırılacaq".

Dövlət başçısı, həmçinin vətəndaşlara sosial mediada yayılan yalan məlumatlara inanmamağı tövsiyə edib: "Xalqımızı manipulyasiyalara və dezinformasiyalara qarşı ayıq olmağa çağırıram. Belə bir faciədən siyasi məqsədlərlə sui-istifadə edənlərə inanmayın".

Cənab Ərdoğanın sözlərinə görə, təyyarənin qalıqları yerli vaxtla saat 17:00-da tapılıb, ərazi mühafizəyə alınıb və 46 nəfərlik mütəxəssis qrupu Gürcüstana göndərilib. Faciə yerində 19 hərbçinin nəşi aşkar edilib, bir nəfərin axtarışı davam edir.

Türkiyə lideri, həmçinin hadisəni Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə telefonla müzakirə etdiyini bildirib: "Bu faciə təkcə türk xalqına deyil, həm də Azərbaycandakı qardaşlarımıza və Gürcüstandan olan dostlarımıza kədər gətirdi. Gürcüstan hakimiyyəti sıx əməkdaşlıq edir və bizə bütün mümkün dəstəyi göstərir. Eyni şey Azərbaycandakı qardaşlarımıza da aiddir".

Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, Ankara hadisənin bütün detalları üzərində işləyir və qəzanın səbəbləri tam dəqiqləşdirilənədək araşdırmalar davam etdiriləcək.

***XQ***

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*uçuş-enmə zolağını qidalandıran ehtiyat enerji mənbəyi üçün dizel generatorun satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin uçuş-enmə zolağını qidalandıran ehtiyat enerji mənbəyi üçün dizel generatorun satınalınması məqsədilə keçirilən açıq tenderdə iştirakçılar elshad.ismayilzada@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 2025-ci il 27 noyabr saat 15:00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs: Elşad İsmayılzadə, aparıcı mütəxəssis, elshad.ismayilzada@azal.az.

**Əlaqə telefonları:** (+99412) 4972600; daxili 5831.

# ABŞ-da "shutdown": büdcə blokadası və sosial kompromis

## *Tramp demokratların inadını sındırdı, amma...*

**ABŞ siyasətinin son ayları dünyanın ən qüdrətli iqtisadiyyatına malik ölkədə dövlət aparatının necə iflic ola biləcəyini bir daha göstərdi. Vaşinqtonda hökumətin maliyyələşdirilməsinin dayandırılması, yəni "shutdown" adlanan böhran vəziyyəti artıq, sadəcə, texniki büdcə problemi deyil, Amerika idarəetmə modelinin ideoloji dərinliyinə enən bir sarsıntıdır.**

"Shutdown" termini ingilis dilində "bağlanma", "dayandırılma" mənasını verir. ABŞ-da bu hal hökumətin illik büdcəsi vaxtında qəbul edilmədikdə baş verir. Konstitusiyaya görə, federal idarələr yalnız Konqres tərəfindən təsdiqlənmiş və prezidentin imzaladığı maliyyə ilə fəaliyyət göstərə bilər. Əgər razılıq əldə olunmazsa, dövlət orqanlarının bir hissəsi bağlanır, yüz minlərlə işçi müddətsiz məzuniyyətə göndərilir, xidmətlər dayanır.

2025-ci ilin oktyabrında baş verən son "shutdown" ABŞ tarixində ən uzun və gərgin böhranlardan biri kimi qiymətləndirilir. Hökumətin fəaliyyəti 40 gündən çox dayandı, federal qurumların işi minimuma endi, sosial proqramlar təxirə salındı, elmi-tədqiqat və pasport xidmətləri ləngidi. Formal olaraq söhbət büdcədən gedir, amma problem ideoloji xarakter daşıyır. Respublikaçılar xərclərin azaldılmasını, sosial proqramlarda sərt nizam-intizamın tətbiqini tələb edirlər. Onların fikrincə, dövlətin artan sosial məsuliyyəti borc yükünü dərinləşdirir və gələcək nəsilləri maliyyə asılılığına salır. Demokratlar isə bu yanaşmanı "insani məsuliyyətsizlik" sayır. Onlar sosial təminat, səhiyyə və təhsil proqramlarının genişləndirilməsini, xüsusən də Affordable Care Act (Obamacare) çərçivəsində aşağı gəlirli ailələr üçün subsidiyaların uzadılmasını tələb edirlər. Demokratların arqumentinə görə, sosial siyasət zəifləsə, Amerikanın sosial birliyi də dağılacaq.

Senat və Nümayəndələr Palatasında uzun sürən müzakirələrdə əsas düyün məhz bu iki zidd mövqedə idi. Respublikaçılar "təmiz" büdcə layihəsi, – yəni heç bir əlavə sosial maddə daxil edilməyən maliyyələşdirmə aktı, – təklif edirdilər. Demokratlar isə sosial təminat və səhiyyə subsidiyaları olmadan səsvermədə iştirak etməyəcəklərini bildirirdilər. Nəticədə 60-a qarşı 40 səslə qəbul edilən layihə kompromis variant kimi Senatdan keçdi. Səkkiz demokrat senator respublikaçılarla birlikdə səs verərək hökumətin fəaliyyətini bərpa edən müvəqqəti razılaşmanı dəstəklədi. Amma bu, tam razılıq deyil, çünki Demokrat Partiyanın içində sərt tənqidlər səslənir: "Razılaşma, sadəcə, hökumətin işini bərpa edir, amma sosial problemləri həll etmir".

Mübahisənin mərkəzində təkcə pul deyil, ideya dayanır. Demokratlar üçün səhiyyə universal hüquqdur, respublikaçılar üçün isə bazar münasibətlərinin bir hissəsi. Sosial proqramların dövlət tərəfindən maliyyələşdirilməsi məsələsində tərəflər onilliklərdir ki, ortaq nöqtə tapa bilmirlər. Demokratlar Medicare və Medicaid kimi proqramların genişləndirilməsini, işsizlərə və aztəminatlı ailələrə subsidiyaların artırılmasını istəyirlər. Respublikaçılar isə bu siyasətin "asılılıq psixologiyası" yaratdığını düşünür və proqramları məhdudlaşdırmağa çalışırlar. Hər iki mövqenin arxasında seçici maraqları və siyasi sponsorların təzyiqləri dayanır.

Respublikaçıların mövqeyi dövlət borcunun və büdcə kəsirinin qarşısını almağa yönəlib. Prezident Donald Trampın rəhbərlik etdiyi administrasiya bu siyasəti Amerika iqtisadi dayanıqlığının əsas tərkib hissəsi kimi təqdim edir və sosial məsuliyyətlə iqtisadi məsuliyyət arasında balansın qorunmasına çalışır. Beləliklə, "shutdown" iki fərqli Amerika modelinin – sosial dövlət və sərbəst bazar dövlətinin toqquşmasıdır.

Senatda qəbul edilən qanun layihəsi federal qurumların fəaliyyətini bərpa etsə də, əsl problemləri həll etmədi. Qanun müvəqqəti xarakter daşıyır və bir neçə həftəlik maliyyələşdirməni təmin edir. Yəni ilin sonuna doğru eyni böhranın təkrarlanması istisna edilmir. ABŞ mediası bu addımı "kompromis"dən çox "müvəqqəti barışıq" adlandırır. "The Washington Post" yazır ki, "bütün tərəflər gərginliyi azaltmaq istəsələr də, əsas fikir ayrılığı – sosial məsuliyyətin həddi – hələ də qalır. "Time" jurnalı isə xəbərdarlıq edir: "Hökumətin iş sistemi bərpa olundu, amma siyasi inam bərpa olunmadı".

"Shutdawn", demək olar ki, cəmiyyətin bütün təbəqələrini təsirə məruz qoydu. Federal işçilərin maaşlarının gecikməsi, dövlət xidmətlərində fasilələr, sosial yardım proqramlarının təxirə salınması – bütün bunlar sıravi amerikalıya dövlətin "uzaq və soyuq mexanizm"ə çevrildiyini göstərdi. Sosial şəbəkələrdə "bizim hökumət bizə qarşı bağlanıb" tipli paylaşımlar artdı. Amerikalı analitiklər bu hadisəni "siyasi sistemin öz vətəndaşına verdiyi soyuq cavab" kimi dəyərləndirirlər. Bəzi ekspertlər qeyd edir ki, ABŞ-da son illər siyasi etimad böhranı sosial parçalanmadan daha təhlükəlidir.

Bir sözlə, ABŞ-da baş verənlər göstərdi ki, idarəetmə böhranı təkcə iqtisadi göstəricilərlə ölçülmür. Bu, həm də dəyərlərin toqquşmasıdır. Demokratlar "insan üçün dövlət" ideyasını, respublikaçılar isə "məsuliyyətli vətəndaş üçün dövlət" konsepsiyasını müdafiə edirlər. Vaşinqtonun bu qarşıdurmasından çıxan əsas nəticə də belə ifadə etmək olar: kompromis olmadan idarəetmə yoxdur.

***S.ELAY***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan boyaların (3 aylıq tələbat üzrə) satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il noyabrın 19-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1263.
**Ünvan:** Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 241 (30935) 13 noyabr 2025-ci il, cümə axşamı

## İDMAN

### Fərid Qayıbov Kayrat Sarıbayla görüşüb



**Dünən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Gənclər Şurasının 8-ci iclası çərçivəsində gənclər və idman naziri Fərid Qayıbov AQEM-in baş katibi Kayrat Sarıbay və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə ölkəmizdə gənclər siyasəti sahəsində görülən işlər, eləcə də Azərbaycan ilə AQEM arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

### AFFA-nın vitse-prezidenti FIFA komissarı olacaq



**AFFA-nın vitse-prezidenti və İcraiyyə Komitəsinin üzvü Könül Mehdiyeva UEFA-dan növbəti təyinat alıb. Qurumdan verilən məlumata görə, o, DÇ–2026-nın seçmə mərhələsi çərçivəsində noyabrın 15-də keçiriləcək Gürcüstan – İspaniya oyununun FIFA komissarı olacaq.**

E qrupunun qarşılaşması Tbilisidə yerləşən Boris Payçadze adına stadionda təşkil olunacaq.

### "Qarabağ" 17 pillə irəliləyib




**Ağdamın "Qarabağ" klubu Dünya reytinqində daha 17 pillə irəliləyib.**

Bu, Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) açıqladığı siyahıda əksini tapıb.

192,25 xalı olan Azərbaycan çempionu 82-ci sıradan 65-ci yerə qalxıb.

"Sabah" 296-cı mövqedən 276-ya, "Zirə" 407-dən 387-yə, "Araz-Naxçıvan" 391-dən 390-a yüksəlib.

Qeyd edək ki, 502 klubun yer aldığı siyahıda Fransa təmsilçisi PSJ 567 xalla liderdir.

### İlahə Qədimova ən yüksək kateqoriyalı hakimlər siyahısında

**Beynəlxalq Şahmat Federasiyası (FIDE) 2026–2027-ci illərdə dünya üzrə ən mötəbər şahmat yarışlarını idarə edəcək hakimlərin siyahısını açıqlayıb.**



FIDE-nin açıqladığı ən yüksək kateqoriyalı hakimlər siyahısında dünyadan 24 ədalət təmsilçisi yer alıb. Bu hakimlərdən 13-ü Avropa ölkələrini təmsil edir. Ən yüksək kateqoriyalı hakimlərin sıralamasında Azərbaycan da yer alıb. Ən mötəbər şahmat yarışlarını idarə edəcək hakimlərin siyahısında ölkəmizdən İlahə Qədimovanın adı qeyd olunub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ Xaçmaz rayonu Şimali kənd sakini Xanəliyev Turac Əlibaba oğluna məxsus 27BV023 nömrə nişanlı VAZ 21917 markalı avtomobilin BD 293655 nömrəli nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

*Futbol–2026-nın seçmə oyunları*

# Son ümidimiz doğrulacaqmı?

## *Millimizdən təsəlli qələbəsi gözləyirik*

**Bu gün Azərbaycan milli komandası final mərhələsi gələn ilin iyun–iyul aylarında ABŞ, Kanada və Meksikada keçiriləcək futbol üzrə 23-cü Dünya çempionatının seçmə yarışlarında növbəti oyununa çıxacaq. Avropa zonasının "D" qrupunda çıxış edən yığmamız saat 21-də 8-ci kilometr qəsəbə stadionunda başlanacaq və çernoqoriyalı hakimlər briqadasının idarə edəcəyi görüşdə İslandiya komandası ilə qarşılaşacaq.**



Bu oyun bir ildən çoxdur ki, beynəlxalq meydanda qələbəyə həsrət qalan komandamızın öz azarkeşlərini, nəhayət, 3 xalla sevindirəcəyinə, bəlkə də son ümid yerimizdir. Çünki 3 gündən sonra, noyabrın 16-da bizi seçmə sınaqları çərçivəsində daha bir ağır oyun gözləyir. Bu dəfə Tofiq Bəhramov adına Respublika Stadionunda Fransa ilə. Hər iki matç futbolçularımızın birinci dövrədə Reykyavikdə və Parisdə böyük hesabla məğlubiyyətlərdən (müvafiq surətdə 0:5 və 0:3 hesabı ilə) necə nəticə çıxardıqları məsələsinə müəyyən dərəcədə aydınlıq gətirməlidir.

Hazırda millimiz qrupun turnir cədvəlində qələbəsiz və ümidsiz vəziyyətdə, sonuncu, 4-cü pillədədir. Buna görə də cədvələ bir daha nəzər salmaq onun tərəfdarlarına xoş deyil. Amma cədvəldən yan keçmək də olmur. Ötəri də olsa, xatırladaq ki, lider Fransa komandası 10 xal toplayıb və onun finişə birinci çatacağı elə bir şübhə doğurmur. Didye Deşamın futbolçuları mundiala vəsiqəni elə bu gecə "Park de Prens" stadionunda Ukrayna ilə oyunda təmin edə bilərlər.

Hesabında 7 xal olan Ukrayna nəzəri cəhətdən hələ yekun cədvəlində birinci olmaq imkanını itirməyib. Lakin bunun üçün komanda, ilk növbədə, ağır Fransa səfərindən evə qələbə ilə qayıtmalıdır. İslandiya 4 xalla üçüncüdür. Azərbaycan komandası isə yeganə xalını Bakıda Ukrayna kollektivi ilə görüşdə qazanıb.

Baş məşqçimiz Ayxan Abbasov İslandiya və Fransa ilə oyunlara hazırlıq üçün 26 futbolçu dəvət edib. Artıq məşqlər başa çatıb və oyun günündəyik. Seçmə sınaqları ilə vidalaşmaq vaxtıdır. Kaş ki, bu turnir futbol tariximizdə heç olmasa, bir qələbə ilə yadda qalaydı.

Bu arada milli çempionatımızda 1-ci dövrəyə yekun vurulub. Fasiləyə "Qarabağ" daha yaxşı əhvali-ruhiyyə ilə çıxıb. Ağdam komandası 23 xalla turnir cədvəlində adət etdiyi mövqedə, zirvədədir. Onun ən yaxın izləyicisi "Turan Tovuz"un 22, üçüncü pillədəki "Sabah" ın isə 21 xalı var. Bu komandanın liderlə görüşünün başqa vaxta keçirildiyini də qeyd edək.

Futbol ictimaiyyətimizin Çempionlar Liqasının əsas mərhələsində "Qarabağ"ın növbəti, 5-ci oyununu böyük səbirsizliklə gözlədiyini də xüsusi vurğulamaq olar. Komanda bir-birindən çətin sınaqlarla dolu yolun yarısını 7 xalla 36 klub arasında 15-ci yerdə başa vurub. İndi isə bu uğuru bir qədər də artırıb, mərhələnin gələn il yanvarın sonuna təsadüf edəcək finişində ən yaxşı 24 klub sırasında olmağa çalışacaq. Təmsilçimiz üçün yolun ikinci yarısında ilk oyun noyabrın 25-də İtaliyanın Neapol şəhərində əfsanəvi Dieqo Armando Maradonanın adını daşıyan stadionda "Napoli" klubu ilə olacaq. Bu komanda Azərbaycan çempionu ilə görüşə 4 xalla turnir cədvəlinin 24-cü pilləsində başlayacaq.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

*VI İslam Həmrəyliyi Oyunları*

### Ramil Vəlizadənin üzgüçülük gümüşü

**Azərbaycan milli komandasının üzvü Ramil Vəlizadə İslam Həmrəyliyi Oyunlarında 200 metr məsafəyə kəpənək üsulu ilə üzgüçülük üzrə 02:01:16 nəticə göstərərək, gümüş medal qazanıb.**



Xatırladaq ki, daha əvvəl sərbəst üsul ilə 1500 metr məsafədə Süleyman İsmayılzadə (15:28:42) bürünc medal qazanıb.

Qadınlar arasında 4x200 metr məsafəyə sərbəst üsulla estafet yarışında isə komandamız bürünc medal qazanıb.

### Stolüstü tennisçilərimizin bürünc mükafatı



**Qadın stolüstü tennisçilərimiz Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında üçüncü yeri tutublar.**

Komanda yarışlarının qrup mərhələsində Uqanda və Pakistan, 1/4 finalda isə Maldiv seçməsinə qalib gələn Mərziyyə Nurmətova, Zemfira Mikayılova və Aylin Əsgərovadan ibarət komanda yarımfinalda Misir seçməsi ilə qarşılaşıb. Görüş 8-5 hesabı ilə Afrika təmsilçisinin xeyrinə nəticələnib. Beləliklə, stolüstü tennisçilərimiz komanda yarışlarını bürünc mükafatla başa vurublar.

### Ağırlıqqaldıranımız 2 gümüş qazanıb

**Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli (110 kq) Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarını iki medalla başa vurub.**



İdmançı təkanla qaldırmada 211 kq çəkinin öhdəsindən gəlməklə gümüş medal əldə edib.

Beləliklə, Dadaş iki hərəkətin cəmində 391 kq qaldırmaqla gümüş mükafata sahib olub. O, daha əvvəl birdən qaldırmada 180 kq çəkinin öhdəsindən gəlmişdi.

Qeyd edək ki, İslamiada noyabrın 21-də başa çatacaq.

### İrina Zaretskaya finalda



**Azərbaycan karateçisi İrina Zaretska Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarının finalına yüksəlib.**

İdmançımız 68 kiloqram çəki dərəcəsində İslamiadanın həlledici görüşünə vəsiqə qazanıb.

İrina Zaretska yarımfinalda ekvatorial qvineyalı rəqibi Anne Coralie Keitanı 6:3 hesabı ilə məğlub edib. O, finalda Eda Eltemurla (Türkiyə) üz-üzə gələcək.

Azərbaycanı 67 kiloqram çəki dərəcəsində təmsil edən idmançımız Nuran Rzazadə isə 1/16 finalda Abdul Vaxab Raşidova (Özbəkistan) 0:2 hesabı ilə məğlub olub.

### Ər-Riyadda Azərbaycan – Türkiyə voleybol finalı

**Qadın voleybolçulardan ibarət Azərbaycan milli komandası VI İslam Həmrəyliyi Oyunlarında finala vəsiqə qazanıb.**

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən yarışda millimiz dünən Əfqanıstan yığması ilə qarşılaşıb. Rəqibini 3:0 (25:7, 25:5, 25:9) hesabı ilə məğlub edən komandamız 3 qələbə ilə finala yüksəlib.



Bu gün keçiriləcək final görüşündə Azərbaycan millisinin rəqibi Türkiyə yığması olacaq.

*Y.QABİL*
*XQ*

## *HAVA*

### Yağmursuz, bəzi yerlərdə duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 9-14, gündüz 16-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 17-21, dağlarda gecə 3-7, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

### ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi Azərbaycan Jurnalistlər Birliyi sədrinin müavini

**ŞAHİN BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Şuranın İdarə Heyəti və Ahıl Jurnalistlər Məclisinin üzvləri Azərbaycan Jurnalistlər Birliyi sədrinin müavini

**ŞAHİN BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi iş yoldaşları Anar Məmmədova dayısı

**MUSA CƏFƏROVUN**

vəfatından kəsdrləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3481
SİFARİŞ 2322
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00